Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 95 (6661) CÜMƏ AXŞAMI, 8 may 2014-cü il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakı şəhər 4 saylı "ASAN xidmət" mərkəzi istifadəyə verilmişdir

## *Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir*













Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakı şəhər 4 saylı "ASAN xidmət" mərkəzinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir.

Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülmüş, müvafiq hüquqi baza formalaşdırılmışdır. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilmişdir. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir.

2012-ci il dekabrın 29-da pilot layihə olaraq Bakıda 1 saylı "ASAN xidmət" mərkəzi fəaliyyətə başladı. 2013-cü ilin mayında Sumqayıtda "ASAN xidmət" sakinlərin istifadəsinə verildi. Daha sonra 2 və 3 saylı Bakı "ASAN xidmət" mərkəzləri, o cümlədən Gəncədə "ASAN xidmət" mərkəzi açıldı. Hər 5 mərkəzə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil etmişdir. Əgər əvvəllər "ASAN xidmət" mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 30 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzlərdə 28 növ funksional yardımçı xidmətlər təşkil edilmişdir. Bütün bunlar dövlət qulluqçusu - vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu ilin fevralında Avropa Parlamentində "İnnovasiya və Mobil İmza-Avropa ilə yeni rəqəmsal inteqrasiya vasitəsi kimi" mövzusunda keçirilən konfransda "ASAN xidmət"in fəaliyyəti ilə bağlı təqdimat olmuşdur. Bu faktın özü bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq vardır və o, öz ətrafında kifayət qədər diqqət toplaya bilmişdir. Təsadüfi deyildir ki, bir sıra dövlətlərin rəsmiləri ölkəmizə gələrək "ASAN xidmət"lərin fəaliyyəti ilə yaxından tanış olurlar.

Artıq Sabunçu rayonunun Bakıxanov qəsəbəsində, Sülh küçəsi, 8A ünvanında yerləşən Bakı şəhər 4 saylı "ASAN xidmət" mərkəzi də fəaliyyətə başlayır. Bu mərkəz Sabunçu, Xəzər və Pirallahı rayonlarının ərazisində qeydiyyatda olan 408 min vətəndaşa xidmət göstərəcəkdir.

Dövlət başçısına məlumat verildi ki, beşmərtəbəli binanın tikintisi ən yüksək standartlara uyğun həyata keçirilmişdir.

Mərkəzdə müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoguşə yaradılmışdır.

Bildirildi ki, "ASAN xidmət" mərkəzlərində yaşayış yerindən asılı olmayaraq, Bakı şəhərində qeydiyyatda olan bütün vətəndaşlara xidmət göstərilməsi nəzərdə tutulur. Mərkəzdə ilk dəfə olaraq UNİCEF ilə birgə Uşaq Hüquq Mərkəzi yaradılmışdır. Burada təşkilatla birlikdə tədbirlərin və uşaq hüquqları sahəsində maarifləndirmə kurslarının keçirilməsi nəzərdə tutulmuşdur.

Mərkəzdə həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin stendi də qurulmuşdur.

"ASAN xidmət" mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, "bir qapı" prinsipinin tətbiq olunması, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin - "dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasıdır. "ASAN xidmət" mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Bununla yanaşı, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri öz fəaliyyətini yüksək standartlara uyğun quran və inkişaf etdirən dövlət orqanı qismində "Vahid məkan" prinsipinə əsaslanan qurumlardandır.

Mərkəzin fəaliyyətini əks etdirən elektron guşələrə baxan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, artıq "ASAN xidmət" təcrübəsinin özünəməxsus hüquqi strukturu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir və bu təcrübə Azərbaycan modeli kimi xüsusi təqdim olunur. Odur ki, "ASAN xidmət"in təkcə Azərbaycanda deyil, uğurlu model olaraq digər ölkələrdə də tətbiqi təşviq edilməkdədir. Bu istiqamət müxtəlif beynəlxalq tərəfdaşlarla, o cümlədən Avropa İttifaqı ilə aparılan əməkdaşlığın əsas prinsiplərindən birini təşkil edir. Geniş marağın nəticəsidir ki, "ASAN xidmət" İSO 9001:2008 standartı üzrə keyfiyyətin idarə olunması ilə bağlı beynəlxalq dərəcəli sertifikata layiq görülmüşdür.

Dövlət başçısı Masallı, Bərdə və Sabirabad rayonlarında inşa olunan "ASAN xidmət" mərkəzlərinin maketlərinə baxdı. Qeyd edildi ki, bu mərkəzlərdə ən yüksək standartlar tətbiq olunacaqdır. Bildirildi ki, "ASAN xidmət"in Azərbaycan dilində çap olunan jurnalının hazırda ingilisdilli versiyası üzərində iş gedir.

Azərbaycan Prezidentinə "ASAN 2" konsepsiyası barədə də məlumat verildi. Bildirildi ki, dövlət xidmətlərinin göstərilməsi zamanı "ASAN 2" konsepsiyasının tətbiqi ilə yeni mərhələyə başlanılacaqdır. Xidmətlər elektronlaşdırılacaq və daha əlçatan olacaqdır. Məmur və vətəndaş arasında təmas və dialoqun minimallaşdırılması məqsədilə "ASAN xidmət" mərkəzlərindəki özünəxidmət köşkləri mühüm rol oynayacaqdır. Bunun üçün köşklər biometrik məlumatların götürülməsi, nağd və plastik kartlar vasitəsilə ödənişlərin aparılması imkanı ilə təmin ediləcəkdir. Bu konsepsiyada daha bir yenilik "ASAN xidmət" binalarının müasir texnologiyaların tətbiqi sayəsində özünü enerji ilə təmin edən funksiyalara malik olmasıdır. Quraşdırılan günəş panelləri binanı elektrik enerjisi ilə təmin edəcəkdir.

Sonra Prezident İlham Əliyev İnnovasiyalar otağında gələcəkdə tətbiq ediləcək innovativ avadanlıqla tanış oldu. Bu il fevralın 11-də dövlət başçısının imzaladığı fərmana əsasən, "ASAN ödəniş" sisteminin hazırlanması üzrə planlı işlər görülmüşdür. "ASAN ödəniş" sistemi vətəndaş ilə dövlət orqanı əməkdaşı arasında birbaşa təması istisna edir, şəffaflığı və operativliyi təmin edir, korrupsiya və digər mənfi halların qarşısını alır. İlkin olaraq "ASAN ödəniş" portalı yaradılmışdır. Bu, vətəndaşların inzibati cərimələri və məhkəmə qərarlarının icrası ilə əlaqədar vəsaitlərin elektron qaydada ödənilməsini təmin edən çoxfunksiyalı ödəniş portalıdır. Bundan başqa, "ASAN ödəniş" terminalının ilkin nümunəsi də artıq hazırdır. Bu terminal vasitəsilə vətəndaşların həm nağd, həm də nağdsız ödəmə etmək imkanı olacaqdır. Sentyabrda istehsalına başlanacaq terminal Azərbaycan məhsuludur və çoxfunksiyalı olması baxımından alternativi yoxdur. Onun əsas özəlliklərindən biri ödənişin qalıq məbləğini həm əskinaz, həm də qəpik olaraq qaytarmaq imkanıdır.

Dövlət başçısına ASAN Mobil Proqramın tətbiqi barədə də məlumat verildi. Diqqətə çatdırıldı ki, vətəndaşların rahatlığı məqsədi ilə "ASAN xidmət" mobil proqram təminatı yaradılmışdır. İnsanlar mobil telefon vasitəsilə müvafiq xidmətlə bağlı ərizələri elektron formada doldura bilərlər. Həmçinin daha öncə doldurulmuş ərizələri yenidən çap etmək imkanı da vardır.

Prezident İlham Əliyev Azərbaycan vətəndaşının biometrik "Miqrasiya kartı" ilə də tanış oldu. Bildirildi ki, şəxsi və biometrik məlumatların qeydiyyatı üçün mobil stansiya və kartın çap olunması üçün avadanlıq ən son texnologiyalara uyğun hazırlanmışdır. Layihənin məqsədi Azərbaycandan emiqrantların qeydiyyatı və nəzarəti prosesinin sistemləşdirilməsidir.

*Ardı 2-ci səh.*

# Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakı şəhər 4 saylı "ASAN xidmət" mərkəzi istifadəyə verilmişdir

## *Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir*

*Əvvəli 1-ci səh.*

"HELP POİNT" avadanlığı da geniş funksiyalara malikdir. Vətəndaşların və ölkəmizə gələn qonaqların məlumat əldə etmələri üçün hazırlanan "HELP POİNT"də istirahət zonaları, gəzməli yerlər, restoranlar, dövlət qurumları, "ASAN xidmət" mərkəzləri haqqında informasiyalar və digər zəruri məlumatlar toplanmışdır. Bundan əlavə, ASAN könüllüləri üzrə məlumat bazası da yaradılmışdır. Bu bazada 1500 nəfər könüllü haqqında müxtəlif məlumat saxlanılır. Ölkəmizdə keçiriləcək bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən 2015-ci ildə təşkil ediləcək ilk Avropa Oyunlarında bu könüllülərin bacarıqlarından və xidmətlərindən geniş istifadə olunması nəzərdə tutulur.

Daha sonra dövlət başçısına GPS Elektron Nəzarət Sisteminin layihəsi barədə məlumat verildi. Bu sistem məhkumlar üzərində nəzarət tədbirlərinin asanlaşdırılmasına xidmət edir.

Prezident İlham Əliyevə gələcəkdə tətbiqi nəzərdə tutulan "co-working", "car sharing", "Asan müraciət-konseptual layihə", "Asan Mobil Hökumət - Azərbaycan həlli" və digər yeniliklər barədə də ətraflı məlumat verildi.

Dövlət başçısı mərkəzin digər mərtəbələrində də yaradılan şəraitlə tanış oldu. Digər mərkəzlərdə olduğu kimi, bu mərkəz də internetə açıq olan kompyuterlərlə təchiz edilmişdir və vətəndaşların burada bütün növ elektron xidmətlərdən yararlanmaları üçün şərait yaradılmışdır.



Bildirildi ki, "ASAN xidmət" mərkəzində vətəndaşların gözləmələri və vaxtlarını səmərəli keçirmələri üçün funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Buradakı xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin haqlarının, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olacaqdır. Bu mərkəzdə də xidmət proseduru fasiləsiz videokamera vasitəsilə qeydiyyata alınır. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilmişdir. Xidmətlərin tənzimlənməsi məqsədilə elektron monitor və elektron elan tabloları qurulmuşdur. Mərkəzdə videomüşahidə kameraları və rüsumların məbləğlərini əks etdirən rüsum tablosu quraşdırılmışdır.

Qeyd olundu ki, mərkəzin işçilərinin ümumi sayı 209 nəfərdir. Onlardan 60 nəfəri könüllüdür.

"ASAN xidmət" yaradıcılığa dəstəklə bağlı müxtəlif sosial aksiyalar keçirməsi ilə də tanınır. Mərkəzdə "YARAT" Müasir İncəsənət Məkanının guşələri də qurulmuşdur.

Binada "ASAN parkinq" avtomobil dayanacağı yaradılmışdır. "ASAN xidmət"in bu mərkəzində də digərlərində olduğu kimi, uşaqlar üçün ayrıca oyun guşəsi qurulmuşdur.

4 saylı "ASAN xidmət" mərkəzinin həyətində "Uşaq avtoşəhərciyi" vardır.

Prezident İlham Əliyev şəhərciyə baxdı.

Bildirildi ki, avtoşəhərcikdə uşaqların yol hərəkəti qaydalarını öyrənmələri və yol nişanlarını tanımaları üçün hər bir şərait yaradılmışdır. Burada balacalar üçün mütəmadi kurslar təşkil olunacaqdır.

Mərkəzin əməkdaşları ilə görüşən Prezident **İlham ƏLİYEV dedi:**

- "ASAN xidmət"in yeni mərkəzi açılır. Çox gözəl hadisədir. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox şadam ki, "ASAN xidmət" mərkəzlərində bizim gənclərimiz çalışırlar, işləyirlər, həm könüllülər, həm burada xidmət göstərən vətəndaşlar. Bu, yenilikdir, müasirlikdir, inkişafdır.

Sabunçu rayonundakı "ASAN xidmət"in fəaliyyətə başlaması demək olar ki, Bakı şəhərində artıq bu məsələni tamamilə həll etmiş olur. Artıq Gəncə, Sumqayıt şəhərlərində də "ASAN xidmət" mərkəzləri vardır. Bu gün mənə göstərilən layihələr də çox gözəl layihələrdir. Sabirabadda, Masallıda, Bərdədə "ASAN xidmət"lər olacaqdır, gələcəkdə isə hər bir yerdə. Çünki Azərbaycan vətəndaşları müasir xidmətlər almalıdır.

"ASAN xidmət" Azərbaycan məhsuludur, Azərbaycan brendidir. Qısa müddət ərzində bu mərkəzlərə 1 milyon 500 min müraciət olmuşdur. Bu, özlüyündə bir göstəricidir. Müraciət edənlərin 97 faizi "ASAN xidmət"in fəaliyyətindən razıdır. "ASAN"ın birinci ilinin tamam olmasını nəzərə alsaq, inanıram ki, gələcəkdə bu rəqəm 100 faizə çatacaqdır. Azərbaycan vətəndaşları belə xidmətlərə layiqdir. Əminəm ki, bu təşəbbüs nəinki Azərbaycanda, başqa ölkələrdə də tətbiq ediləcəkdir.

Azərbaycan vətəndaşlarına xidmət, qayğı, diqqət ən yüksək səviyyədə olmalıdır. Mən bunu dəfələrlə demişəm ki, hər bir dövlət məmuru öz xalqına ləyaqətlə, şərəflə xidmət etməlidir. "ASAN xidmət"in yaradılması bax bu siyasətin nəticəsidir, onun əlamətidir.

Burada göstərilən xidmət, şəffaflıq, mədəniyyət ölkəmizin hər bir yerində özünü göstərməlidir. Biz ölkəmizi müasirləşdiririk, ölkəmiz uğurla inkişaf edir. Hər bir sahədə gözəl nəticələr vardır və olacaqdır.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Əminəm ki, bu "ASAN xidmət"də işləmək sizin üçün də xoşdur. İnsanlara xidmət göstərmək hər bir dövlət məmuru üçün əsas prinsip olmalıdır. Sizi ürəkdən təbrik edirəm, uğurlar arzulayıram.

***

Sonda xatirə şəkli çəkdirildi.

***AzərTAc***

# Azərbaycan Prezidenti İlham Əliyev Hondurasın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Mireya Aquero de Korralesin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Honduras Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri xanım Mireya Aquero de Korralesin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan Respublikası ilə Honduras Respublikası arasında qısa vaxt ərzində yaxşı tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlət başçısı ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Honduras Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə xanım Mireya Aquero de Korralesin Azərbaycanın "Dostluq" ordeni ilə təltif edildiyini dedi və ordeni qonağa təqdim etdi.

Nazir xanım Mireya Aquero de Korrales Honduras Respublikasının Prezidenti Xuan Orlando Ernandes Alvaradonun salamlarını və Prezident İlham Əliyevi Hondurasa səfərə dəvətini dövlət başçısına çatdırdı. O, Azərbaycanın yüksək mükafatlarından olan "Dostluq" ordeninə layiq görüldüyünə görə minnətdarlığını ifadə etdi.



Dövlət başçısı Honduras Respublikasının Prezidenti Xuan Orlando Ernandes Alvaradonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Honduras dövlətinin başçısına çatdırmağı xahiş etdi.

***AzərTAc***

# Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Elmi-texniki nailiyyətlərin insan həyatına sürətlə daxil olduğu, qloballaşma meyillərinin geniş vüsət aldığı müasir dövrdə Azərbaycan cəmiyyətində müxtəlif elm sahələri üzrə biliklərin artırılması və rəqabətədayanıqlı insan kapitalının formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun sürətləndirilməsi fasiləsiz təhsil konsepsiyasını gerçəkləşdirmək və mütərəqqi maarifçilik ənənələrini davam etdirmək sahəsində yeni səmərəli mexanizmlərin yaradılmasını şərtləndirir.

Müasir informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərini nəzərə alaraq elmi-texniki, sosial-iqtisadi, humanitar biliklərin artırılması, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi, dini dəyərlərin təbliği, ekoloji təfəkkürün formalaşdırılması, Azərbaycan dövlətinin daxili və xarici siyasətinin, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu yaradılsın.

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Nizamnaməsi" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun işçilərinin say həddi 20 ştat vahidi müəyyən edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun xərclər smetasını, ştat cədvəlini və işçilərinin aylıq vəzifə maaşlarını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun fəaliyyətinin təşkili ilə bağlı zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

4.6. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun dövlət qeydiyyatına alınmasını bir ay müddətində təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2014-cü il*

# Mireya Aquero de Korralesin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Honduras Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Honduras Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri xanım Mireya Aquero de Korrales "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2014-cü il*

# M.S.Məmmədovun Tərtər Rayonu İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Müstəqim Səyyad oğlu Məmmədov Tərtər Rayonu İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2014-cü il*

# Ş.N.Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Şair Nəcməddin oğlu Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2014-cü il*

# Mireya Aquero de Korrales: Son illər Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, sürətli iqtisadi inkişafı bizi sevindirir



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov mayın 7-də Honduras Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri xanım Mireya Aquero de Korralesin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

AzərTAc xəbər verir ki, görüşdə Oqtay Əsədov Azərbaycan ilə Honduras arasında əlaqələrdən danışmışdır. Bildirmişdir ki, iki ölkə arasında 20 ildən artıq tarixə malik münasibətlər mövcuddur. Azərbaycan və Honduras arasında siyasi əlaqələrin inkişaf etdiyini deyən Milli Məclisin Sədri iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsi üçün potensialın olduğunu diqqətə çatdırmışdır.

Oqtay Əsədov qeyd etmişdir ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişafını təmin etmək üçün hüquqi bazanın yaradılması zəruridir.

Honduras Milli Konqresinin Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalını və Xocalı soyqırımını tanıyan qərarına toxunan Milli Məclisin Sədri buna görə minnətdarlığını bildirmişdir.

Xanım Mireya Aquero de Korrales demişdir ki, ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, xüsusən ticarət, maliyyə, enerji sahələrində əməkdaşlığı dərinləşdirmək üçün kifayət qədər potensial vardır.

Nazir Prezident İlham Əliyevin ona Azərbaycanın yüksək mükafatlarından olan "Dostluq" ordenini təqdim etdiyini bildirərək demişdir: "Bu mükafat məni çox şərəfləndirdi".

Ölkəmiz haqqında kifayət qədər məlumatlı olduqlarını qeyd edən Mireya Aquero de Korrales bildirmişdir: "Son illərdə Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, sürətli iqtisadi inkişafı bizi sevindirir."

Sonda Oqtay Əsədov Hondurasın Beynəlxalq Ədalət Məhkəməsinin nümayəndəsi Karlos Lopez Kontrerasa və bu ölkənin Meksikadakı səfiri Xose Mariano Kastilyo Merkadoya respublikalarımız arasında siyasi münasibətlərin inkişafındakı xidmətlərinə görə Milli Məclisin Fəxri medalını təqdim etmişdir.

# Azərbaycan-İtaliya əlaqələrinin daha da inkişafı üçün böyük potensial vardır



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov mayın 7-də İtaliya Senatının müdafiə komissiyasının sədri, Demokrat Partiyasının üzvü Nikola Latorrenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

AzərTAc xəbər verir ki, görüşdə Oqtay Əsədov Azərbaycan və İtaliya arasında əlaqələrin sürətlə inkişaf etdiyini demişdir.

İtaliyanın Avropada Azərbaycanın əsas tərəfdaşlarından biri olduğunu deyən Milli Məclisin Sədri ölkələrimiz arasında ticarət dövriyyəsinin ildən-ilə artdığını diqqətə çatdırmışdır.

Oqtay Əsədov Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm roldan danışmışdır. Bildirilmişdir ki, Azərbaycan qazının Avropaya nəqlini həyata keçirmək üçün ötən ilin sonunda Bakıda "Şahdəniz-2" üzrə yekun investisiya qərarı imzalanmışdır. Sədr qeyd etmişdir ki, Transadriatik boru kəmərinin (TAP) istifadəyə verilməsi ilə Avropaya yeni qaz dəhlizi açılacaqdır.

Oqtay Əsədov hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini yüksək qiymətləndirmişdir.

Nikola Latorre Azərbaycan və İtaliya arasında möhkəm dostluq əlaqələrinin olduğunu bildirmişdir. Ölkələrimiz arasındakı iqtisadi əməkdaşlığa toxunan N.Latorre mövcud əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırmışdır.

Qonaq Azərbaycanın mürəkkəb geosiyasi mövqedə yerləşməsinə baxmayaraq, sabit ölkə olduğunu və müdrik siyasət yeritdiyini qeyd etmişdir.

Transadriatik boru kəməri ilə bağlı fikirlərini bölüşən Nikola Latorre bu layihənin reallaşması istiqamətində görülən işləri yüksək qiymətləndirmişdir.

# Azərbaycan-İtaliya əlaqələri müzakirə olunmuşdur

Mayın 7-də Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini, Təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan İtaliya Senatının müdafiə komissiyasının sədri, Demokrat Partiyasının üzvü Nikola Latorrenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

AzərTAc xəbər verir ki, Azərbaycanın İtaliya ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirən Ziyafət Əsgərov yüksək səviyyəli səfərlərin ölkələrimiz arasındakı sıx münasibətlərin əyani təzahürü kimi dəyərləndirmişdir. Azərbaycanın və İtaliyanın beynəlxalq təşkilatlarda da bir sıra məsələlərin həllində eyni mövqedən çıxış etdiklərini diqqətə çatdıran Z.Əsgərov qarşılıqlı münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliyini bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi barədə ətraflı məlumat verən Ziyafət Əsgərov vurğulamışdır ki, işğalçı ölkə BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrə məhəl qoymur. Münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olsa da, bunun heç bir nəticəsi yoxdur.

Qonağın diqqətinə çatdırılmışdır ki, bu gün Azərbaycanda tolerantlıq hökm sürür və ölkəmizdə bir çox dini konfessiyalar fəaliyyət göstərir.

Nikola Latorre münasibətlərimizin inkişafında qarşılıqlı səfərlərin daha da intensivləşdirilməsinin vacibliyini vurğulamışdır. Azərbaycanın beynəlxalq təşkilatlardakı mövqeyi İtaliya üçün çox önəmlidir. Qonaq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacibliyini qeyd etmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran, eləcə də regionda və bölgədə baş verən proseslərlə bağlı fikir mübadiləsi aparılmışdır.

Görüşdə Azərbaycan-İtaliya parlamentlərarası işçi qrupunun rəhbəri Azər Kərimli, ölkəmizin İtaliyadakı səfiri Vaqif Sadıqov və digər rəsmi şəxslər iştirak etmişlər.

# Heydər Əliyev Mərkəzində Qafqaz Biomüxtəlifliyi Sammiti keçirilmişdir

## *Azərbaycanın birinci xanımı Mehriban Əliyeva sammitdə iştirak etmişdir*





Mayın 7-də IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin təşkilati dəstəyi ilə Heydər Əliyev Mərkəzində Qafqaz Biomüxtəlifliyi Sammiti keçirilmişdir.

AzərTAc xəbər verir ki, tədbirdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva iştirak etmişlər.

Sammitə həmçinin tanınmış beynəlxalq ekspertlər, bir sıra nüfuzlu təşkilatların, o cümlədən Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyinin (IUCN), Dünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF), Smitson İnstitutunun, London Zoologiya Cəmiyyətinin və Harvard Universitetinin təmsilçiləri, eləcə də Azərbaycandan olan alimlər qatılmışlar.

Tədbirin əlaqələndiricisi **Arlo BRADİ** bildirmişdir ki, Qafqaz Biomüxtəlifliyi Sammiti bəbir və digər pişikkimilərin mühafizəsi istiqamətində bilik və təcrübələrin bölüşdürülməsi, bu sahədə ən qabaqcıl və səmərəli vasitələrin tətbiqinin müzakirəsi məqsədini daşıyır.

Arlo Bradi Leyla Əliyevanın ətraf mühitin mühafizəsi ilə əlaqədar fəaliyyətini yüksək qiymətləndirmişdir.

Sonra Azərbaycanda biomüxtəlifliyin qorunması ilə bağlı film nümayiş etdirilmişdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti **Leyla ƏLİYEVA** sammitdə çıxış edərək vurğulamışdır ki, Azərbaycan qədim ənənələr, zəngin tarix və mədəniyyət ölkəsidir. Ölkəmiz Avropa ilə Asiya arasında yerləşir və Şərq müdrikliyi ilə Qərb tərəqqisini özündə təcəssüm etdirir. Şəhərimizi nadir edən odur ki, qədim İçərişəhərin və Qız qalasının memarlığı yeni tikilmiş müasir memarlıq nümunələri ilə birgə vəhdət təşkil edir. Azərbaycan keçmişdə tarixi İpək Yolunun mərkəzində olmuşdur. Bizim coğrafi mövqeyimiz nəinki mədəniyyətimizə, həmçinin təbiətimizə də təsirini göstərmişdir. Belə ki, dünyadakı 11 iqlim qurşağının 9-u məhz Azərbaycanda yerləşir və bu, bizim biomüxtəlifliyimizi təmin edir.

Təbiəti qorumağa gənc yaşlardan başlamağın vacibliyindən danışan Leyla Əliyeva IDEA-nın öz ətrafında gəncləri birləşdirdiyini demişdir. O bildirmişdir ki, ətraf mühiti nəinki öz Vətənimizdə, bütün dünyada qorumağı qarşısına məqsəd qoyan IDEA fəaliyyət göstərdiyi müddətdə Azərbaycanda və bütövlükdə regionda ekologiyanın, flora və faunanın mühafizəsi ilə bağlı bir sıra layihələr həyata keçirmişdir. Onların sırasında bölgənin rəmzi olan, nəsli kəsilmək təhlükəsi ilə üzləşən 5 heyvan növünün - qonur ayı (Ursus arctos), imperator qartalı (Aquila heliaca), boz canavar (Canis lupus), ceyran (Gazella subgutturosa) və Qafqaz bəbirinin (Panthera Pardus saxicolor) mühafizəsini nəzərdə tutan "Qafqazın böyük beşliyi" layihəsi xüsusi əhəmiyyət kəsb edir.

Həyata keçirilmiş layihələr çərçivəsində Azərbaycanda 3 milyondan çox ağac əkildiyini diqqətə çatdıran Leyla Əliyeva vurğulamışdır ki, təhsil ocaqlarında da ətraf mühitin qorunması üzrə siniflər yaradılmışdır. IDEA-nın digər vacib keyfiyyətlərindən biri odur ki, bütün layihələr mümkün qədər yaradıcı və bədii bir formada təqdim edilir.

IDEA-nın təsisçisi və rəhbəri qeyd etmişdir ki, bizim əsas məqsədimiz dünyada nəsli kəsilməkdə olan növlərin bərpasına nail olmaq və onları qorumaqdır. Bununla bağlı bir sıra beynəlxalq təşkilatlarla da birgə iş aparılır. Sevindirici haldır ki, artıq Azərbaycan Beynəlxalq Ətraf Mühitin Qorunması Təşkilatının üzvüdür.

Heydər Əliyev Fondunun vitse-prezidenti qeyd etmişdir ki, birgə səylər nəticəsində planetimizdə çox böyük dəyişikliklərə nail ola bilərik.

Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri **Hüseynqulu BAĞIROV** ölkədə biomüxtəlifliyin qorunması istiqamətində görülmüş işlərdən danışmışdır.

Xüsusi vurğulanmışdır ki, Azərbaycanda ekoloji proqramlara çox böyük yer verilir və dövlət başçısı İlham Əliyev bu işləri diqqət mərkəzində saxlayır.

Nazir Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyevanın da ölkəmizdə ekologiyanın, o cümlədən nəsli kəsilməkdə olan heyvanların mühafizəsi istiqamətində böyük işlər gördüklərini vurğulamışdır.

Hüseynqulu Bağırov biomüxtəlifliyin təmin olunmasında IDEA İctimai Birliyinin mühüm layihələr reallaşdırdığını və bu sahədə dövlət siyasətinə hərtərəfli dəstək verdiyini qeyd etmişdir.

Bildirilmişdir ki, görülmüş işlər nəticəsində son 10 ildə Azərbaycanda 90 min hektara qədər ərazidə yeni meşələr salınmışdır.

Nazir ölkəmizdə meşəsalma, "Qırmızı Kitab"a düşən flora və fauna növlərinin mühafizəsi, Vəhşi Təbiətin Reabilitasiyası Mərkəzinin fəaliyyəti barədə də danışmışdır.

Ekologiya və təbii sərvətlər naziri Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızda ətraf mühitə böyük ziyan vurulduğunu xüsusilə diqqətə çatdırmışdır.

Sonra IDEA İctimai Birliyinin fəaliyyəti ilə bağlı təqdimat olmuşdur.

Sammitdə Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin baş direktoru **Juliya MARTON-LEFEVRE** nəsli tükənməkdə olan heyvan növləri və onları qorumaq istiqamətində görülmüş işlərlə bağlı təqdimatla çıxış etmişdir.

Rəhbərlik etdiyi təşkilatın Azərbaycan ilə əməkdaşlığa üstünlük verdiyini söyləyən qonaq diqqətə çatdırmışdır ki, bu gün daha sıx əlaqələrin qurulması üçün müzakirələr aparılacaqdır.

Juliya Marton-Lefevre rəhbərlik etdiyi beynəlxalq təşkilatın məhv olmaq təhlükəsi ilə üzləşən heyvanların siyahısını hazırladığını diqqətə çatdırmış, statistik göstəricilərə əsasən, pələnglərin məhv olmaq təhlükəsindən danışmışdır.

Sammitin birinci hissəsindən sonra tədbirin iştirakçılarına Heydər Əliyev Fondu və IDEA-nın aktual ekoloji problemlərin həlli və əhali arasında ictimai ekoloji nəzarətin gücləndirilməsi məqsədilə həyata keçirilən "Ağacların kəsilməsinə yox!" birgə proqramı barədə məlumat verilmişdir.

Bildirilmişdir ki, bu proqram çərçivəsində "Təbiətə təcili yardım" qaynar xətti və mobil qrup yaradılmışdır. Belə ki, vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda qaynar xətt vasitəsilə şikayət və təkliflərini İctimai Birliyə çatdıra biləcəklər. Mobil qrup isə daxil olan şikayətləri yerində araşdıracaq, problemlə bağlı əlavə sübutları, foto və videomaterialları toplayacaqdır. Bundan əlavə, vətəndaşlar qanunsuz ağac kəsilməsi ilə bağlı müraciətlərini IDEA-nın rəsmi internet səhifəsi **(www. idea-campaign.org)** vasitəsi ilə ünvanlamaq imkanı əldə edəcəklər. Toplanan materiallar Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunacaqdır.

Ətraf mühitin və vəhşi təbiətin öyrənilməsi üzrə müxtəlif ölkələri təmsil edən mütəxəssislər, ekspertlər, alimlər çıxış edərək belə bir mühüm layihənin reallaşdırılmasına göstərdiyi dəstəyə görə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya minnətdarlıqlarını bildirmiş və sammitdə səsləndirilən fikirləri yüksək qiymətləndirmişlər.

Azərbaycan hökumətinin meşələrin mühafizəsi istiqamətində gördüyü işlərin təqdirəlayiq olduğunu deyən qonaqlar vurğulamışlar ki, belə tədbirlər təbiətin öyrənilməsi işinə töhfə verəcəkdir.

Çıxış edənlər Amerika və Afrika təbiəti, eləcə də vəhşi canlı aləmin öyrənilməsində müasir texnologiyalardan istifadənin vacibliyindən söz açmışlar.

Sammitdə ətraf mühitin öyrənilməsi ilə məşğul olan QHT-lərin birgə fəaliyyətinin vacibliyi vurğulanmış və bu istiqamətdə bir sıra işlərin görüldüyü diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, vəhşi təbiətin qorunması ilə bağlı mövcud hüquqi bazanın öyrənilməsi və tətbiqi olduqca zəruridir.

Çıxışlarda məhv olmaq təhlükəsi ilə üzləşmiş heyvan növlərinin bərpası istiqamətində səylərin birləşdirilməsi təklif olunmuş, vəhşi heyvanların yaşadıqları yerlərdən uzaqlaşması, iqlim dəyişikliyi, ətraf mühitin onların həyat tərzinə təsiri və digər məsələlər barədə də müzakirələr aparılmışdır.

Eyni zamanda, Qafqaz bəbirinin mühafizəsi, Azərbaycanda bu heyvan növünün artırılması üçün əlverişli mühitin yaradılması və onların qida təminatı ilə bağlı fikirlər səsləndirilmişdir.

Sammitdə heyvanlar aləminə maraq və həvəsi ilə əlaqədar dünyanın bir çox ölkələrini gəzən fotoqraf və rejissor kimi tanınmış Adrian Sternin təqdimatında Azərbaycanın Lənkəran və Astara rayonlarının ərazisində yerləşən Hirkan Milli Parkında lentə aldığı kadrlar nümayiş olunmuşdur.

Videomaterialda Milli Parkın ərazisində yaşayan Qafqaz bəbirlərindən bəhs edilmiş və onların qorunmasının vacibliyi vurğulanmışdır.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Sammitdə yekun olaraq qərara alınmışdır ki, bəbir və pişikkimilərin mühafizəsi istiqamətində bilik və təcrübələrin bölüşdürülməsi, bu sahədə qabaqcıl biliklərin mənimsənilməsi üçün belə tədbirlər davamlı təşkil edilməlidir. Bildirilmişdir ki, bu işdə əsasən gənclər fəal olmalıdırlar.

Vurğulanmışdır ki, bəbir və pişikkimilərin qida ehtiyacının təmin edilməsi, onların populyasiyasının artırılması, arealının genişləndirilməsi daim diqqət mərkəzində saxlanılmalıdır.

Sammitdə iştirak edən qonaqlar Qəbələyə səfər edəcək, Azərbaycanın fauna və florası ilə yaxından tanış olacaqlar.

***AzərTAc***

# Heydər Əliyev Mərkəzində "Afrikanın vəhşi təbiəti" mövzusunda sərgi açılmışdır

Mayın 7-də Heydər Əliyev Mərkəzində heyvanlar aləminə maraq və həvəsi ilə əlaqədar dünyanın bir çox ölkələrini gəzən fotoqraf və rejissor kimi tanınmış Adrian Sternin "Afrikanın vəhşi təbiəti" mövzusunda sərgisi açılmışdır.

AzərTAc xəbər verir ki, sərgi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin təşkilati dəstəyi ilə keçirilmiş Qafqaz Biomüxtəlifliyi Sammiti çərçivəsində reallaşdırılmışdır.

Sərginin açılışında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva iştirak etmişlər.

Məlumat verilmişdir ki, sərginin məqsədi diqqəti vəhşi təbiətin zənginliklərinə və onun qorunmasının vacibliyinə yönəltməkdir. Sərgidə 35 əsər nümayiş etdirilir. Müəllif



Afrikanın flora və faunasının müxtəlifliyini əks etdirən foto-şəkilləri son 10 ildə Cənubi Afrika Respublikası, Zimbabve, Zambiya, Tanzaniya və Uqandaya səfərləri zamanı çəkmişdir. Sərginin müəllifi Dünya Vəhşi Təbiət Fondunun Cənubi Afrikadakı nümayəndəliyinin fotoqrafı kimi vəhşi təbiətin qorunması, təsviri materiallarından istifadə edərək brakonyerlik və digər aktual məsələlər barədə müzakirələrin aparılması və tədbirlər görülməsini stimullaşdırmaq üçün fəal iş aparır.

Sərgi ilə bağlı fikirlərini bölüşən Adrian Stern bildirmişdir ki, bu çox təqdirəlayiq tədbirdir. Bu qədər insanı bir yerə toplamaq və dəyərli fikirləri bölüşmək Azərbaycanın beynəlxalq səviyyədə təbiətin qorunması işinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Dəfələrlə Azərbaycanda olduğunu deyən fotoqraf hər səfərində paytaxtımızda gördüyü sürətli inkişafın onda heyranlıq doğurduğunu vurğulamışdır. O bildirmişdir ki, hər dəfə bu ölkəyə gələndə gözlədiyimdən daha çox dəyişiklik və inkişaf görürəm.

Hazırda Qafqaz bəbiri və onun Azərbaycanda mövcudluğu haqqında sənədli film üzərində işləyən Adrian Sternin sərgisi böyük maraqla qarşılanmışdır.

# "Heydər Əliyev və yeni cəmiyyət modeli" konfransının iştirakçıları Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət etmişlər



Yeni Azərbaycan Partiyası təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və yeni cəmiyyət modeli" konfransının iştirakçıları mayın 7-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

***AzərTAc***

# IDEA-nın Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin ətraf mühitlə bağlı təşəbbüsünə qoşulması barədə müzakirələr aparılmışdır



Mayın 7-də Bakıda keçirilən Qafqaz Biomüxtəlifliyi Sammiti çərçivəsində IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin rəhbəri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin baş direktoru Juliya Marton-Lefevre ilə görüşmüşdür.

AzərTAc xəbər verir ki, qonağı salamlayan Leyla Əliyeva bu sammitin ətraf mühit və vəhşi təbiətin qorunması istiqamətində Azərbaycanda görülən işlərdən biri olduğunu vurğulamışdır. Leyla Əliyeva Heydər Əliyev Fondu və IDEA-nın bu istiqamətdə həyata keçirdiyi mühüm layihələr barədə məlumat vermişdir.

Azərbaycanda olmasından məmnunluğunu ifadə edən Juliya Marton-Lefevre tədbirin mühüm əhəmiyyətə malik olduğunu qeyd etmişdir. O bildirmişdir ki, sammit ətraf mühitin qorunması istiqamətində ciddi müzakirələrin aparılması baxımından səmərəli platformadır. Qonaq Bakıda həyata keçirilən böyük layihələrdən məmnunluğunu ifadə etmişdir.

Görüşdə, həmçinin IDEA-nın Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin ətraf mühitlə bağlı təşəbbüsünə qoşulması barədə müzakirələr aparılmışdır.

# Azərbaycan ilə NATO arasında əməkdaşlığın mövcud vəziyyəti müzakirə olunmuşdur

Mayın 7-də Qaraheybət Təlim Mərkəzində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun İzmirdə yerləşən Quru Qoşunlarının komandanının müavini general-leytenant Qordon Messencer ilə görüşmüşdür.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, Zakir Həsənov Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin motoatıcı taborunun 2-ci səviyyəli NATO qiymətləndirməsi üzrə səhra təlimini izləyən Q.Messencer ilə Azərbaycan-NATO əməkdaşlığının mövcud vəziyyəti və regionda baş verən hərbi-siyasi prosesləri müzakirə etmişlər.

General-leytenant Q.Messencer qiymətləndirmə təlimində iştirak edən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin yüksək peşəkarlığından və hazırlığından məmnun qaldığını xüsusi vurğulamışdır.

Görüşdə Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıqov da iştirak etmişdir.

# Azərbaycan ilə Xorvatiya arasında əməkdaşlıq dostluq münasibətləri üzərində qurulmuşdur

Mayın 7-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Qaraheybət Təlim Mərkəzində ölkəmizdə səfərdə olan Xorvatiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Daraqo Lovriç ilə görüşmüşdür.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, görüşdə nazir iki ölkə arasında əməkdaşlığın dostluq münasibətləri üzərində qurulduğunu və bu əlaqələrin inkişaf etdiyini vurğulamışdır.

Cənubi Qafqaz və Balkan bölgələri arasında mövcud oxşar vəziyyətə toxunan müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin regional sabitliyə əsas təhlükə yaratdığını və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyini diqqətə çatdırmışdır.

Söhbət zamanı, həmçinin ölkələrimizin yerləşdikləri regionlardakı hərbi-siyasi vəziyyət və təhlükəsizlik, Azərbaycan-Xorvatiya hərbi əlaqələri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

Görüşdə Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıqov və Xorvatiya Respublikasının ölkəmizdəki müvəqqəti işlər vəkili, xanım Neda Milişiç də iştirak etmişlər.

# Yeni Azərbaycan Partiyası "Heydər Əliyev və yeni cəmiyyət modeli" mövzusunda konfrans keçirmişdir






Mayın 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası (YAP) "Heydər Əliyev və yeni cəmiyyət modeli" mövzusunda konfrans keçirmişdir.

AzərTAc xəbər verir ki, Baş nazirin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov konfransı açaraq ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışmışdır. Azərbaycanın müasir tarixinin Heydər Əliyevin adı, onun xilaskar və quruculuq missiyası ilə bilavasitə bağlı olduğunu vurğulayan Əli Əhmədov bildirmişdir ki, ölkəmizin çoxəsrlik tarixində bu dövrün xüsusi yeri və rolu vardır. Azərbaycan xalqının Heydər Əliyev irsinə sadiqliyi, onun siyasətinin alternativsizliyini birmənalı şəkildə qəbul etməsi dahi şəxsiyyətin ideyalarının həmişəyaşarlılığının və onun tarixi missiyasının yeni şəraitdə davam etdirilməsinin göstəricisidir. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə respublikamızın bütün sahələrdəki qüdrətli inkişafı və bu tərəqqinin nəticələri ölkəmizin və xalqımızın gələcək taleyinə çox yüksək təsir göstərmək imkanındadır. Heydər Əliyev Azərbaycanı yalnız vətəndaş müharibəsindən xilas etməmiş, onun gələcək inkişaf planını hazırlamışdır. Ölkəmizin zəngin karbohidrogen ehtiyatlarına malik olmasından məharətlə istifadə edən ümummilli lider dünyanın aparıcı neft şirkətlərinin diqqətini Azərbaycana yönəldə bilmişdir. Məhz Heydər Əliyevin diplomatik səyləri nəticəsində 1994-cü ilin sentyabrında Bakıda tarixə "Əsrin müqaviləsi" adı ilə düşmüş neft kontraktı imzalanmışdır. Bu müqavilənin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycana investisiya qoyuluşu başlamışdır ki, bununla da işsizlik, yoxsulluq kimi problemlər öz həllini tapmış, respublikamız iqtisadi inkişaf yoluna qədəm qoymuşdur.

Konfransda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik Akif Əlizadə "Heydər Əliyev: şəxsiyyət və tarix münasibətlərinin dialektikası" mövzusunda məruzə ilə çıxış etmişdir.

Ulu öndər Heydər Əliyevin XX əsrin Azərbaycana, xalqımıza, dünyaya bəxş etdiyi ən böyük vətəndaş, dahi şəxsiyyət, müdrik siyasi xadim, əbədi lider olduğunu vurğulayan AMEA-nın prezidenti demişdir ki, Heydər Əliyevin respublikamızın gələcəyi naminə göstərdiyi böyük fəaliyyətinin nəticələri zaman keçdikcə daha aydın şəkildə görünməkdədir. Çünki bu fəaliyyət xalqın gələcəyi üçün uzaqgörənliklə düşünülmüş, ən yüksək dəyərlər səviyyəsində qiymətləndirilmiş və milli inkişafın strateji proqramı kimi qəbul olunmuşdur. Ümummilli liderin milli quruculuq proqramı zamana və şəraitə uyğun olaraq uğurla həyata keçməkdədir. Dahi şəxsiyyət yaxın və uzaq hədəfləri elə dəqiqliklə müəyyənləşdirmişdir ki, hər mərhələ öz zamanında aktuallaşır, gerçəkləşir və növbəti mərhələyə doğru inkişaf edir. Bu mənada ulu öndərin əbədi miras qoyduğu strateji proqram yaradıcı gücə malikdir və bu güc onun təməl prinsiplərinin əsaslarındadır.

Bildirilmişdir ki, Heydər Əliyevin əsasını qoyduğu başlıca istiqamətlər demokratik dövlət quruculuğunu şərtləndirən dünyəvi, hüquqi prinsiplərə əsaslanan və elmi intellektual ehtiyatlar üzərində qurulan müasir modellərdir. Dünyanın ən çox inkişaf etmiş ölkələrinin tarixi təcrübəsində sınanan demokratik modellər və hüquqi prinsiplər Böyük Öndərin dahi düşüncəsindən keçmiş, təhlil olunmuş və tətbiq üçün hazırlanmışdır. Ona görə də Azərbaycan ən doğru demokratiya yolu ilə irəliləməkdədir. Bu gün Azərbaycanın inkişaf yolu Heydər Əliyev dühasının işığında aydınlaşır və millətin gələcəyinin daha da parlaq olması üçün möhkəm və sağlam təməllərə əsaslanır.

Qeyd olunmuşdur ki, ictimai-siyasi və mədəni həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin quruculuq fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin. Heydər Əliyevin dövlət quruculuğu dünyəvi demokratik prinsiplərlə milli əxlaq və milli-mənəvi dəyərlər sisteminin sintezini təşkil edir. Belə fundamental quruculuq gələcəkdə daha səmərəli nəticələrin alınmasını da təmin etmək üçün böyük uzaqgörənliklə düşünülmüş siyasətin tərkib hissəsini təşkil edir.

Milli Məclis Sədrinin birinci müavini, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov "Heydər Əliyev siyasətində demokratiya və plüralizm" mövzusundakı məruzəsində bildirmişdir ki, 1993-cü ilin prezident seçkiləri ərəfəsində Heydər Əliyev öz proqramında bəyan etmişdir ki, Azərbaycan demokratik inkişaf yolunu seçəcək və xalqımız sivil dünyanın yolu ilə gedəcəkdir. Demokratik inkişaf yolunu tutan hər hansı bir ölkə, ilk növbədə, demokratiyanın vacib şərtlərindən olan iqtisadi inkişaf modelini müəyyən etməlidir. Ulu öndər Heydər Əliyev həmin dövrdə qətiyyətlə vurğulamışdır ki, Azərbaycan bazar münasibətləri yolu ilə gedəcəkdir. O, çox yaxşı bilirdi ki, hüquqi, demokratik dövləti yalnız bazar münasibətlərinə əsaslanan bir cəmiyyətdə qurmaq olar. Ölkədə demokratik inkişafı reallaşdırmaq və demokratik islahatları keçirmək yalnız möhkəm iqtisadi bazaya əsaslanmaqla mümkündür. Buna görə də ulu öndər Heydər Əliyev iqtisadiyyatın tamamilə yenidən qurulması və iqtisadi islahatların aparılmasını ön plana çəkmişdir.

Vitse-spiker diqqətə çatdırmışdır ki, Heydər Əliyev demokratik cəmiyyət quruculuğunun vacib şərtlərindən olan demokratik təsisatların - parlament və seçki sisteminin formalaşması və inkişafına xüsusi əhəmiyyət verirdi. Qeyd etmək lazımdır ki, bütün müsəlman Şərqində ilk cümhuriyyət parlamenti 1918-ci ildə Azərbaycanda yaranmışdır. Bu mənada Azərbaycan müəyyən parlament və parlamentarizm ənənələrinə malik idi. Müasir Azərbaycan parlamentinin yaranmasının banisi Heydər Əliyev bu sahədə uğurlu işlərə imza atmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Hicran Hüseynova "Heydər Əliyev irsində ailə, qadın və uşaq məsələləri vətəndaş cəmiyyətinin formalaşmasında əsas amil kimi" mövzusundakı məruzəsində bildirmişdir ki, ölkəyə başçılıq etdiyi bütün dövrlərdə millətin gələcəyinə, təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin hərtərəfli inkişafına həmişə qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi qeyd edərək deyirdi: "Ailə dəyəri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir". Ulu öndər heç bir Azərbaycan ailəsinin taleyinə laqeyd qala bilmirdi. O, Azərbaycanda ailə adətlərimizin ləyaqətlə davam etdirilməsi üçün hər cür imkan və şərait yaradır, bu işdə dəstəyini xalqdan əsirgəmirdi. Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Ulu öndər hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusu, qayda-qanunu, əlaqələri və prinsipləri gözləməyə borcludur. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bütün bacardığından istifadə etməli, hamıya hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara tam riayət etməlidir. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Müstəqil dövlətimizin ali sənədinin - Konstitusiyanın müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir.

Heydər Əliyev ailədaxili münasibətləri cəmiyyətdaxili münasibətlərin güzgüsü hesab edir, bu prinsipləri özünün siyasi təcrübəsində də tətbiq etməyə çalışırdı. Bu baxımdan o, ailədə və cəmiyyətdə xüsusi yeri olan qadınların hüquqlarının müdafiəsini zəruri hesab edirdi. Ulu öndər deyirdi: "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bugünümüzün, gələcəyimizin dayağıdır".

H.Hüseynova bildirmişdir: Bizim hər birimiz fəxr etməli və qürur duymalıyıq ki, ümummilli liderin yolunu və ideyalarını dünya siyasətçiləri arasında sayılıb-seçilən böyük dövlət xadimi İlham Əliyevlə yanaşı, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Heydər Əliyevin sevimli nəvələri ləyaqətlə davam etdirir, öz xeyirxah və nəcib əməlləri ilə hamıya nümunə göstərirlər.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Heydər Əliyev ideyaları: inkişafın uğurlu təməli" mövzusundakı məruzəsində qeyd etmişdir ki, ulu öndər Heydər Əliyev özünün təşkilatçılıq məharəti və çoxcəhətli səmərəli fəaliyyəti ilə idarəçilik elmini təkcə əməli cəhətdən deyil, həmçinin nəzəri baxımdan da zənginləşdirmişdir. Təbiidir ki, hər bir uğurlu sistemin arxasında təhsil, elm və bilik dayanır. İstənilən ölkənin bugünü və gələcəyi milli kadrların, insan potensialının peşəkarlıq və bilik səviyyəsindən çox asılıdır. Gələcəyi görən və proqnozlaşdıra bilən Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində ölkənin maddi imkanlarının məhdudluğuna baxmayaraq, Azərbaycanda insan potensialının inkişafına, onun formalaşdırılmasına yönəlmiş çox mühüm addımlar atmış, yüzlərlə gənci təhsil almaq üçün Sovet İttifaqının nüfuzlu ali məktəblərinə oxumağa göndərmişdir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə təsdiq olunan Dövlət Proqramına əsasən hər il yüzlərlə gənc inkişaf etmiş xarici dövlətlərin qabaqcıl ali təhsil müəssisələrində ixtisaslı kadr kimi yetişir.

Azərbaycanın özündə idarəetmə sahəsində milli kadrların hazırlanması üçün müstəqillik illərində bir neçə yeni elm və təhsil ocağı yaradılmışdır. Vaxtilə ümummilli lider Heydər Əliyev də insan potensialını bütün sahələrdə və hər zaman inkişafın aparıcı lokomotivi, mərkəzi və həlledici amili kimi müəyyənləşdirmişdir. Müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında müasir anlamda insan inkişafı ilə bağlı vəziyyətin fasiləsiz monitorinqinin aparılması, təhlili və qiymətləndirməsi əsasında insan inkişafı prosesinin idarə edilməsi ilk dəfə ümummilli lider tərəfindən həyata keçirilmişdir.

Ulu öndərin təşəbbüsü ilə Azərbaycan Respublikasında BMT-nin İnsan İnkişaf Proqramı ilə birlikdə insan inkişafı haqqında ilk hesabatlar hazırlanmışdır.

Azərbaycan Respublikasının son illərdə davamlı inkişaf sahəsində qazandığı uğurların əsasında müasir və innovativ idarəetmə texnologiyalarının tətbiqi durur və bu fəaliyyət gələcək uğurların təminatıdır.

Çıxışlardan sonra tədbir mədəni proqramla davam etmişdir.

# Azərbaycan Respublikasında informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti



**XXI** əsrin əvvəllərindən dünyada cərəyan edən əsas geosiyasi proseslərin idarə edilməsi, beynəlxalq münasibətlərin tənzimlənməsi, ölkələrin milli təhlükəsizliyinin təmin olunması və s. məsələlərdə ənənəvi hərbi-geostrateji, coğrafi-ərazi, iqtisadi, siyasi, sosial və s. problemlərlə yanaşı, dövlətlərin informasiya fəaliyyəti və təhlükəsizliyi məsələsi də ciddi müzakirə olunur. Qloballaşmanın vüsət aldığı, virtual informasiya məkanının günü-gündən genişləndiyi, milli informasiya mühitinin pozulduğu, milli dəyərlərin meyarlarının və sədlərinin "universallaşdığı" müasir dünyada beynəlxalq və yerli ictimai rəyin idarə olunması, siyasi proseslərin məqsədli yönləndirilməsi gündən-günə aktuallaşır. Transmilli informasiya siyasəti və milli sərhədləri asanlıqla aşan beynəlxalq təbliğat fəaliyyəti ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına, milli cəmiyyətlərinin vəziyyətinə ciddi təsir göstərir.

Müstəqilliyinə nail olduqdan sonra Azərbaycanın milli təhlükəsizliyinin əsas problemlərindən biri ölkənin vahid informasiya siyasətinin formalaşdırılması və təhlükəsizliyinin təminatı, milli informasiya mühitinin yaradılması, qorunması və idarə edilməsi ilə bağlı olmuşdur. 1990-cı illərin əvvəllərində bəzi xarici qüvvələrin sistemli şəkildə həyata keçirdikləri informasiya müdaxiləsi, ideoloji təbliğat fəaliyyəti Azərbaycan ərazisində əhalinin bəzi sosial və etnik təbəqələrində ciddi antimilli və antidövlət meyli formalaşdırmış, müstəqil dövlətin əsaslarına, vətəndaş həmrəyliyi və birliyinə təhlükə yaratmışdı. Xarici dairələr bununla kifayətlənməyərək Azərbaycanın ictimai rəyinə, daxili və xarici siyasətinə təsir göstərmək məqsədilə çoxsaylı dini, ideoloji, informasiya və təbliğat şəbəkələri yaratmış və öz məqsədləri üçün istifadə etmişlər.

Bundan başqa, həmin dövrdə Azərbaycanın daxili informasiya sistemləri, o cümlədən informasiya yaratma, ötürmə, ümumiləşdirmə və təhliletmə vasitələri, şəbəkə və xətləri ya iflic olmuş, ya da bütövlükdə xarici ölkələrin nəzarəti altına keçmişdi. Xüsusən nəzərə alınsa ki, o dövrün bütün informasiya texnologiyaları - telefon, peyk rabitəsi, internet, o cümlədən informasiya ötürmə sistemləri, milli təhlükəsizlik və müdafiə nazirliklərinin istifadə etdiyi digər informasiya vasitələri bütövlükdə xarici ölkələrin və beynəlxalq informasiya güclərinin nəzarəti altında idi, bu halda ölkənin informasiya təhlükəsizliyi sahəsindəki problemləri və boşluqları təsəvvür etmək o qədər də çətin olmazdı.

Bütün bunlar və digər proseslər 90-cı illərin birinci yarısında Azərbaycan hakimiyyəti qarşısında *məxsusi informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin formalaşdırılması, milli informasiya fəaliyyətinin vahid strategiyasının hazırlanması və həyata keçirilməsi kimi təxirəsalınmaz vəzifələr* qoyurdu. 1993-cü ildən başlayaraq Prezident Heydər Əliyevin rəhbərliyi altında *özündə müstəqil dövlət maraqlarını və beynəlxalq dəyərləri, ümumi təhlükəsizlik normalarını və milli postulatları əks etdirən informasiya fəaliyyəti və təhlükəsizliyi siyasəti həyata keçirilməyə başlandı. Dövlətin informasiya siyasətinin əsas vəzifələri, istiqamətləri, prioritetləri və resursları müəyyən edildi, nəzəri və praktiki əsasları yaradıldı, sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi və dövlət həyatının bütün sahələrndə tətbiq olunmağa başlandı.* Demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas tələbi kimi *söz və məlumat azadlığının təminatı, demokratik və siyasi plüralistik kütləvi informasiya vasitələrinin (KİV) yaradılması, iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsi, beynəlxalq rəqabətədavamlılığının artırılması, informasiya fəaliyyətinin hüquqi-normativ əsaslarının yenidən qurulması və s. bu siyasətin əsas prioritetlərinə* çevrildi. Azərbaycan hakimiyyəti bu istiqamətdə bir çox beynəlxalq təşkilatlarla və inkişaf etmiş demokratik ölkələrlə əməkdaşlıq edərək respublikada azad informasiya mühiti formalaşdırdı, ölkənin informasiya təhlükəsizliyinin təminatı mexanizmlərini bərqərar etdi.

## *Azərbaycanın dövlət informasiya siyasətinin əsasları: müstəqil kütləvi informasiya vasitələrinin formalaşdırılması siyasəti və informasiya-kommunikasiya texnologiyalarının inkişafı*

Azərbaycanda söz və informasiya azadlığının bərqərar olmasının, azad informasiya mühitinin və müstəqil kütləvi informasiya vasitələrinin yaradılması siyasətinin banisi ümummilli lider Heydər Əliyevdir. Məhz onun prezidentliyi dövründə ölkədə azad, müstəqil, beynəlxalq rəqabətədavamlı, demokratik milli kütləvi informasiya vasitələrinin formalaşması və hərtərəfli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü fəaliyyət başlanmış, plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran bütün süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş yeni Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV üzərində hər hansı senzuranın yolverilməzliyi birmənalı formada təsbit edilmişdir.

Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-də dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilmişdir. Senzuranın ləğvi demokratik cəmiyyət quruculuğu və Azərbaycanın gələcək plüralistik informasiya siyasətinin həyata keçirilməsini şərtləndirmiş və sürətləndirmişdir.

1999-cu ilin dekabrında İnsan Haqları və Əsas Azadlıqlar üzrə Avropa Konvensiyasının əsas tələblərinə uyğunlaşdırılmış "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının yeni demokratik Qanunu qəbul olunmuşdur. Həmin qanun, mütəxəssislərin fikrinə görə, bütün demokratik tələblərə - söz və məlumat azadlığına, KİV-in və jurnalistlərin müstəqilliyinə və sərbəst fəaliyyətinə tam təminat verir. Bunun ardınca dövlət informasiya siyasətinin ardıcıllığını təmin etmək məqsədilə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir. 2003-cü ildə Azərbaycan jurnalistlərinin I qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən müstəqil Mətbuat Şurası yaradılmışdır. 2002-ci ildə Avropa Şurası ilə əməkdaşlıq şəraitində beynəlxalq standartlara tam cavab verən "Televiziya və radio yayımı haqqında" qanun işlənib hazırlanmış və qəbul edilmişdir. Bunun ardınca, 2003-cü ildə elektron KİV sahəsində fəaliyyətin demokratik normalara uyğun qurulmasını təmin edəcək, TV və radio sahəsində fəaliyyəti tənzimləyən müstəqil dövlət orqanı - Milli Televiziya və Radio Şurası yaradılmışdır. Şura öz fəaliyyətində yalnız qanuna tabedir. 2004-cü ildə "İctimai Televiziya və radio yayımı haqqında" yeni qanun layihəsi işlənib hazırlanmış və qəbul edilmişdir. Xüsusi qeyd olunmalıdır ki, qanunun hazırlanmasında Avropa Şurasının ekspertləri bilavasitə iştirak etmiş və əksər prinsipial müddəalar onlarla razılaşdırılmışdır.

2004-cü ilin sentyabrından etibarən "Dövlət sirri haqqında" qanun qüvvəyə minmiş, bir müddət sonra isə Azərbaycan Prezidenti bu kateqoriyaya aid məlumatlar siyahısını təsdiq etmişdir. Bu, əsasən, hərbi sahəyə, dövlətin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə dair məlumatlardır. Jurnalistlərin informasiya almaq azadlığının tam reallaşdırılması üçün 2005-ci il sentyabrın 30-da Azərbaycan Prezidentinin sərəncamı ilə "İnformasiya əldə etmək haqqında" yeni qanun təsdiq olunmuşdur. Qanun layihəsinin hazırlanmasına həm əsas jurnalist təşkilatları, həm də Avropa Şurasının ekspertləri cəlb olunmuşdur. Nəticədə qanun yerli və xarici ekspertlər tərəfindən yüksək qiymətləndirilmiş və hazırda Avropa məkanında ən mütərəqqi qanunvericilik aktlarından hesab olunur. "İnformasiya əldə etmək haqqında" qanun qəbul edildikdən sonra dövlət orqanlarında ictimaiyyətlə əlaqələr idarələrinin və mətbuat xidmətlərinin formalaşdırılmasına başlanmışdır. Qanunla müəyyən edilmiş bütün informasiya sahibləri, mərkəzi və yerli hakimiyyət qurumları onlara məxsus internet informasiya resursları yaradaraq jurnalistlərin xidmətinə təqdim etmişlər. Hazırda həmin resursların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, qərarların qəbulu və idarəçilikdə ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi üçün Azərbaycan Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

Müstəqillik illərində Azərbaycanda söz və məlumat azadlığının təmin edilməsi, KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul edilmiş, müvafiq fərman və sərəncamlar imzalanmışdır. 1998-ci ilin sonunda KİV-in maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə ölkə Prezdentinin sərəncamı ilə qəzet redaksiyaları əlavə dəyər vergisindən azad edilmişdir. Vergi Məcəlləsində KİV-in inkişafının stimullaşdırılması, onların maliyyə durumunun yaxşılaşdırılması və maddi-texniki bazasının gücləndirilməsi üçün sərfəli güzəştlər nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il iyulun 20-də imzaladığı "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" fərmanla ölkəyə gətirilən qəzet kağızına gömrük rüsumları ləğv olunmuş, qəzetlərə uzunmüddətli və güzəştli kreditlər verilməsi qərara alınmışdır.

Qeyd edilməlidir ki, 2000-ci ildən Azərbaycan milli mətbuatının yubileyləri dövlət səviyyəsində qeyd olunur. 2005 və 2010-cu illərdə yüzlərlə jurnalist fəxri adlar və dövlət mükafatları ilə təltif olunmuşlar. Hər il ölkənin aparıcı qəzet redaksiyaları və informasiya agentliklərinə dövlət tərəfindən birdəfəlik maliyyə yardımı ayrılır.

2008-ci il iyulun 30-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilmişdir. Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin əsas məqsədi vətəndaş cəmiyyəti quruculuğu prosesində KİV-in rolunu nəzərə almaqla fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, redaksiyalara yardım mexanizmini təkmilləşdirmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı gücləndirmək, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə etməkdir.

2009-cu il aprelin 3-də Konsepsiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır. Fondun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi üçün Konsepsiyada nəzərdə tutulmuş müddəaların həyata keçirilməsini, habelə KİV-in proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir. Fond müstəqil orqandır, onun fəaliyyətinə vətəndaş cəmiyyəti institutlarının təmsil olunduğu Müşahidə Şurası nəzarət edir. 2009-cu ildən sonrakı dövrdə KİV layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən fonda 15 milyon manatdan artıq vəsait ayrılmışdır.

Azərbaycan Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" 2010-cu il 22 iyul tarixli sərəncamı ilə jurnalistlər üçün yaşayış binasının tikilməsi mıəqsədilə xüsusi vəsait ayrılmışdır. 2013-cü il iyulun 22-də jurnalistlər üçün tikilmiş binanın açılış mərasimi keçirilmiş və 156 KİV əməkdaşına yeni mənzillər paylanmışdır. Elə həmin gün Azərbaycan Prezidenti "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncam imzalamış və jurnalistlər üçün yeni-240 mənzilli binanın tikintisinə vəsait ayırmışdır.

Bu gün Azərbaycanda dünya standartlarına uyğun azad, plüralist media formalaşmışdır. Dövlət KİV-in müstəqil və hərtərəfli inkişafı üçün zəruri şərait yaratmışdır. Ölkədə 40-a yaxın gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzet nəşr olunur. 80-dən artıq elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi məsələləri, uşaq və qadın problemlərini işıqlandıran və əyləncə xarakterli jurnal çıxır. Azərbaycanda 20-yə yaxın informasiya agentliyi ölkədə və dünyada baş verən hadisələrlə bağlı müntəzəm və çeşidli məlumat yayır. Bölgələrdə 100-ə yaxın qəzet və jurnal nəşr olunur.

1998-ci ildən sonra Azərbaycanda yeni özəl televiziya və radio kanalları açılmış, son illər kabel televiziyasının miqyası genişlənmişdir. Hazırda Azərbaycanda 10 ümumrespublika, 1 peyk, 14 regional və 14 kabel televiziyası, 14 radio fəaliyyət göstərir. 2005-ci ildə Azərbaycan Dövlət Televiziyasının bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Elə həmin il ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır. İctimai Televiziyanın maddi-texniki təminatı və real olaraq fəaliyyətə başlaması üçün bütün zəruri tədbirlər görülmüşdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli qərarına əsasən, ölkə ərazisində rəqəmsal yayımın tətbiqinə başlanmışdır. 2014-cü ildə Azərbaycanda rəqəmsal yayıma keçidin başa çatacağı gözlənilir.

Azərbaycanda 50-dən artıq jurnalist təşkilatı qeydiyyatdan keçmiş, 30-a yaxın təşkilat söz və məlumat azadlığının inkişaf etdirilməsi, mətbuatın iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, KİV-in informasiya əldə etmək imkanlarının genişləndirilməsi, cəmiyyətlə KİV arasında münasibətlərin tənzimlənməsi və digər məsələlərlə aktiv məşğul olur. Ölkədə mətbuat yayımı həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı artmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda söz və informasiya azadlığının təmin olunması, müstəqil KİV-in inkişafı və beynəlxalq rəqabətədavamlılığının artırılması, medianın maddi-texniki bazasının gücləndirilməsi, ölkə jurnalistlərinin peşəkarlığının artırılması və s. sahələrdə həyata keçirilən dövlət siyasəti az vaxtda öz müsbət nəticələrini göstərmişdir. Belə ki, 2009-cu ildən bəri jurnalistlərin insanları böhtan və təhqir etmə maddəsi ilə və ümumən yaradıcılıq fəaliyyəti ilə bağlı həbsə alınması faktı qeydə alınmamışdır. Hazırkı şərait Azərbaycanda "difamasiya haqqında" yeni qanun layihəsinin müzakirəyə çıxarılması və qəbul olunmasını, jurnalistlərin fəaliyyətinin daha da asanlaşdırılması və təhlükəsizliyinin dolğun təmin olunmasını gündəmə gətirmişdir. Ölkə rəsmiləri və mətbuat ictimaiyyəti hazırda inkişaf etmiş demokratik dövlətlərin bu sahədəki təcrübəsini öyrənərək Azərbaycanda tətbiqi üzərində birgə fəaliyyət göstərir.

Yeni minilliyin başlanğıcından dünyanın müxtəlif ölkələrində, xüsusən də inkişaf etmiş dövlətlərdə İKT-nin inkişafı, qabaqcıl inkişaf texnologiyaları və innovativ iqtisadi münasibətlərə əsaslanan informasiya cəmiyyətinin yaradılması istiqamətində transmilli fəaliyyət bir qədər də güclənmişdir. Bu fəaliyyət yeni minilliyin əsas inkişaf tələbləri və çağırışları kimi BMT-nin müvafiq sammitinin qərarlarında da öz əksini tapmışdır. Son on ildə Azərbaycanda da ölkənin sabit və dinamik inkişafı, cəmiyyətin sosial-iqtisadi problemlərinin həlli, söz və mətbuat azadlığının təmin edilməsi, milli KİV-in maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq rəqabətədavamlılığının artırılması məqsədilə *İKT və rabitə sektorunun inkişafına* böyük əhəmiyyət verilir. İKT-nin inkişafı siyasəti hazırda Azərbaycan dövlətinin fəalyyətində mühüm yer tutur. Cəmi bir neçə ildə bu sahə üzrə həm milli qanunvericilik, həm də praktiki fəaliyyət xeyli gücləndirilmiş və ciddi nəticələr əldə edilmişdir. Ölkə üzrə informasiya cəmiyyətinin, yeni texnoloji və innovativ biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması dövlət tərəfindən dəstəklənir. Respublikada informasiya təhlükəsizliyinin təmin olunması və informasiya texnologiyalarının inkişafı ilə bağlı milli qanunvericilik bazası xeyli təkmilləşdirilmişdir. "Kütləvi informasiya vasitələri haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Elektron sənəd və elektron imza haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında", "Dövlət sirri haqqında" və s. qanunların qəbul edilməsi bunun əyani sübutudur.

Bunlardan əlavə, Azərbaycan Prezidenti tərəfindən "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003 - 2012-ci illər)", "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" və s. mühüm sənədlər də təsdiq olunmuşdur. Strategiya çərçivəsində "Elektron Azərbaycan-2005-2008-ci illər" və "Elektron Azərbaycan-2010-2012-ci illər" dövlət proqramları qəbul olunmuş və icra edilmişdir.

İKT-nin inkişafı yönündə aparılan məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, 2008-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan İKT sahəsindəki inkişaf səviyyəsinə görə MDB ölkələri arasında birinci yeri tutmuşdur. Ümumdünya İqtisadi Forumunun hesabatına görə, hazırda ölkə üzrə internet istifadəçilərinin sayı əhalinin 70 faizini təşkil edir. Milli internet provayderinin sayı 40-a çatmışdır. Son illər genişzolaqlı sürətli internet istifadəçilərinin sayı 50 faizə yaxınlaşmışdır ki, bu da ümumdünya orta göstəricisindən 2 dəfə yüksəkdir. 5 ildə internet trafikinin giriş-çıxış həcmi 40 dəfə yüksəlmiş və hazırda 200 GB-dən çoxdur. İnternet xidmətlərindən istifadə haqları region ölkələrindəki tariflərlə uyğunlaşdırılmışdır. Bölgələrdə internet istifadəçilərinin sayı 12-15 dəfə çoxalmışdır. Ucqar kəndləri də nəzərə almaqla Azərbaycanın bütün bölgələrində internetdən istifadə etmək üçün şərait yaradılmışdır.

2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti fərman imzalamışdır. Fərmana əsasən, dövlət orqanları öz fəaliyyət istiqamətlərinə uyğun olaraq bütün sahələrdə elektron xidmətlər təşkil etmişlər. Elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədi ilə "www.e-gov.az" vahid elektron hökumət portalı yaradılmışdır. Nazirlər Kabinetinin 2012-ci il 22 oktyabr tarixli qərarı ilə dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin növləri hazırda 417-yə çatdırılmışdır. Bununla yanaşı, dövlət orqanları əhaliyə 300-ə yaxın elektron xidməti göstərir.

Azərbaycanda İKT sahəsi son illərdə sürətlə inkişaf edir. Bu illər ərzində İKT-yə ümumi investisiya qoyuluşunun həcmi təxminən 3 milyard ABŞ dolları təşkil etmişdir. Ölkə ərazisində uzunluğu 1161 kilometr olan Trans-Asiya-Avropa (TAE) fiber-optik kabel magistralı çəkilmişdir. Bu şəbəkə daxili ehtiyatlar hesabına daha da genişləndirilmiş, ölkənin digər bölgələri magistral xəttə qoşulmuş və şimal sərhədinə qədər optik xəttin tikintisi təmin edilmişdir.

Azərbaycanda hazırda radio-televiziya proqramlarının peykdən yayımını təmin edən (TV-UP-Link) peyk rabitə stansiyaları ilə yanaşı, xarici ölkələrlə rabitənin təşkili, məlumatların ötürülməsi və qəbulu, internet şəbəkələrinin və daxili korporativ şəbəkələrin yaradılması məqsədilə müxtəlif peyklər üzərindən peyk rabitə kanalları (daşıyıcılar) vasitəsilə bir neçə peyklə işləyən yerüstü stansiyalar qurulub istifadə edilir. Əhaliyə, o cümlədən ölkə xaricində yaşayan azərbaycanlılara informasiya çatdırmaq üçün İKT-nin imkanlarından geniş istifadə olunur. AzTV, İTV və digər milli televiziya kanalları, televiziya və radio proqramları AZƏRSPACE-1 ilə yanaşı, iki digər peyk üzərindən də Asiya, Avropa və bütün dünya ölkələrinə yayımlanır.

Azərbaycan dövlətinin 2013-cü ildə özünün AZƏRSPACE-1 video-informasiya ötürücü peykini yeraltı orbitə çıxarması və regionda Rusiya, Türkiyə ilə birlikdə kosmik ölkəyə çevrilməsi onun həm informasiya fəaliyyəti və təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamış, həm də ölkəyə İKT sahəsində yaxın gələcəkdə böyük uğurlar qazandırmağa şərait yaratmışdır.

## İnformasiya təhlükəsizliyi siyasəti

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması məsələləri yuxarıda adıçəkilən bir çox qanunlarla yanaşı, ümumi formada Milli Təhlükəsizlik Konsepsiyasında və Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" qanununda da öz əksini tapmışdır. Konsepsiyada qeyd olunur ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

Konsepsiyada Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması məqsədilə ölkədə informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistem və informasiya infrastrukturunun inkişaf etdirilməsi və möhkəmləndirilməsi zərurəti qeyd olunur.

Sənəddə ümumi formada ölkənin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin uzlaşdırılması və səmərəliliyinin artırılması zərurəti, habelə məxfi informasiyanın mühafizə olunmasının koordinasiyasının milli təhlükəsizlik sektorunun əsas məsələlərdən biri olduğu vurğulanır və qeyd edilir.

İnformasiya təhlükəsizliyi siyasəti "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunda da ümumi formada öz əksini tapmışdır.

Milli Təhlükəsizlik Konsepsiyası və Milli Təhlükəsizlik haqqında qanunda informasiya təhlükəsizliyi problemi əsas vəzifə kimi qoyulmur, yalnız ölkənin ümumi milli təhlükəsizliyi fonunda təsnif olunur. İnformasiya təhlükəsizliyi ilə bağlı təhdidlər də bir qədər ümumi xarakter daşıyır və ölkənin siyasi, iqtisadi, müdafiə, sosial-milli, elm, texnika, mənəvi-əxlaqi və digər sahələr üzrə konkret informasiya təhlükəsizliyi tələblərinə toxunmur. İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, Azərbaycanda da bu sahə üzrə ayrıca İnformasiya Təhlükəsizliyi Konsepsiyasının yaradılmasına ciddi ehtiyac var. Həmin konsepsiyada milli informasiya fəaliyyəti və təhlükəsizliyi siyasətinin hüquqi əsasları müəyyənləşdirilməli, dövlətin informasiya mühitinin təhlükəsizliyinə təhdidlər sistemli formada öyrənilməli, qruplaşdırılmalı və təhdidlərin doğura biləcəyi konkret nəticələr proqnozlaşdırılmalı, bu sahə üzrə dövlət qurumlarının praktiki fəaliyyətin effektivliyi ciddi şəkildə təmin edilməlidir.

Mütəxəssislərin fikrinə görə, müasir dünyada hər bir ölkənin informasiya təhlükəsizliyinin təmin olunması ilk növbədə bu istiqamətdə yürüdülən dövlət siyasətinin prioritet istiqamətlərinin dəqiq müəyyənləşdirilməsindən, informasiya təhlükəsizliyi mühitinin dəqiq, obyektiv, elmi baxımdan düzgün qiymətləndirilməsindən və bu sahədə səmərəli fəaliyyətin təşkil olunmasından asılıdır. Bu baxımdan hazırda Azərbaycanın informasiya təhlükəsizliyi mühitinə təsir edən əsas amillərin müəyyənləşdirilərək sistemləşdirilməsi və onların ayrıca olaraq İnformasiya Təhlükəsizliyi Konsepsiyasında öz əksini tapması vacibdir.

Milli İnformasiya Təhlükəsizliyi Konsepsiyasında həm də beynəlxalq aləmdə, ölkə daxilində, ictimai-siyasi və sosial-iqtisadi həyatda baş verən proseslərin dövlətin informasiya təhlükəsizliyinə təsiri və bundan irəli gələn vəzifələr öz əksini tapmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin yekunlarına həsr olunmuş illik iclasında dünya ölkələrinin müasir informasiya-kommunikasiya siyasətinin xarakterik xüsusiyyətlərini, planetimizdə gündən-günə genişlənən internet resurslarının, transmilli mətbuat-informasiya sistemlərinin beynəlxalq ictimai rəyin formalaşmasındakı mühüm rolunu, dünyada virtual informasiya əlaqələrin bütün milli sərhədləri aşması tendensiyasını və s. məsələləri nəzərə alaraq müasir dövrdə hər bir ölkənin milli təhlükəsizliyinin əsas istiqamətlərindən biri kimi informasiya təhlükəsizliyinin rolunu xüsusi qeyd etmiş, bu sahədə Azərbaycanda görülməsi vacib olan işlər haqqında danışmışdır. O qeyd etmişdir ki, biz informasiya əsrində, internet və digər informasiya texnologiyalarının inkişafı dövründə yaşayırıq. Azərbaycanda siyasi plüralizm hökm sürür, azad mətbuat, internet və informasiya orqanları fəaliyyət göstərir, əhalinin 50 faizindən çoxu internetdən istifadə edir. İndi hər bir kəndə, hər bir yaşayış məntəqəsinə genişzolaqlı internet şəbəkəsinin çəkilməsi planlaşdırılır. Lakin təəssüf ki, qlobal informasiya məkanında internetdən, informasiya vasitələrindən, transmilli mətbuatdan bəzən insanların informasiya ehtiyacını ödəməklə yanaşı, həm də xüsusi təxribat vasitəsi kimi istifadə edirlər, ayrı-ayrı xalqlara, dövlətlərə və insanlara qarşı böhtan kampaniyası aparırlar. Bu təxribatlar, məqsədyönlü kampaniyalar bəzi hallarda açıq, bəzi hallarda gizli aparılır. Əlbəttə, belə şəraitdə ölkələrin informasiya təhlükəsizliyi məsələləri çox aktuallaşır.

Azərbaycanın informasiya təhlükəsizliyi siyasətinə toxunan ölkə rəhbəri vurğulamışdır ki, hazırda bizə qarşı dünyada sistemli informasiya müharibəsi aparan qüvvələr mövcuddur. Elə ölkələr var ki, orada nəinki hər həftə, hər gün Azərbaycanla bağlı böhtan xarakterli yazılar dərc edirlər. Təbii ki, bu, əlaqələndirilmiş bir antiazərbaycan siyasətidir. Bu işdə ilk növbədə, erməni lobbisinin fəallığını qeyd etmək lazımdır, onlar mütəmadi olaraq Azərbaycanın milli-mədəni dəyərlərini, real inkişafını və həqiqətlərini inkar edərək onu geridə qalmış, antidemokratik, antixristian ölkə kimi dünyaya təqdim etməyə çalışırlar.

Ölkə rəhbərinin fikirlərindən göründüyü kimi, informasiya təhlükəsizliyi Konsepsiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həyata keçiriləcək informasiya siyasətinin əsas istiqamətləri və bu sahədə qarşıda duran vəzifələr ayrıca əks etdirilməlidir. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, hazırda Azərbaycana qarşı həyata keçirilən informasiya müharibəsində Ermənistan xüsusi canfəşanlıq göstərir. Erməni diasporu müxtəlif ölkələrin informasiya vasitələrində Azərbaycanın dünyada gündən-günə artan nüfuzuna, siyasi, iqtisadi, mədəni sahələrdə əldə etdiyi uğurlarına kölgə salmağa çalışır. Bu məsələdə ermənipərəst xarici və daxili siyasi dairələr xüsusi aktivlik nümayiş etdirirlər. Ermənilərin və onlara himayədarlıq edən siyasi dairələrin əsas məqsədi nəyin bahasına olursa-olsun beynəlxalq ictimai rəydə Azərbaycanla bağlı mənfi fikir formalaşdırmaqdır.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsindəki əsas vəzifələrin yerinə yetirilməsi, milli informasiya resurslarının qorunması və təhdidlərin qarşısının alınması, bu sahədə effektli tədbirlərin gücləndirilməsi məqsədilə son zamanlar dövlət səviyyəsində ciddi fəaliyyət başlanmışdır. Bu tədbirlər sırasında Azərbaycan Respublikası Prezidentinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında 26 sentyabr 2012-ci il tarixli və "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" 5 mart 2013-cü il tarixli fərmanlarını qeyd etmək olar.

"İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" fərmanla dövlət başçısı Azərbaycanda informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin bazasında *Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi* yaratmış və onun əsas fəaliyyət prinsiplərini təsdiq etmişdir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında *Elektron Təhlükəsizlik Mərkəzinin* yaradılması haqqında fərmanda isə kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasını, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanı, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsini və onlara metodiki kömək göstərilməsini təmin edən əlaqələndirici mərkəzin yaradılması təmin edilmişdir.

*Bundan başqa, 10 fevral 2014-cü ildə respublika Prezidentinin sərəncamı ilə "Azərbaycanda 2014-2018-ci illərdə dövlət sirrinin qorunması sisteminin inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Sərəncamda informasiya sahəsində dövlət sirlərinin və informasiya resurslarının qorunmasının koordinasiyası Milli Təhlükəsizlik Nazirliyinə həvalə edilmişdir.*

**Əli HƏSƏNOV,**

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri, YAP İdarə Heyətinin üzvü***

*Azərbaycanın özü qədər əbədi*

# HEYDƏR ƏLİYEV MİSSİYASI:

## müstəqillik, demokratiya, məsuliyyət

*...Təyyarə Heydər Əliyev adına hava limanından istiqamət götürür. Buludların üzərindən aşağıya, Xəzərin əhatəsində ovuc içi kimi görünən paytaxtımıza tamaşa edə-edə səfər planlarımız barədə düşünürəm...*

*Yolumuz yenə Avropaya sarıdır. ATƏT-in Parlament Assambleyasının toplantılarında iştirak edəcəyik. Bu toplantılarda müstəqil Azərbaycanı təmsil etməyə yollanırıq.*

*Belə səfərlərimiz mütəmadidir. İlk vaxtlar yola çıxanda müəyyən bir narahatlığımız da olardı. ATƏT-in Parlament Assambleyasında digər ölkələrdən olan deputat həmkarlarımızın Azərbaycan barədə yanlış düşüncələrindən, kəskin suallarından, Ermənistan deputat qrupunun məkrli təxribatlarından qayğılanar, bu toplantılarda həm erməni yalanlarını ifşa edər, həm də Azərbaycan barədə hesabatlar verərdik.*

*Amma artıq xeyli müddətdir ki, bu nigarançılıqdan əsər-əlamət yoxdur. Çünki bizi hər addımda özünü nişan verən inkişaf, tərəqqi əlamətləri ilə yola salmış, indi bütün dünyanın tanıdığı, rəğbət bəslədiyi, hesablaşdığı güclü Azərbaycanı təmsil etmək üçün gedirik.*



Nədir Azərbaycanı qısa zamanda bu qədər güclü edən, qüdrətləndirən?! Nədir dünyanın müxtəlif qütblərinə, ayrı-ayrı mədəniyyətlərə, fərqli inkişaf modellərinə malik ölkələrinin təmsilçilərinin və onların simasında bütün dünyanın Azərbaycana böyük marağını, rəğbətini şərtləndirən?!

Əslində, cavabı hər birimizə bəlli olan bu suallar fərəh duyğusu kimi qəlbimə dolur... Və Azərbaycanın bugünkü yüksəliş tarixini illər öncə nurlu ideyalarında formalaşdırmış xalqımızın ümummilli lideri Heydər Əliyevin müqəddəs ruhuna şükranlıq duyğularımın ifadəçisinə çevrilir.

❖ ❖ ❖

Düşünürəm, demokratiya haqqında indiyə qədər yetərincə əsərlər yazılıb. Bu mövzuda ortaya çıxan çoxsaylı sualların cavablandırılması üçün müxtəlif müddəalar irəli sürülüb. Uzun illərdir siyasətdə, dövlət işindəyəm. Fərqli siyasi quruluşlarda, ictimai formasiyalarda müxtəlif vəzifələrdə çalışmış, siyasi fəaliyyət göstərmişəm. Yəni demokratiya anlayışının mahiyyəti barədə mənim də öz düşüncəm, baxışım var. Fikrimcə, demokratiya heç də ideologiya deyil, bir dəyərdir. Şübhəsiz, sosial mühit demokratik dəyərlərə münasibətdə insan üçün müəyyən normalar müəyyənləşdirə bilər. Amma heç bir direktivə ehtiyac olmadan həmin dəyərlərə hörmət ruhunu öz şəxsiyyətində yaşadan insanlarda bu hiss, bu fəaliyyət və yanaşma keyfiyyəti anadangəlmə mənəvi varidat kimi özünü büruzə verir.

Yenə də ulu öndəri xatırlayıram. Heydər Əliyevdə də demokratizm bir fitri keyfiyyət kimi diqqəti çəkirdi. Elə bu cəhəti ilə də o, zəmanəsinin ən böyük demokratı idi.

Bu dəyəri respublikanın ali rəhbərliyində təmsil etməklə Heydər Əliyev özünün demokratik xarakterini Azərbaycan xalqı üçün tarixi bir şansa çevirmişdi. Bu, Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə milli şüurun oyanışında, Azərbaycan ədəbiyyatında, elmində, təhsilində, mətbuatında, kinosunda, musiqisində... özünü göstərən aşkar azadlıq meyillərində nəzərə çarpırdı. Bu, meyillərin ifadəçiləri olan yaradıcı insanlara Heydər Əliyevin verdiyi açıq-gizli dəstəkdə də hiss olunurdu.

Totalitar adlandırdığımız cəmiyyətdə demokratik mühit formalaşdıra bilmiş siyasi düha - əsl lider idi Heydər Əliyev...

Bu həqiqəti o dövrün şahidləri olan hər kəs - onunla həmfikir, həm də siyasi opponent olmuş şəxslər də birmənalı etiraf edirlər.

❖ ❖ ❖

Heydər Əliyevin insanlara münasibəti, problemlərin həllinə yanaşmaları, iş metodları, kadr seçimi, işlədiyi kadrlar qarşısında müəyyən etdiyi prinsiplər də onun demokratik xarakterinin yaratdığı mühit, aura çevrəsində formalaşırdı.

Heydər Əliyev öz kadrlarına münasibətdə yetərincə sərt və tələbkar idi, səhlənkarlıq, məsuliyyətsizlik, mənəvi keyfiyyətlərdən xalilik kimi mənfi davranışları əsla sevmirdi. Heydər Əliyevin olduğu hər yerdə konkret vəzifə və hesabatlılıq vardı, subordinasiya qaydaları ciddi şəkildə qorunardı. Çünki o, bütün bunlarla milli dövlətçilik ənənələrini, saat kimi işlək rejimdə çalışmalı olan hakimiyyət mexanizminin elementlərini formalaşdırırdı.

O, insanlara məqamında, yerində sərbəstlik verməyi də həmişə üstün tutardı. Heydər Əliyev üçün kadr yuxarıdan verilmiş göstərişləri kortəbii şəkildə yerinə yetirən mexaniki icraçı deyildi. Məsələlərlə bağlı öz fikri, təklifləri olan və düşündüklərini yuxarılar qarşısında qaldırmaqdan əsla çəkinməyən, ideyaları ilə ümumi işə, problemlərin həllinə töhfə verməyi bacaran təşəbbüs sahibləri idi.

Ulu öndər hər kəsə yüksək, ancaq ədalətli tələblərlə yanaşırdı. Kadrlara münasibətdə onun önəm verdiyi ən əsas meyarlar peşəkarlıq, vicdanlılıq və prinsipiallıq, geniş biliyə və məlumat dairəsinə maliklik, təvazökarlıq, ümumilikdə mədəni olmaq idi.

Heydər Əliyevin gənclərin vəzifə pillələrində irəli çəkilməsi məsələsində tutduğu mövqe də özünəməxsusluğu ilə seçilirdi. Gənclərə etimad göstərilməsi, onların vəzifə pillələrində irəli çəkilməsi, təbii ki, çox mühümdür. Çünki gəncliyə xas yüksək enerji böyük həvəslə işləmək əzmi, cəmiyyətin inkişafında daha böyük səmərə deməkdir. Amma mübahisəli görünsə də, bu məsələdə bəzi fikirlərimi bölüşmək istərdim.

Düşünürəm ki, gənclərin irəli çəkilməsi şüarı ilə böyük əmək kollektivlərində çalışan çoxsaylı insanların taleyini şəxsiyyət kimi hələ tam formalaşmamış, həyat təcrübəsi az, ictimai-siyasi fiqur olaraq daşıdığı vəzifənin məsuliyyətini, insanlara münasibət meyarlarını hələ dəqiqliklə dərk edə bilməyən fərdlərə tapşırmaq da bəzi hallarda müəyyən fəsadlar verə bilər. Bu baxımdan, Heydər Əliyevin bu məsələyə münasibəti örnək idi. O, ciddi seçim nəticəsində müxtəlif rəhbər vəzifələrə ömrün gəncliklə müdriklik mərhələsi arasında olan, şəxsiyyətində gəncliyin əzmkarlığı, enerjisi ilə ixtiyarlığın təcrübəsini, kamilliyini bir araya gətirməyə çalışan 30-38 yaşında, istehsalat və siyasi işdə təcrübəyə malik perspektivli kadrları gətirirdi. Onların qarşısında hər şeydən əvvəl mənəvi tələblər müəyyənləşdirirdi...

❖ ❖ ❖

Xatırlayıram, 1978-ci ilin mayında Ordubad rayonuna rəhbər vəzifəyə təyinat alarkən Heydər Əliyevin mənə söylədiyi sözləri bu günə qədər unutmamışam: *"Gedin düz işləyin, vicdanla çalışın. İşçilərə də bunu çatdırın. Harada olursansa-ol, səmərəli işləmək lazımdır. Xalqa layiqincə xidmət etmək gərəkdir".*

İnsanlarda mənəvi təmizliyi o, hər şeydən üstün tuturdu. İşçilərdən kabinetlərdə qapanıb qalmamağı, vaxtlarının çoxunu camaat arasında keçirməyi tələb edirdi. O, sadə insanlarla ünsiyyəti xoşlayır, bundan zövq alır, öz kadrlarından da sadə insanlarla təmaslardan qaçmamağı tələb edirdi.

Heydər Əliyev demokratik idarəetmənin psixologiyasını hələ gəncliyində dərindən mənimsəmişdi. Ona lazım olanları incəliklərinə qədər bilirdi, - bu, öz yerində, - amma nəyisə konkret işin mütəxəssislərindən soruşub dəqiqləşdirməyi, kimdənsə öyrənməyi də eyib saymırdı, Müqəddəs Kitabımızın buyurduğu kimi, "beşikdən qəbrə qədər öyrən"məkdən yorulmurdu. Heç nəyə səthi yanaşmır, hər şeyin dərinliyinə varırdı.

Heydər Əliyev hər bir işdə son nəticə kimi keyfiyyəti götürürdü. Qeyri-dəqiqlik, təxminilik, başdansovduluq onun xarakterinə yad idi. Onun üçün xırda məsələ anlayışı yox idi. Rəhbərliyi ilə icra olunan, icrası vəziyyəti barədə Ona hesabat verilən hər bir iş nöqsansız, qüsursuz olmalı, axıradək yerinə yetirilməli və keyfiyyəti ilə parlaq olmalı idi. Heydər Əliyev yarımçıqlığa, natamamlığa, səliqəsizliyə, məsuliyyətsizliyə qarşı barışmaz idi. Demokratik xarakterinə rəğmən belə məqamlarda o, hətta həddən artıq sərt ola bilirdi: bacarmamısansa, eləyə bilməmisənsə və bu barədə vaxtında məlumat vermisənsə, bağışlayırdı. Ancaq buna lazımi qədər səy göstərməmisənsə, necə deyərlər, vəzifəni sadəcə "yola verməyə" çalışmısansa, bax bunu O heç zaman bağışlamırdı.

Mən bu mövzuda düşünəndə ulu öndəri təbii sərt almazı cilalayıb, incələşdirib, onun dəyərini yüksəldən zərgərə bənzədirəm. Almaz nə qədər yonulub zərifləşirsə, parlaqlaşırsa, insanlara verilən düzgün öyüd-nəsihət də onu müdrikləşdirir.

Heydər Əliyevin kadrlarını əzmlə çalışmağa, vəzifələrini layiqincə yerinə yetirməyə ruhlandıran, Onun zəhmindən, səsindəki qətiyyətdən qorxu hissi yox, xarizmatik şəxsiyyətinə sevgi və rəğbət duyğusu idi. Hamı bilirdi ki, Heydər Əliyevin keyfiyyətsiz iş tutanlara sərt münasibəti kimi, tapşırılmış işi yarıdan, gördüyü işin keyfiyyəti ilə insanı məmnun edən şəxslərin əməyini ən yüksək səviyyədə qiymətləndirməyi də var idi.

Demokratik üsuli-idarəetmənin siyasi liderdən tələb etdiyi ən mühüm cəhətlərdən biri - informasiya ilə işləmək qabiliyyəti Heydər Əliyevi dövrünün bir çox siyasi liderlərinə örnək olan şəxsiyyət səviyyəsinə yüksəltmişdi. Belə yüksək analitik qabiliyyətin formalaşmasında, onun gənclik illərindən xüsusi xidmət orqanlarında, yüksək vəzifələrdə çalışmasının da əsaslı rolu olmuşdu.

Onun bütün həlledici qərarları ən müxtəlif mənbələrdən alınmış informasiyaların müqayisəli təhlilinə və bundan çıxan dəqiq nəticələrə əsaslanardı. Ona görə də Heydər Əliyev bütün vəziyyətləri tam nəzarətdə saxlaya bilirdi. Hansısa yanlış informasiya ilə Heydər Əliyevin qərarlarına təsir göstərmək mümkün deyildi və buna kimsə cəsarət etməzdi.

❖ ❖ ❖

Demokratiya cəmiyyətin hər bir üzvündən yüksək hüquqi mədəniyyət, özünün azadlıq imkanlarından bəhrələndiyi qədər başqalarının hüquqlarına da sayğı tələb edir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkəmizə təkcə sosial-iqtisadi rifah, milli şüurda oyanış, mədəni tərəqqi gətirmədi, həm də cəmiyyət üzvlərini qanunlara hörmət ruhunda tərbiyələndirdi. Çünki cəmiyyət bu dəyərləri mənimsəmədən demokratik, hüquqi dövlət çağırışlarının heç bir anlamı qalmır və cəmiyyətdə demokratiya əvəzinə başıpozuq qüvvələrin at oynatdığı anarxiya, xaos mühiti bərqərar olur. Azərbaycanın Heydər Əliyevsiz olduğu dövrdə - 1988-1993-cü illərdə olduğu kimi...

Yadımdadır, 1970-ci il dekabrın 4-də "Zəhmətkeşlərin hüquqi tərbiyəsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edildi. Bu, Heydər Əliyevin təşəbbüsü, ideya müəllifliyi ilə atılan tarixi addımlardan biri idi. Cəmiyyətdə hüquqi bilgilərin artırılması, qanunlara hörmət ruhunun gücləndirilməsi məqsədi daşıyan bu qərar o zamanlar ölkə miqyasında böyük əks-səda doğurmuşdu.

Müstəqillik dövründə Azərbaycanda demokratik islahatların, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunun böyük uğurlarla müşayiət olunmasının bir səbəbi də Heydər Əliyevin hələ 1969-1982-ci illərdə bu sahədə formalaşdırdığı ənənələr, vətəndaşlarda dövlət institutlarına, qanunun aliliyinə hörmət ruhu və bu dəyərin 90-cı illərinin ilk illərinin siyasi təlatümlərində də aşınmaması idi.

Milli köklərə bağlılığın, Azərbaycanı özünə Ana Vətən bilən bütün xalqların təmsilçilərinin içində özlərini rahat hiss edəcəkləri, heç kimin öz milli mənsubiyyətinə görə sorğulanmadığı, xalqların bir-birindən öyrəndikləri, mədəni dəyərlərin qarşılıqlı mübadiləsini apardıqları, amma bütün bunlarla yanaşı, mahiyyətcə milli bir cəmiyyətin mövcudluğunun xalq və dövlət üçün nə demək olduğunu çox yaxşı bilirdi. Və bunları fəaliyyətində ən yüksək səviyyədə təsdiq edirdi.

Heydər Əliyev kosmopolit bir cəmiyyətin içində milli cəmiyyət formalaşdıra bilmiş, sovet ideologiyasının hakim olduğu zaman və məkanda azərbaycançılıq ideyasını gündəmə gətirmişdi.

Heydər Əliyev bütün zamanların ən böyük azərbaycanlısı idi...

❖ ❖ ❖

Məlumdur ki, M.S.Qorbaçovun yenidənqurma adlı sərsəm ideyası gündəmə gəldikdən sonra imperiyadaxili çöküş prosesləri özünü çox gözlətmədi. Belə şəraitdə mərkəzdənqaçma proseslərinin güclənməsindən qorxuya düşən imperiya rəhbərliyi müxtəlif pozucu tədbirlərə əl atmağa başladı. Bu tədbirlərdən biri də SSRİ-dəki türk-müsəlman xalqlarını təkləmək, başqa xalqları onlara qarşı qaldırmaq idi. M.S.Qorbaçovun xislətinə yaxşı bələd olan Heydər Əliyev sonralar qeyd edirdi ki, onun ən rəzil xüsusiyyəti müsəlman, türk dünyasına qarşı olan düşmənçiliyi idi. O illərdə müsəlmanlara, türklərə qarşı "Əhalinin köçürülməsi" adlı plan hazırlanmış və bu planın həyata keçirilməsinə başlanmışdı. Bu plan türk respublikalarındakı türklərin və müsəlmanların çoxunun Qərbi Rusiyaya və başqa slavyan respublikalarına köçürülməsini, onların yerinə isə xristian əhalinin yerləşdirilməsini nəzərdə tuturdu.

Digər pozucu vasitə xalqlarda özünü müstəqil idarə etmək, təsərrüfat qurmaq qabiliyyətinə inamsızlıq hissinin aşılanması idi. Moskvada yüksək partiya və dövlət vəzifələrində işləyən Heydər Əliyev yenidənqurmanın metodlarına, gələcək milli münaqişələrə səbəb ola biləcək düşünülməmiş dövlət siyasətinə, xüsusən türk respublikalarına qarşı qərəzli siyasətə açıq və kəskin etirazlarını bildirirdi. Belə bir şəxsiyyətin yüksək vəzifələrdə olması, türk xalqlarına dayaq durması imperiyanın planlarını poza bilərdi. Buna görə də o illərdə "Kremldə parlayan türk ulduzu"na - Heydər Əliyevə qarşı xristian-slavyan mənşəyinə əsaslanan tam bir bürokratik aparat dayanmışdı.

Kremldə Heydər Əliyevə qarşı başlanan hücumları çox zaman M.Qorbaçovun Ona mənfi münasibətilə əsaslandırırlar. Əlbəttə, səbəblər sırasında bu da var, amma bütün bunların yalnız M.Qorbaçovun şəxsi mövqeyindən irəli gəlməsi fikri ilə əsla razılaşmıram. M.Qorbaçovun bu münasibəti Heydər Əliyevlə müqayisədə öz natamamlığını, çatışmazlıqlarını görən cılız bir insanın paxıllıq hissi idi. Bu hiss həmişə və hər yerdə özünü büruzə verirdi.

Amma Heydər Əliyevə qarşı güclənən hücumların əsas səbəbi, belə yüksək bir hakimiyyət zirvəsində Heydər Əliyev kimi parlaq, qüdrətli bir türk övladının, İslam inanclı liderin olmasını və türkün davasını aparmasını sinirə bilməyən bütöv bir şovinist-bürokratik aparatın mövqeyi idi.

❖ ❖ ❖

9 iyun 1993-cü il...

Həmin gün Heydər Əliyev Naxçıvandan Bakıya tarixi bir missiya üçün qayıtmışdı. Keçmiş imperiyanın öz süqutu ərəfəsində yaratdığı saysız-hesabsız problemlər məngənəsində inləyən, soyqırımı acısı yaşayan, torpaqlarının 20 faizi işğal olunan, bir milyondan çox vətəndaşı yurd-yuvasından perik düşən, silahlı dəstələrin əlində naçar qalan, iqtisadiyyatı dağılan, ailələri təknəsində bir parça çörək tapmayan Azərbaycanın xilası üçün gəlmişdi.

Onu bu missiyanı yerinə yetirməyə çağıran xalqın Heydər Əliyevdən istədiyi tək şey ölkəni düşdüyü bu ağır vəziyyətdən xilas etmək, Azərbaycanın ötən əsrin 70-ci illərində yaşanmış xoş günlərini geri qaytarmaq idi.

Bir çoxlarına elə gəlirdi ki, Heydər Əliyev sovetlərin inzibati-amirlik metodundan irəli gələn və keçmiş ittifaq respublikalarından bəzilərində günü bu gün də tətbiq olunan "dəmir əl", formal müstəqillik prinsipinə üstünlük verəcək. Həqiqətən, Heydər Əliyevin onillər boyu ictimai-siyasi xadim kimi yetişib formalaşdığı dövlət idarəçiliyi mühitinin xarakterini nəzərə alanda Onun özü üçün də belə bir metod ən asan yol kimi görünə bilərdi.

15 iyun 1993-cü il...

Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsində ilk çıxışını etmək üçün xitabət kürsüsünə yaxınlaşdı və bəyan etdi: *"Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir".*

Həmin çıxışı zamanı Heydər Əliyev müstəqil Azərbaycan Respublikası qarşısında duran yollardan ən çətinini, lakin həm də gələcəyə, milli hədəflərə doğru ən dürüstünü - demokratiya yolunu seçdi.

❖ ❖ ❖

Heydər Əliyev siyasi təlatümlər girdabında pərən-pərən düşmüş Azərbaycan cəmiyyətini yenidən toparlayıb milli amallara doğru istiqamətləndirdi. Cəmiyyəti sarmış ümumi bədbinlik əhvalını qısa zamanda ortadan götürdü. Müstəqil Azərbaycan dövlətinin ayağa qalxıb kövrək addımlarla gələcəyə doğru irəliləməsi üçün tarixi yol müəyyənləşdirdi.

1994-cü ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə bağlanan müqavilələr Heydər Əliyevin qlobal məkanda nümayiş etdirdiyi böyük cəsarət nümunəsi idi. Xəzər regionunda dünyanın böyük güclərinin siyasi maraqlarının üz-üzə gəldiyi bu addımın atılmaması üçün bəlli qüvvələr tərəfindən Azərbaycanda bir neçə dəfə dövlət çevrilişlərinə cəhd göstərildi. Bakıda silsilə siyasi qətllər törədildi. Amma bütün bunlar Heydər Əliyevi mövqeyindən çəkindirmədi. "Əsrin müqaviləsi" imzalandı və bu, Azərbaycanın müstəqilliyinin daimiliyinə, əbədiliyinə, dönməzliyinə atılan ilk imza kimi tarixə əbədi həkk olundu.

Ulu öndərin müəllifliyi ilə 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası cəmiyyətdə formalaşan yeni münasibətlər sisteminin, onun seçdiyi demoktarik inkişaf yolunun hüquqi bazasını formalaşdırdı. Uğurla həyata keçirilən demokratik islahatlar, Avratlantik məkana inteqrasiya kursu Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirdi, ölkəmizdə vətəndaş təəssübkeşliyinə əsaslanan sivil, modern bir cəmiyyətin əsasını qoydu.

❖ ❖ ❖

Azərbaycanın bugününü - Heydər Əliyevin demokratiya yolunun inamla davam etdirilməsini qürurla müşahidə edirik. Prezident İlham Əliyevin son 10 ildə inamla, əzmlə davam etdirdiyi müstəqillik və demokratiya missiyası Azərbaycan xalqının, dövlətinin tarixdəki ikinci böyük şansıdır. Xalq Heydər Əliyev kursuna dəstək verməklə cənab İlham Əliyevin rəhbərliyi ilə bu şansı tarixinin ən böyük inkişaf mərhələsinə, tarixdəki ən qüdrətli vaxtına, dönəminə çevirməyi bacardı.

Əsl demokrat xalqın adamıdır, xalqın sözünü deyən liderdir.

Əsl vətəndaş cəmiyyəti vətəndaşın özünü rahat hiss etdiyi, başqalarından hörmət gördüyü və başqalarına hörmətlə yanaşdığı, öz sözünü deyə bildiyi cəmiyyətdir.

Azərbaycan Prezidenti İlham Əliyev də bütün fəaliyyətində məhz xalqı düşünən, xalqın sözünü deyən dövlət rəhbəridir. Onun rəhbərliyi ilə aparılan islahatlar, bütün ölkəni əhatə edən tikinti-quruculuq işləri Azərbaycanda insanların həm maddi, həm də mənəvi dünyasını zənginləşdirən ideal bir cəmiyyətin qurulmasına yönəlib. İlham Əliyev xalqla vəhdətdə, yüksək əzmkarlıqla, mətinliklə belə bir cəmiyyətin formalaşdırılmasına uğurla nail olur, xalqın demokratik, sivil bir cəmiyyətdə yaşamaq arzusunu reallığa çevirir. 2013-cü ilin oktyabrında ölkəmizdə keçirilmiş prezident seçkisində bu həqiqətə hər kəs bir daha şahid oldu.

Bu gün Heydər Əliyevin müqəddəs adını, şərəfli irsini yaşadan fondun və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti də Azərbaycanın dünya birliyində nüfuzunun yüksəlməsinə, ümmuiyyətlə isə, müstəqilliymizin möhkəmlənməsinə yönəlib.

❖ ❖ ❖

ATƏT-in Parlament Assambleyasının daha bir sessiyası başa çatır. Biz burada yenə də Azərbaycanla bağlı çoxsaylı sualları cavablandıracağımızı düşünürdük. Amma bu dəfə bizdən Azərbaycanla bağlı heç nə soruşan olmadı. Çünki daha buna ehtiyac qalmamışdı. İndi toplantıda bizimlə ünsiyyət quran, söhbətləşən hamının sözü-söhbəti Azərbaycandan idi. Erməni deputatların həsəd və paxıllıq dolu nəzərləri altında Azərbaycanın çoxsaylı dostları ilə əhatələnmişdik. Hamı ölkəmizin inkişafından danışırdı, Azərbaycanın qısa zaman ərzində qazandığı nailiyyətlərdən söz açırdı, ölkəmizi görmək arzusunu dilə gətirirdi.

Bizsə təbəssümlə bu ilin iyununu yada salırdıq: "Narahat olmayın. Azərbaycanı görmək arzunuz tezliklə gerçəkləşəcək. Axı ATƏT-in Parlament Assambleyasının illik sessiyasının 2014-cü ilin iyununda məhz Bakıda keçirilməsi planlaşdırılıb".

*...Təyyarə yavaş-yavaş Heydər Əliyev adına hava limanına doğru yaxınlaşır. Buludların üzərindən getdikcə miqyası böyüyən, qaynar, dinamik, inkişaf dolu həyatı yuxarıdan daha aydın nəzərə çarpan Vətənə tamaşa edirəm. Və bir neçə kəlmə ruhumda dua kimi zikr olunur:*

*Ruhun şad olsun, ulu öndər Heydər Əliyev!..*

*Sənin açdığın yol Azərbaycanı bu xoş günlərə gətirib!..*

*Sənin qurub-yaratdığın müstəqil, demokratik Azərbaycan bu gün etibarlı, əmin əllərdədir!*

**Fəttah HEYDƏROV,**
***Milli Məclisin deputatı,***
***Respublika Ağsaqqallar Şurasının sədri***

Azərbaycanın özü qədər əbədi



# Yeni sosial inkişaf strategiyasının müəllifi

Müasir Azərbaycan tarixinin otuz ildən artıq bir dövrü dövlətini və xalqını hər zaman bütün təbəddülatlardan xilas edən və inkişafına nail olan dahi şəxsiyyətin - ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin respublikamıza hələ birinci rəhbərliyi dövründə ittifaq rəhbərliyinin təzyiqlərinə baxmayaraq ölkəmizin milli iqtisadiyyatının dirçəldilməsi və sürətli inkişafı üçün böyük işlər görülmüş, iri sənaye müəssisələri tikilmiş, iqtisadiyyatın bütün sahələrində əsaslı inkişafa nail olunmuş, respublikamızın şəhər və rayonlarının abadlaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirilmişdi. Nəticədə müttəfiq respublikalar arasında Azərbaycan iqtisadi durumuna görə qabaqcıl ölkələrdən birinə çevrilmişdi.

## *Heydər Əliyev Azərbaycanda yeni iqtisadi sistemə transformasiyanı təmin etdi*

Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan dövlətçiliyinin qüdrətləndirilməsinə və xalqımızın maddi rifahının yaxşılaşmasına xidmət edən siyasi xəttini daha böyük prinsipiallıqla və ardıcıllıqla həyata keçirməyə başlamışdır. Ulu öndər xalqın çağırışına cavab verərək hakimiyyətə qayıtdıqdan sonra öncə respublikanı xaos və anarxiya mühitindən, parçalanmadan, vətəndaş müharibəsindən azad etmiş, hakimiyyət boşluğuna qısa müddətdə tam aradan qaldırmış, dövlətçiliyə qəsdlərin qarşısını böyük məharətlə almış, vətəndaş sülhü istiqamətində ciddi addımlar atmışdır. Bütün bunlar Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinə başlamaq imkanı yaratmışdır. Elə buna görə də müasir Azərbaycan dövlətinin banisi olan ulu öndər Heydər Əliyev respublikamızın dəyişməz və dönməz milli inkişaf strategiyasının müəllifi kimi əbədiyaşarlıq qazanmışdır.

Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq məhz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti sayəsində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində mühüm addımlar atıldı. Həyata keçirilən islahatlar nəticəsində sərbəst bazar münasibətlərinə əsaslanan və sosialyönümlü iqtisadi sistemin formalaşması, ölkədə mövcud olan təbii iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyası təmin edildi. Azərbaycan iqtisadiyyatında davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu islahatlar mahiyyət etibarı ilə inkişafın yeni - Azərbaycan modelini yaratdı.

Ümummilli lider Heydər Əliyev davamlı sosial-iqtisadi inkişafa nail olmaq üçün təkamül yolu ilə yeni iqtisadi sistemə transformasiyanı və çoxmülkiyyətli iqtisadiyyatın formalaşmasını təmin etdi. Ölkəmizin potensial imkanları, milli mənafelər, xarici dövlətlərlə qarşılıqlı münasibətləri, iqtisadi əməkdaşlığın yolları, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla Azərbaycanın demokratik islahatlar platformasını, inkişafın mükəmməl və özünü təsdiq edə biləcək iqtisadi istiqamətlərini müəyyənləşdirdi. Özəlləşdirmənin həyata keçirilməsi sayəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli şərait yarandı. Nəticədə ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı. 1994-cü il sentyabrın 20-də ulu öndərin gərgin əməyinin və qətiyyətinin nəticəsi olaraq "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyasının əsası qoyuldu. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açaraq dinamik inkişafın təməl prinsiplərindən birinə çevrildi.

## *Sosial prioritetlər müəyyən olundu*

Müasir elmi-nəzəri mülahizələrə görə sosial siyasət dedikdə əhalinin həyati mənafeyinin təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi nəzərdə tutulur. Sosial siyasət çoxcəhətli prosesdir, o, mürəkkəb struktura malikdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərək bütövlükdə cəmiyyətin ümumi inkişafı haqqında fikir yürütmək olar. Bütövlükdə isə sosial siyasətin başlıca məqsədi yoxsulluğun və sosial təzadların olmadığı, yüksək həyat səviyyəsinə malik olan, sosial ziddiyyətlərin kəskin münaqişələrsiz həll edildiyi bir cəmiyyəti formalaşdırmaqdan ibarətdir. Sosial siyasətin vəzifələri həm də insanların tələbatının və maraqlarının ödənilməsi üçün şərait yaratmaqdan, hər kəsdə fəal həyat mövqeyi formalaşdırmaqdan, ayrı-ayrı vətəndaşlara, sosial qruplara yardım göstərməkdən, onların sosial müdafiəsini və reabilitasiyasını təşkil etməkdən, maddi imkanlardan səmərəli istifadə etməyi öyrətməkdən, cəmiyyətin əmək qabiliyyətli hər bir üzvünün həyat səviyyəsinin onun öz səylərindən asılı olduğunu dərk etdirməkdən ibarətdir. Bütün təbəqə və qrupların maraqlarını nəzərə alan sosial siyasət cəmiyyətin sabitliyinə, kollektiv həmrəyliyə, sosial gərginliyin aradan qaldırılmasına, ictimai əxlaqın humanistləşməsinə, əlverişli sosial-psixoloji iqlimin yaranmasına kömək edir. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin vaxtilə əsasını qoyduğu sosial siyasətin üstünlüyü məhz bu cür mütərəqqi konsepsiyalara əsaslanmasıdır.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkədə başlanan yeni siyasi kurs sosial siyasətə təsirsiz ötüşmədi. Təbii ki, yeni sosial siyasətin formalaşması dövlətin kompleks inkişafının və yeni iqtisadi sistemə keçidinin tərkib hissəsi kimi nəzərdən keçirildi. Yeni iqtisadi sistemə keçid zamanı Azərbaycanın hansı modeldən faydalanmasına dair müxtəlif fikirlər irəli sürülsə də, Heydər Əliyev bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyənləşdirdi və Azərbaycan xalqının sosial rifahının artırılmasını, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminatı fəaliyyətinin başlıca məqsədi kimi elan etdi. Ulu öndərin ölkənin böyük perspektivlərinə hesablanmış strateji proqramının başlıca məqsədlərindən biri xalqın rifahının təminatı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi idi.

Yeni, kövrək addımlarını atan Azərbaycan özünün hədəflərini düzgün müəyyən etmişdi. Bu hüquqi aspektdə demokratik, hüquqi, iqtisadi aspektdə bazar münasibətlərinə rəvac verən, sahibkarlığı və çoxmülkiyyətçiliyi dəstəkləyən, sosial aspektdə isə hər kəsin layiqli həyat səviyyəsini təmin etməyi öhdəsinə götürən güclü dövlət ideyası idi. Heydər Əliyev güclü dövlət ideyasına sadiq qalaraq ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. Bunu ulu öndərin 1994-cü ildə imzaladığı fərmanlar da göstərir. Bunlardan biri "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli fərmandır. Bu sənədin əsas məqsədlərindən biri mövcud olan inflyasiyanın qarşısının alınmasına yönəlmişdi və bu, həmin dövr üçün olduqca vacib əhəmiyyət kəsb edirdi. Bu sənəddən irəli gələn vəzifələrin daha effektiv yerinə yetirilməsinə nail olmaq və yol verilən bəzi qüsurların aradan qaldırılması üçün Heydər Əliyev "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 1994-cü il 24 oktyabr tarixli növbəti sənəd imzaladı. Yeni fərman bilavasitə əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə qorunmasına xidmət etdi. Ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi olan Konstitusiyada isə Azərbaycan dövlətinin özünün hər bir vətəndaşının sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qaldığı bəyan olundu.

Heydər Əliyevin əsasını qoyduğu sosial siyasətin iki əsas xarakterik cəhətini xüsusilə qeyd etmək yerinə düşər. Bunlardan biri sosial siyasətin dayanıqlı olması, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi isə onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsidir. Bu baxımdan biz Heydər Əliyevin müəllifi olduğu sosial siyasətinin inkişaf tarixinə nəzər yetirsək görərik ki, ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial siyasət sahəsində əhəmiyyətli addımlar atıldı. Ayrı-ayrı kateqoriya şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və s. qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində fərman və sərəncamlar imzalandı.

Bu gün aztəminatlı ailələrə, müharibə veteranlarına və əlillərinə mənzillərin və avtomobillərin verilməsi, əlillərin reabilitasiyası məsələləri Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra dövlətin iqtisadi imkanlarına uyğun olaraq vüsət almağa başladı. Yoxsulluğun azaldılması hazırda beynəlxalq ictimaiyyət qarşısında duran ümumbəşəri bir problemdir. Ölkəmizdə bu problemin həlli aktual olsa da, bu sahədə ciddi nailiyyətlərin əldə olunması üçün irimiqyaslı maliyyə resursları tələb olunurdu. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi, "Əsrin kontraktı" çərçivəsində ölkəmizə maliyyə vəsaitlərinin daxil olması yoxsulluqla ciddi mübarizəyə başlanmasına zəmin yaratdı.

Ulu öndər Heydər Əliyev tərəfindən ölkədə sosial sahədə inkişafın təmin olunmasına xidmət edən 60-dan artıq sənəd imzalanıb. Bu da ondan xəbər verir ki, Heydər Əliyevin həyata keçirdiyi sosial siyasət əhalinin rifahının yüksəldilməsinə, sosial müdafiəsinə xidmət etməklə Azərbaycanda dövlət quruculuğu prosesinin əsas istiqamətlərindən birini təşkil edib.

Azərbayanın son on ildə qazandığı uğurlar fonunda bu reallığı bir daha təsdiq etmiş oluruq ki, möhkəm təmələ əsaslanan siyasət daim ölkəni inkişafa, tərəqqiyə aparır. Ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və yeni keyfiyyət göstəriciləri ilə zənginləşdirilməsi nəticəsində Azərbaycan bir-birindən əhəmiyyətli uğurlara imza ataraq iqtisadi artım templərinə görə dünyada öncül yerlərdə qərar tutub. *Milli inkişafda varisliyi təmin edən Prezdent İlham Əliyevin həyata keçirdiyi siyasət həm də novatorluğu və dinamizmi ilə fərqlənir.* Bu gün dünya inkişafın Azərbaycan modelinin mövcudluğundan bəhs edirsə və onun öyrənilməsinin vacibliyi bildirilirsə, bu, bir daha ölkəmizdə sosial-iqtisadi islahatların hər dövrün çağırışlarına uyğun şəkildə həyata keçirildiyini təsdiqləyir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Prezident İlham Əliyev Azərbaycanı müasir və qüdrətli dövlətə çevirmək məqsədini sadəcə deklorativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində də konkret addımlar atır. Dövlət başçısının təsdiq etdiyi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bunun bariz nümunəsidir. Bu konsepsiya göstərir ki, ölkə rəhbəri Azərbaycanın sadəcə bugünkü dinamik inkişafı ilə arxayınlaşmağı düzgün saymır. Çünki hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Belə bir konsepsiyanın yerinə yetirilməsi Azərbaycanı bu hədəflərə çatdıracaq və inkişaf etmiş ölkələr sırasına yüksəlməsində mühüm rol oynayacaq.

Konsepsiyasının təsdiq edilməsi ilə bağlı cənab Prezidentin fərmanında da qeyd olunduğu kimi, ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvü bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, eləcə də cəmiyyətin bütün istiqamətlərdə tərəqqini sürətləndirməklə inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq Azərbaycan dövlətinin fəaliyyətində mərkəzi yer tutur.

Xalqın böyük etimad və etibarını qazanaraq növbəti dəfə dövlət başçısı postuna seçilən Prezident İlham Əliyev qarşıdakı dövr üçün fəaliyyət proqramını, Azərbaycanın daha 5 illik inkişaf platformasının başlıca hədəflərini açıqladı. Dövlət başçısının andiçmə mərasimində bəyan etdiyi islahatların əsas konturları, inkişaf ssenariləri çox ümidverici, nikbin və daha irəliyə baxmaq üçün stimullu fundamental konsepsiya təsiri bağışladı. Bu konsepsiyanın başlıca məzmunu Azərbaycanın yeni iqtisadi siyasətini müəyyən etməkdən, yeni istiqamətlər açmaqdn, cəmiyyətin inkişafına geniş imkanlar yaratmaqdan ibarətdir. Bir sözlə, ölkə başçısı cəmiyyətə Azərbaycanın gələcək obrazını canlandıran milli inkişaf trendlərinin mesajını verdi. Respublikamızda yeni dövrün inkişaf qanunauyğunluqları nəzərə alınmaqla çevik, özünəməxsus, modern idarəetmə platforması formalaşdıran Prezident İlham Əliyev ölkədə demokratik cəmiyyət quruculuğunun, siyasi və iqtisadi islahatların dönməzliyinin təmin edilməsini, yeni reformalar kursunun həyata keçirilməsini davamlı və çoxkomponentli proses hesab edir və qarşıdakı mərhələdə bu istiqamətdə tədbirlərin sürətləndirilməsi əsas planlardandır.

## *Ölkə iqtisadiyyatı şaxələndirildi*

Ulu öndər Heydər Əliyevin siyasi kursunun böyük əzm və məharətlə davam etdirilməsi, Prezident İlham Əliyevin elmi əsaslara söykənən praqmatik siyasəti və gərgin əməyi sayəsində ölkəmizdə sözün əsl mənasında sıçrayışlı sosial-iqtisadi inkişafa nail olunmuş, son 10 ildə ümumi daxili məhsul 3 dəfədən çox, dövlət büdcəsinin gəlirləri 16 dəfə, sənaye məhsulları istehsalı 2,7 dəfə, strateji valyuta ehtiyatları 31 dəfə, daxili mənbələr hesabına əsas kapitala yönəldilən investisiyaların həcmi 18,4 dəfə, o cümlədən qeyri-neft sektoruna investisiyalar 21,6 dəfə artmışdır. Bu dövrdə ölkəmizdə orta illik iqtisadi artım 12,9 faiz təşkil etmiş və Azərbaycanın bu uğuru dünyada ən yaxşı nəticələrdən biri kimi qeydə alınmışdır. ÜDM-in həcminə görə Azərbaycan dünya ölkələri arasında 40 pillə irəliləmiş və 2003-cü ildəki 106-cı yerdən 66-cı yerə yüksəlmişdir. Sürətli inkişaf dövrünü yaşayan, dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu seçmiş Azərbaycan iqtisadiyyatı 2013-cü ildə də dinamik inkişafını davam etdirmiş və ötən ili yüksək sosial-iqtisadi göstəricilərlə, dayanıqlı inkişafa yönəlmiş mühüm tədbirlərin reallaşdırılması ilə başa vurmuşdur.

Prezident İlham Əliyevin yeni dövrün tələblərinə uyğun, zamanın nəbzini tutmaqla həyata keçirdiyi düşünülmüş, sürətli və davamlı inkişaf strategiyasının nəticəsi olaraq Azərbaycan artıq 2009-cu ildən iqtisadi sahədə keçid dövrünü başa vurub. Bu gün özünün uzunmüddətli inkişaf strategiyasının istiqamətlərini müəyyən edən Azərbaycanın qarşıdakı hədəfləri də bəllidir. Bunlar əldə olunmuş iqtisadi nəticələrin çoxaldılması və genişləndirilməsidir. Bu mənada hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac və rəqabət imkanlarını genişləndirməkdir. Təbii ki, iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi və strukturunun daha da təkmilləşdirilməsi qeyri-neft ixracının artımına gətirib çıxaracaq. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, həm də innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaq. İnnovativ iqtisadiyyat elmi biliklərə əsaslandığından elmin, informasiya-kommunikasiya texnologiyalarının rolunun artırılması da qarşıdakı dövrün başlıca prioritetlərindəndir.

Prezident İlham Əliyev ötən il oktyabrın 19-da andiçmə mərasimində bu məsələyə toxunaraq hədəfləri konkret göstərib: "İqtisadi sahədə şaxələndirmə siyasəti aparılır, aparılacaqdır. Çalışmalıyıq ki, növbəti on il ərzində qeyri-neft iqtisadiyyatımız iki dəfə artsın. Bu hədəf artıq bir il bundan əvvəl qarşıya qoyulmuşdur. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar vardır. Bu ilin göstəriciləri bunu deməyə əsas verir. Bu il qeyri-neft sektorumuz on faizdən çox artmışdır. Əgər biz hər il qeyri-neft sektorumuzu on faizdən çox artıra bilsək, o hədəfə çatacağıq".

Bu vəzifələri yerinə yetirmək üçün ölkənin bütün imkanlarından dolğun istifadə etmək, mövcud iqtisadi, sosial, siyasi resurslardan tam səmərə ilə yararlanmaq və ölkənin potensialının gücləndirilməsinə şərait yaratmaq vacib şərtdir. Bu baxımdan enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun genişləndirilməsi, bölgələrə xüsusi diqqət yetirilməsi bu mərhələdə əsas məsələlər olacaq. Ötən 10 ildə qazanılmış bu uğurların ölkə iqtisadiyyatının daha da güclənməsinə, onun çoxşaxəli inkişafına və keyfiyyət baxımından təkmilləşdirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, qeyri-neft sektorunun və regionların sürətli inkişafının təmin edilməsinə, yeni müəssisələrin və iş yerlərinin açılmasına, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasına təkan verəcəyi şübhəsizdir.

## *İqtisadi yüksəliş sosial rifaha yol açacaq*

Azərbaycanın dövlət başçısının iqtisadi sferada həyata keçirdiyi siyasətin indi də özünü qabarıq verən ən önəmli cəhətlərindən biri hər zaman sosialyönümlülük faktorunun ön plana çəkilməsidir. Bu mənada Prezident İlham Əliyevin hələ 2003-cü ildə dövlət başçısı kimi fəaliyyətə başladıqdan sonra imzaladığı ilk sənədlər ölkə iqtisadiyyatının daha intensiv inkişaf etməsini ehtiva etməklə yanaşı, nəticə etibarı ilə sosial rifah halının getdikcə yüksəlməsinə xidmət etmişdir.

Sonralar "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" əhalinin sosial rifahının yüksəlməsinə, gəlir əldə etmək imkanlarının genişləndirilməsinə, orta aylıq əməkhaqqının ilbəil yüksəlməsinə, nəticə etibarilə əhalinin həyat səviyyəsinin mütəmadi yaxşılaşmasına səbəb olmuşdur. Əhalinin gəlirlərində davamlı artım dinamikası ilə yanaşı, inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması vətəndaşların öz gəlirlərindən daha səmərəli istifadəsinə imkan vermişdir.

Bütövlükdə ötən 10 ildə orta aylıq əməkhaqqı 5,5 dəfə, pensiyalar 9,3 dəfə, əhalinin əmanətləri 27,2 dəfə artmış, 1 milyon 200 mindən çox yeni iş yeri açılmışdır, işsizlik səviyyəsi 6 faizə enmişdir. Məqsədyönlü siyasətin nəticəsidir ki, yoxsulluq səviyyəsi son on ildə kəskin şəkildə azalaraq 5,3 faizə enmişdir. BMT İnkişaf Proqramının 2013-cü ilə dair "İnsan İnkişafı Hesabatı"na əsasən, ölkəmiz insan inkişafı indeksinin orta illik artım tempinə görə MDB məkanında ilk yerə layiq görülmüşdür. Ümumiyyətlə, ötən 10 ildə İnsan İnkişafı İndeksinin artım sürətinə görə Azərbaycan orta dünya göstəricisini iki dəfə qabaqlayaraq planetin top-15-liyinə daxil olmuşdur. BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsinə görə, 1950-ci ildən sonra yalnız 13 ölkədə belə sürətli inkişaf müşahidə edilmişdir.

Son 10 ildə bazar iqtisadiyyatı şəraitində sosial ədalət prinsipinin gücləndirilməsi, mütərəqqi beynəlxalq təcrübə əsasında əhalinin bütün təbəqələri üçün bərabər və əlçatan sosial təminat mexanizminin yaradılması və təkmilləşdirilməsi, o cümlədən onun ünvanlılığının təmin edilməsi, aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, bu yöndə sosial reabilitasiya əhəmiyyətli aktiv tədbirlərin həyata keçirilməsi, sosial xidmət sisteminin cəmiyyətin ehtiyaclarına uyğun qurulması mühüm prioritetlər kimi diqqətdə saxlanılmışdır. Eyni zamanda, əhalinin səmərəli məşğulluğunun təminatı, peşə hazırlığı sisteminin maddi-texniki bazasının gücləndirilməsi və onun əmək bazarının tələblərinə uyğunlaşdırılması, əmək potensialının inkişaf etdirilməsi, layiqli əməyin təminatına yönələn səmərəli dövlət nəzarətinin formalaşdırılması və s. əsas fəaliyyət istiqamətləri olmuşdur.

Ölkəmizdə həyata keçirilən modern sosial siyasət malik olduğu konkret parametrlərlə diqqət cəlb edir. Həmin parametrlərdən bəhs edərkən burada əsas cəhətlərdən biri kimi *sosial müavinət sisteminin sığorta-pensiya sistemindən ayrılması istiqamətində həlledici addımların atılması, buna xidmət edən* "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası qanunlarının qəbulu oldu. *2006-cı il yanvarın 1-dən qüvvəyə minən bu qanunlar* ölkədə sosial sferanın tamamilə yeni əsaslarla qurulmasına gətirib çıxardı. Beləliklə, ölkəmizdə yeni, beynəlxalq təcrübədə özünü doğrultmuş üçpilləli struktura (baza, sığorta və yığım hissələrindən ibarət) əsaslanan əmək pensiyaları sistemi formalaşdırıldı. Bununla da sosialist prinsiplərinə, başqa sözlə desək, həmrəylik prinsiplərinə əsaslanan pensiya sistemini inkişaf etmiş Avropa ölkələrində geniş tətbiq olunan - vətəndaşların fərdi hesablarında yığılan pensiya kapitalına əsaslanan pensiya sistemi əvəz etdi. Mövcud qanunvericiliyə uyğun olaraq sığortaolunanların fərdi uçotu həyata keçirilir və məcburi dövlət sosial sığorta haqlarının fərdi sığorta hesablarında toplanılır. Beləliklə də vətəndaşların pensiya təminatı fərdi uçotun məlumatları əsasında onların ödədikləri sığorta haqlarının məbləğinə uyğun olmaqla müəyyən edilir.

"Sosial müavinətlər haqqında" qanun isə əvvəllər sistemsiz halda olan müavinətlərin dairəsini, təyin olunması şərtlərini vahid bir sənəddə tənzimləyir. Beləliklə də 2010-cu il yanvarın 1-dən sosial müdafiə sistemində yeni mərhələ başlanmışdır. 2005-ci il oktyabrın 21-də dövlət başçısı aztəminatlı əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə "Ünvanlı dövlət sosial yardımı haqqında" imzaladığı qanun ölkənin aztəminatlı təbəqəsinin maddi rifah halının yüksəlməsində mühüm rol oynamağa başladı və ildən-ilə bu yardımın verilmə mexanizmi daha da təkmilləşdirilir. Ünvanlı sosial yardım təyin edilərkən yoxsulluğun mənfi nəticələrinin yüngülləşdirilməsi, bu yardımın real olaraq ehtiyaca uyğun müəyyən edilməsi və subyektin dəqiq seçilməsi vacib faktor kimi nəzərdə tutulur.

Bütün bunlar onun bariz təsdiqidir ki, Azərbaycanda milli inkişaf modelinin əsaslarını sosial dövlət prinsipləri təşkil edir. Bu prinsiplər cəmiyyətdə sosial ədalətin təmin olunması, milli gəlirlərin bərabər bölünməsi və nəticə etibarilə hər bir vətəndaşın yüksək sosial rifahının təmin edilməsi kimi ümdə məsələləri əhatə edir.

İstənilən iqtisadi artımın məqsədi sosial rifahın yüksəldilməsidir. İnsanların sosial yüksəlişinin təmin olunması, bütün vətəndaşların gələcək sosial həyatının gücləndirilməsi iqtisadi siyasətin əsas uğurudur. Ona görə qarşıdakı dövrdə milli inkişafın əsas istiqamətlərindən birini iqtisadiyyatın şaxələndirilməsi fonunda əhalinin sosial rifahının daha da yüksəldilməsi, sosial müdafiəsinin gücləndirilməsi, sosial sahələrin və insan kapitalının inkişafı, yoxsulluğun tamamilə aradan qaldırılması, əhalinin məşğulluğunun təmini və gəlirlərinin artımı təşkil edəcək.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, orta təbəqənin güclü olduğu ölkələr həm siyasi, həm də iqtisadi, sosial və s. aspektdən daha sabit və yüksək inkişaf potensialına malik olurlar. Bu baxımdan ölkədə əhalinin orta təbəqəsinin genişlənməsi, həmin təbəqənin rolunun gücləndirilməsi başlıca məqsədlərdən biri olmaqla yoxsulluğun tamamilə aradan qaldırılmasına xidmət edəcək.

## *Əhalinin sağlamlığının qorunması sosial siyasətin vacib istiqamətidir*

Əhalinin sosial müdafiəsi sahəsində bizi qarşıda daha böyük işlər gözləyir. Bu işləri birdən həyata keçirmək mümkün deyil, çünki sosial sahə həddən artıq həssasdır, o radikal dəyişikliklərə dayanıqlı təsir göstərməyə bilər. Hazırda pensiya qanunvericiliyinin növbəti mərhələlərdə daha da təkmilləşdirilməsinə, sosial müdafiə sistemində sığorta münasibətlərinin - könüllü sosial sığorta, istehsalat qəzası və peşə xəstəliklərindən sığorta sahəsində qanunvericiliyin formalaşdırılmasına, sosial siyasətin ən vacib istiqamətlərindən olan əhalinin sağlamlığının qorunmasının daha da güclü mexanizmlərinin yaradılmasına ehtiyac var.

Ölkəmizdə baş verən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən səhiyyənin inkişafına əsaslı təkan vermişdir. Ölkə rəhbərliyinin apardığı sosialyönümlü siyasətin nəticəsi olaraq son illər ərzində səhiyyənin inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Respublikada səhiyyəyə ayrılan büdcə vəsaiti 2003-cü illə müqayisədə 11 dəfədən çox artıb. 2014-cü il üçün bu vəsait 725 milyon manatı ötüb. Büdcə vəsaitlərin artırılması və investisiya fondundan ayrılan vəsait respublikamızda aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz olunmuş yeni tibb mərkəzlərinin yaradılmasına imkan vermişdir. Azərbaycan Prezidentinin sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında məlum fərmanları səhiyyənin inkişafına böyük təkan vermiş və geniş imkanlar yaratmışdır. Son 10 il ərzində ümumilikdə 500-ə yaxın səhiyyə müəssisəsində təmir və tikinti işləri aparılmışdır.

Son illərdə tibb sahəsində irimiqyaslı işlər görülüb əhatəli qanunvericilik bazası yaradılsa da, tibbi sığortanın tam işə düşməməsi, bölgələrdə yüksək ixtisaslı tibbi kadrların çatışmazlığı və s. son nəticədə tibbi xidmətin keyfiyyətinə təsir göstərir. Eyni zamanda reproduktiv sağlamlığın qorunması istiqamətində də ciddi işlərin görülməsinə ehtiyac vardır. Çünki insanın reproduktiv sağlamlığı onun yalnız fiziki sağlamlığının elementi deyildir, bu həm də mənəvi rahatlığın, məmnunluq yaradan həyatın mühüm tərkib hissəsidir.

Təbii ki, növbəti illərdə səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi həyata keçiriləcək, eyni zamanda səhiyyə islahatları planlı şəkildə davam etdiriləcək. Eyni zamanda icbari tibbi sığortaya keçilməsi və onun əsasında tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə diqqət artırılacaq. Bununla yanaşı, səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi ən vacib məsələ kimi diqqət mərkəzində olmalı, tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılmalıdır. Xüsusən kənd yerlərində işləyən həkim və orta tibb işçiləri üçün uyğun həyat şəraitinin yaradılması üzrə müvafiq işlər görülməli və təşviqləndirici maddi təminat mexanizmləri müəyyənləşdirilməlidir.

Bütün bu məsələlər "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda da öz əksini tapıb. Artıq konsepsiyaya uyğun olaraq "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2013-2020-ci illər üçün Dövlət Proqramı", "Azərbaycanda qeyri-infeksion xəstəliklərə qarşı mübarizəyə dair Strategiya" layihələri hazırlanıb. Həmçinin uşaqların sağlamlığının qorunması işinin dövlət siyasətinin ən prioritet istiqamətlərdən olduğunu sübut edən "Uşaqların icbari dispanserizasiyası haqqında" qanun və dövlət proqramı qəbul edilib.

*Sosial inkişaf prosesi cəmiyyət həyatının bütün sahələrini, bütün insan qruplarını əhatə etdiyi üçün çoxşaxəlidir və xüsusi diqqət tələb edir. Son 10 ilin reallıqları göstərir ki, Azərbaycan dövlətinin bu məsələdə konkret və ünvanlı siyasəti var. Gələcəyə gedən yolun konturları isə bizim üçün indidən aydındır. Bu baxımdan yeni inkişaf siyasətinin nəticələri bizə perspektivə daha inamla və daha nikbin baxmağa imkan verir.*

**Hadi RƏCƏBLİ,**
***Milli Məclisin Sosial siyasət komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü***

Azərbaycanın özü qədər əbədi

Hər bir görkəmli dövlət xadiminin özündən sonra qoyub getdiyi fikir - siyasi-ideoloji irs sonrakı dövrlərdə millət üçün daim bir istinadgah, ümid və etimad mənbəyinə çevrilir. Bir çox hallarda dərin ictimai məzmun kəsb edən bu zəngin mənəvi miras siyasi təşkilatlanma və institusional təsisatlar formasında tarix səhifəsinə çıxır. Məhz bu baxımdan yanaşdıqda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvədir və partiyanın fəaliyyəti xalqımızın ali mənafeyinin ifadəsi kimi çıxış edir.



# YAP Heydər Əliyev kursunun siyasi istinadgahıdır

Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvə olan və fəaliyyəti xalqımızın ali mənafeyinin ifadəsi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasından 22 il ötür. Ümumiyyətlə, YAP ötən əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəllərində ölkəmizdə meydana çıxan mürəkkəb siyasi situasiyanın daxili məntiqindən, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranan partiyadır. Belə ki, 1988-ci ildən başlanan iqtisadi, siyasi, xüsusilə hakimiyyət böhranı, həmçinin həmin illərdə Azərbaycanda rəhbərliyə gətirilən səriştəsiz, imperiya ağaları qarşısında əyilən, milli maraqlarımızdan xəbərsiz olan dairələrin gündən-günə güclənən erməni təcavüzünün qarşısını almaq, ordu yaratmaq, xalqı səfərbər etmək, Vətənin təhlükəsizliyini və əhalinin rifahını təmin etmək əvəzinə öz hakimiyyətlərini qorumaq uğrunda mübarizə aparmaları ölkəmizdə vəziyyəti daha da gərginləşdirmişdi. Ölkəni bürüyən total böhran AXC-“Müsavat” cütlüyünün səriştəsizliyi səbəbindən daha da dərinləşmişdi. Məhz belə bir ərəfədə Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq, uçurum qarşısında olan dövlətimizi xilas etmək məqsədilə xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri, həmçinin ziyalılar dahi şəxsiyyət Heydər Əliyevə müraciət etdilər. 1992-ci il oktyabrın 24-də ziyalıların müraciətinə cavab məktubunda ulu öndər Heydər Əliyevin yaranmış vəziyyəti dərindən təhlil etməsi və çıxış yolunu göstərməsi noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis edilməsi zərurətini reallaşdırdı.

Bu bir həqiqətdir ki, yarandığı gündən YAP-ın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız bu 22 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərib. Məhz buna görə də ümumxalq partiyasına çevrilən, 600 mindən çox üzvü olan YAP bu müddət ərzində ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanıb.

YAP-ın keçirdiyi qurultaylarda (1999, 2001, 2005, 2008, 2013) qəbul etdiyi tarixi qərarlar ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından mühüm rol oynayıb. Yaxın tariximizə mərhələli şəkildə nəzər salsaq görərik ki, ümummilli lider Heydər Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti sayəsində Azərbaycan böyük inkişaf yoluna qədəm qoyub. Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu 1993-2003-cü illər ərzində Azərbaycan dövlət müstəqilliyinin dönməzliyini təmin edib, sosial-iqtisadi və beynəlxalq sahədə mühüm nailiyyətlər qazanıb. Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısı alınıb, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda, diplomatik cəbhədə düşmən üzərində üstünlük əldə edilib.

Məlumdur ki, hər zamanın özünəməxsus tələb və vəzifələri var. Ümummilli lider Heydər Əliyev də Azərbaycanın qarşısında duran vəzifələri dəqiq göstərərək dövlətimizin söykəndiyi təməl prinsipləri müəyyən edib. Bu gün Azərbaycan məhz həmin prinsiplərə istinad edərək inkişaf edir. Ulu öndərin müəyyən etdiyi təməl prinsiplərindən biri hüquqi-siyasi varislikdir. Təsadüfi deyil ki, hələ ümummilli liderin rəhbərliyi ilə keçirilən muxtar respublika Ali Məclisinin sessiyalarında dövlət müstəqilliyinin bərpası ilə bağlı tarixi qərarlar qəbul olundu, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı müstəqillik rəmzi kimi Naxçıvan parlamentində qaldırıldı, Naxçıvan Muxtar Respublikasının adından “sovet Sosialist” sözləri götürüldü, ali qanunverici və icra hakimiyyəti orqanlarının - Ali Məclisin və Nazirlər Kabinetinin adları dəyişdirildi, sovet qoşun hissələri Naxçıvandan çıxarıldı, onların bazasında müstəqilliyin vacib elementi olan ilk milli sərhəd dəstəsi və milli ordu hissələri yaradıldı. Ulu öndər 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu proses davam etdirildi.

Təbii ki, varislik prinsipi, eyni zamanda müstəqil dövlətimizin inkişafı üçün başlanan siyasətin davamlı olmasıdır. Məhz bu ali məqsədin reallaşması naminə ümummilli lider Heydər Əliyev böyük çətinliklərlə qurduğu dövlətə rəhbərlik etmək üçün namizədini elan etdi: *“O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımzın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.*

Bu fikirlərin məntiqi nəticəsi cənab İlham Əliyevin 2003-cü ilin 15 oktyabrında xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq ölkə Prezidenti seçilməsi oldu. Xalq liderinin sözünə güvənərək öz tarixi seçimini etdi. 2005-ci ilin mart ayında isə YAP-ın III qurultayı keçirildi. Qurultayda təşkilati məsələlərə baxıldı və Azərbaycan Prezidenti, YAP sədrinin birinci müavini cənab İlham Əliyev partiyanın sədri seçildi. Beləliklə, cənab İlham Əliyevin YAP-ın sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı.

Bu dönəmdən başlayaraq müstəqil Azərbaycan dövlətinin qurucusu, YAP-ın yaradıcısı, ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, uğurlu neft strategiyasının həyata keçirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, ölkənin təhlükəsizliyini təmin etmək iqtidarında olan ordunun yaradılması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirildi və bu prosesdə YAP daim ön sırada getdi. YAP üzvləri ölkəmizin daha da güclənməsi naminə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ən fəal dəstəkçiləri olmaqla bu siyasətin uğurlarını xalq arasında geniş təbliğ etməkdədir.

Onu da vurğulayaq ki, cənab İlham Əliyev YAP-ın sədri seçiləndən sonra kəmiyyət və keyfiyyət baxımından partiyada əhəmiyyətli dərəcədə dəyişikliklər müşahidə olunur. Faktlara diqqət yetirdikdə, ötən müddət ərzində Heydər Əliyev ideyalarına söykənən partiyamızın ilbəil gücləndiyinin şahidi olarıq. Belə ki, əgər YAP-ın 2001-ci ildə keçirilmiş II qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III qurultaya qədər bu göstərici 360 minə çatmışdı. V qurultaydan sonra isə YAP üzvlərinin sayı 600 mindən çoxdur.

Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur. Sirr deyil ki, YAP Heydər Əliyev yolu ilə irəliləyərək çox böyük və şərəfli yol keçib. Cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir.

Partiya yarandığı vaxtdan xalqımıza xidmət onun başlıca amalı olub. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsipinə söykənən Yeni Azərbaycan Partiyası ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərib.

Qeyd etdik ki, YAP-ın əldə etdiyi nailiyyətlərin ciddi tarixi və siyasi əsasları vardır. Məhz bu yanaşmanın doğruluğunu isbat edən başlıca göstəricilər qismində partiyanın müxtəlif zaman kəsiklərində keçirdiyi qurultayların nəticələri və bütün ümummilli seçkilərdə əldə etdiyi parlaq qələbələrdir. YAP-ın yarandığı vaxtdan etibarən Azərbaycanda keçirilən bütün ümummilli seçkilərdə parlaq qələbələr qazanması hər kəsə bəllidir. Hər seçkidən-seçkiyə partiyanın uğurlarının miqyası genişlənir və bu da seçkilərin nəticələrində də özünü aydın şəkildə ifadə edir. 2003, 2008 və 2013-cü illərdəki prezident seçkiləri buna sübutdur.

Bu dövrdə partiya sosial sifarişə əsaslanaraq bir sıra mühüm təşəbbüslərlə də çıxış edib. Belə ki, 2008-ci ilin dekabr ayında YAP Azərbaycan Konstitusiyasında dəyişikliklər təşəbbüsü ilə çıxış edərək bununla bağlı ümumxalq səsverməsinin - referendumun keçirilməsini təklif etdi. Konstitusiya Məhkəməsi bu təkliflərə müsbət rəy verdikdən sonra Milli Məclis 2009-cu il martın 18-də Konstitusiya dəyişikliklərinin edilməsi ilə bağlı ölkədə referendum keçirilməsi haqqında qərar qəbul etdi. Referendumun nəticələri isə xalqın YAP-a olan inamını bir daha təsdiqlədi.

YAP bu uğurları və qələbələri 2004-cü və 2009-cu illərdə keçirilmiş bələdiyyə seçkilərində də təkrarlayıb. Əlbəttə ki, partiyanın uğurları bununla bitməyib. YAP-ın parlaq qələbələri parlament seçkilərində də özünü göstərməkdədir. 2005-ci ildə 3-cü çağırış Milli Məclisə seçkilərdə 64 deputat mandatı qazanmaqla YAP rəqiblərini xeyli geridə qoydu. Məlumdur ki, 2010-cu il noyabrın 7-də Azərbaycanda 4-cü çağırış Milli Məclisə seçkilər keçirildi. Bu seçkilərdə mütəşəkkil qaydada iştirak edən, güclü seçki kampaniyası aparan YAP bu seçkilərdə də əhəmiyyətli qələbə qazanaraq 70-dən çox deputat mandatı əldə etdi.

YAP-ın 22 illik tarixinə nəzər salarkən partiyanın 2013-cü il 7 iyun tarixində keçirilən və Azərbaycan siyasi tarixinin əlamətdar hadisəsi olan V qurultayını ayrıca qeyd etmək lazımdır. Qurultay çərçivəsində qəbul edilən qərarlar partiyanın gücləndirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edib. Partiyanın V qurultayında əsas diqqət mərkəzində olan məsələlər Prezident İlham Əliyevin yenidən partiyanın sədri seçilməsi və 2013-cü il 9 oktyabr tarixində keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürməsi idi. Bu qərarlar YAP-ın 600 minlik üzvü və bütövlükdə Azərbaycan xalqı tərəfindən gözlənilən qərar oldu. Seçkilərin nəticələri də qurultayın qərarının ümumxalq səviyyəsində dəstəkləndiyini təsdiq etdi.

Bununla yanaşı, V qurultayda partiyanın strukturlarına yeni seçimlərin edilməsi təşkilati nöqteyi-nəzərdən xüsusi önəm daşımaqla bərabər, partiyanın fəaliyyətinin stimullaşdırılmasına və səmərəlilik səviyyəsinin artırılmasına əhəmiyyətli töhfələr verdi. Xüsusilə vurğulamaq gərəkdir ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı ilk dövrlərdən etibarən milli mədəniyyətin qorunması sahəsində çoxşaxəli və genişmiqyaslı fəaliyyət göstərən ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın, idmanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə görə ölkəmizdə və beynəlxalq aləmdə təqdir olunan Azərbaycanın birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Yeni Azərbaycan Partiyasının sədrinin müavini seçilməsi əlamətdar hadisə kimi səciyyələndirilməlidir. Sirr deyil ki, Mehriban xanım Əliyeva həm də Milli Məclisin deputatı kimi təqdirəlayiq fəaliyyəti ilə, Azərbaycanın müxtəlif ölkələrlə münasibətlərinin inkişafına töhfə verməklə ölkənin siyasi həyatında aktiv iştirak edir.

Yeni Azərbaycan Partiyasının V qurultayında diqqəti cəlb edən başqa bir məsələ dövlət başçısının nitqində son 10 ildə Azərbaycanın keçdiyi yola işıq tutması idi. Prezident İlham Əliyev qurultay nümayəndələri qarşısında nitqində Azərbaycanın siyasətinin, eləcə də iqtisadiyyatın, regionların, elmin, təhsilin gələcəyi ilə və Azərbaycan dövlətinin gələcəyinin strateji inkişaf istiqamətləri ilə bağlı əsas mövqeyini ifadə etdi. Bəlli oldu ki, növbəti illərdə də əsas diqqət mərkəzində olan məsələlərdən biri, ilk növbədə, regionların inkişafı ilə bağlı olacaq, xarici siyasətdə əsas prioritetlərdən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli məsələsi olacaq. Həmçinin elmin, təhsilin inkişafı, Azərbaycanın sosial dövlət olmaq istiqamətinin daha da inkişaf etdirilməsi də Yeni Azərbaycan Partiyası sədrinin qarşıya qoyduğu əsas vəzifələrdir.

Beləliklə, V qurultayı xarakterizə edərkən, ilk növbədə, qeyd etmək lazımdır ki, YAP daxili struktur etibarilə yeni keyfiyyət əldə etdi, siyasi təşkilat olaraq daha da gücləndi, monolit siyasi güc kimi ölkənin siyasi sisteminə hakim olduğunu nümayiş etdirdi. Bütövlükdə, Yeni Azərbaycan Partiyasının V qurultayı yuxarıda sadaladığımız əsas amilləri həll etməklə bərabər, Azərbaycan xalqının tarixinin gələcəyi ilə də bağlı əslində qərar vermiş oldu.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasında son islahatlar partiyanın V qurultayında qəbul edilən qərarlarla məhdudlaşmır. Belə ki, YAP-ın idarə heyətinin bu ilin noyabr ayında keçirilən iclasında partiyanın sədr müavinləri arasında iş bölgüsünün müəyyən edilməsi və müxtəlif sahələri əhatə edən 12 komissiyanın yaradılması barədə qərar qəbul edilib. Bu, bir daha onu göstərir ki, YAP öz fəaliyyətini davamlı olaraq təkmilləşdirir, zamanın tələblərinə uyğun addımlar atır və daim inkişaf edir.

Sirr deyil ki, Azərbaycan cəmiyyəti Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda əldə edilmiş möhkəm ictimai-siyasi sabitliyi və sürətli iqtisadi inkişafı perspektiv tərəqqinin əsası kimi səciyyələndirir. Bu gün hər bir Azərbaycan vətəndaşı Prezident İlham Əliyevi alternativsiz lider kimi dəyərləndirir. Məhz dünyanın mühüm sorğu mərkəzləri və nüfuzlu ekspertləri də öz qənaətlərində Prezident İlham Əliyevin prezident seçkilərində alternativsiz namizəd olduğunu ifadə edirdilər. Tezliklə zaman göstərdi ki, xalqın seçimi bu dəfə də dəyişməzdir və verilən proqnozlar özünü doğrultdu.

Məlum olduğu kimi, Prezident İlham Əliyev oktyabrın 9-da keçirilən prezident seçkilərində seçicilərin 84,59 faizinin dəstəyini qazanmaqla növbəti möhtəşəm qələbəyə imza atdı. Bu uğur, əslində, Azərbaycanın son 10 ildə keçdiyi yola, qazandığı uğurlara, daxili və xarici siyasət kursuna, bu kursu həyata keçirən Prezident İlham Əliyevin fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Bu qələbə həm də Yeni Azərbaycan Partiyasının ictimai-siyasi həyatdakı roluna xalqın verdiyi qiymət idi. Bildiyimiz kimi, fəaliyyət göstərdiyi 22 il ərzində YAP sosial, iqtisadi sahələrdə əldə olunan uğurlarda, ölkənin beynəlxalq mövqelərinin güclənməsində, daxili və xarici siyasət kursunun həyata keçirilməsində və ən nəhayət, növbəti dəfə seçkilərdə möhtəşəm qələbənin qazanılmasında hər zaman Heydər Əliyev yolunun davamçısı olub. Xüsusi qeyd etmək lazımdır ki, cənab İlham Əliyevin prezident seçkilərində böyük üstünlüklə qalib gəlməsinin əsasında da xalqın iradəsi, inamı və seçimi dayanır. Azərbaycan xalqı bir daha təsdiq etdi ki, ölkəmiz doğru yolda irəliləyir. Seçkilərdə yüksək fəallıq göstərən Azərbaycan seçicisi bir daha təsdiq etdi ki, xalq bundan sonra da Heydər Əliyev yolunun davam etdirilməsini istəyir. Siyasi plüralizm, şəffaf, ədalətli, demokratik şəraitdə baş tutan seçkilərin nəticəsi xalqın öz gələcəyini güclü, müstəqil, hərtərəfli inkişafa malik rifah dövlətinin yaradılmasının qarantına - Prezident İlham Əliyevə etibar etdiyini göstərdi.

Beləliklə, sadalananlar deməyə əsas verir ki, Yeni Azərbaycan Partiyası siyasi sistemin monolit gücü və avanqard siyasi institutudur. Başqa sözlə, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycan siyasi palitrasının ən güclü və nüfuzlu siyasi partiyasıdır. YAP-ın siyasi sistemdəki mövqeyini və fəaliyyətinin əsaslarını statik və dinamik detallar əsasında analitik tədqiqatların obyektinə çevirdikdə məlum olur ki, sözügedən siyasi institut təmsil etdiyi qrupların ali mənafeyini və dövlətçilik maraqlarını özünün Məramnamə və Nizamnaməsində əks etdirən, həmçinin bunları praktik müstəvidə yüksək səviyyədə reallaşdıran ümumxalq partiyasıdır. Ümumxalq partiyası ifadəsini YAP-ın timsalında təsadüfən işlətmədik. Çünki konkret faktlar deməyə əsas verir ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə siyasi sistemin dinamikliyinə və onun elementlərinin təkmilləşməsinə xüsusi təkan verən elit institutdur. Söylədiyimiz tezisi daha da aydınlaşdırmaq üçün YAP-ın fəaliyyət substratlarının əsasında aşağıdakı siyasi ümumiləşdirmələri aparmaq mümkündür.

Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi palitrasında ən güclü və fundamental resurslara malik sosial-siyasi təsisatdır: partiyanın fundamental resursları sırasına onun öz ətrafında cəmiyyətin ən nüfuzlu ictimai-siyasi fiqurlarını birləşdirməsi, üzvlərinin sayının 600 mini keçməsi, güclü siyasi idarəçilik təcrübəsinə malik olması kimi kəmiyyət və keyfiyyət göstəriciləri daxildir.

Yeni Azərbaycan Partiyası siyasi sistemdəki yerinə və fəaliyyət mexanizminə görə rəqabət partiyası (başqa sözlə, səfərbəredici partiya) kimi səciyyələndirilir. Belə ki, YAP öz fəaliyyəti ilə rəqiblərini aktiv siyasi mübarizəyə və rəqabətə cəlb edən, sosial konsensusu və siyasi sistemin rəqabətlilik qabiliyyətini təmin edən təsisatdır.

YAP ideoloji xarakteristikasına görə islahatçı, praqmatik və mütərəqqi siyasi institutdur. Partiyanın fundamental ideoloji prinsipləri azərbaycançılıq, güclü və müstəqil dövlətçilik, yüksək rifah, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, milli həmrəylik, sosial ədalət, sağlam rəqabətə əsaslanan siyasi mübarizə kimi təməl dəyərləri özündə ehtiva edir. Bu da nəticə etibarilə sözügedən siyasi institutun siyasi palitrada mövqeyini möhkəmləndirməyə və fəaliyyət sahəsini daha da genişləndirməyə imkan verir.

Belə ki, Yeni Azərbaycan Partiyası daxili təşkilati strukturuna görə antreprener (açıq) sistemə malikdir. Təşkilati strukturuna görə YAP mərkəzləşdirilmiş partiya intizamının yüksək səviyyədə təmin olunduğu, cəmiyyətin bütün qruplarının, əhalinin ən müxtəlif təbəqələrinin maraqlarının ifadə olunduğu siyasi təsisatdır. Digər tərəfdən, sözügedən kriteriyaya görə, partiya müxtəlif sahələrə yararlı, yüksək səviyyəli kadr potensialı hazırlayan daxili fəaliyyət mexanizminə malikdir. Bütün bu xüsusiyyətlərin fonunda Yeni Azərbaycan Partiyası nəzəri-konseptual, proqram-siyasi və aktual-praktik səviyyədə üzvlərinin-təmsil etdiyi qrupların ali maraqlarını yüksək səviyyədə ifadə və təmin etməkdədir.

Yekun nəticədə YAP siyasi sistemdəki mövqeyinə müvafiq olaraq leqal və demokratik ictimai-siyasi təsisatdır. Belə ki, partiyanın qatıldığı ümummilli və lokal səciyyəli bütün seçkilərdə rəqibləri ilə sağlam mübarizə aparması faktı sübut edir ki, sözügedən siyasi təsisat legitim fəaliyyət mexanizminə və substratlarına malikdir.

YAP-ın fəaliyyət mexanizminin mühüm istiqamətlərindən birini də onun ideoloji siyasəti təşkil edir. Hakim partiyanın ideoloji siyasətinin əsasları onun başlıca ideoloji prinsiplərində öz əksini tapıb.

YAP-ın ideoloji siyasəti sosiumda siyasi iştirakçılığın və sosiallaşmanın artmasına fundamental töhfələr bəxş edir. Vətəndaşların siyasi iştirakçılıq səviyyəsinin artması cəmiyyətdaxili dinamikanı artırır və milli inkişafı sürətləndirən mexanizm qismində çıxış edir.

Habelə YAP-ın öz fəaliyyətində rəhbər tutduğu ideoloji prinsiplər cəmiyyətdə təşəkkül tapmış demokratik norma və dəyərlərin möhkəmlənməsinə mühüm töhfələr bəxş edib və bu proses hazırda da davam etməkdədir. Yeni Azərbaycan Partiyasının bilavasitə təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisində ictimai, siyasi və hüquqi anlamda mühüm əhəmiyyət kəsb edən qanunlar qəbul olunmaqdadır. Qüvvəyə minmiş qanunların tətbiqi mexanizmlərinin mükəmməl surətdə müəyyən olunması ictimai, siyasi, iqtisadi və hüquqi müstəvidə inkişafa yol açan əhəmiyyətli dəyişiklikləri şərtləndirən faktor kimi çıxış edir.

Beləliklə, Yeni Azərbaycan Partiyasının ideoloji prinsipləri cəmiyyətdə milli dəyərlərin təşəkkül tapmasını və möhkəmlənməsini şərtləndirən, milli həmrəylik və bütövlüyü təmin edən mühüm institusional mexanizm qismində dəyərləndirilməlidir. Bu amil özünü partiyanın gənclər siyasətində də aydın şəkildə göstərir.

Vurğuladığımız kimi, özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclər də böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Ümumiyyətlə, ulu öndərin rəhbərlik etdiyi və onun ideyalarına sadiq qalan YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Təsadüfi deyil ki, hələ 1993-cü ildə ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşən ulu öndərin səsləndirdiyi fikirlər həm gənclərimizə, həm də ölkəmizin mövcudluğunu həzm edə bilməyən qüvvələrə önəmli mesaj idi: *“Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik”.*

Beləliklə, ulu öndərə böyük inam və etimad göstərən Azərbaycan gəncliyi tezliklə dövlətin və hakim Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşdi. Ümummilli lider gənclərin cəmiyyətin fəal və aparıcı qüvvəsinə çevrilməsi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinə aktiv cəlb olunması yönündə əməli addımlar atdı. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması gənclərimizin dövlət quruculuğu prosesindəki iştirakına əsaslı təkan verdi. Ulu öndər Heydər Əliyevin gənclərə qayğısı geniş və əhatəli idi. Bu həm gənclərin təhsil almasında, həm sosial-maddi problemlərin aradan qaldırılması istiqamətində görülən işlərdə, həm də gənclərin dövlət orqanlarına işə qəbulunda özünü göstərirdi.

Zaman keçdikcə YAP-ın gənclərə olan diqqət və qayğısı artdı, gənc nəslə yönələn fəaliyyəti genişləndi. 1995-ci ilin iyununda YAP Gənclər Birliyinin yaradılması isə partiyanın tarixinə əlamətdar hadisə kimi daxil oldu.

Müstəqil Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında və gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında ulu öndərin təşəbbüsü və iştirakı ilə keçirilən ölkə gənclərinin I Forumu xüsusi rol oynadı. 1996-cı il fevralın 2-də keçirilən forum ümummilli lider Heydər Əliyevin gəncliklə bağlı strategiyasının ilk təntənəsi oldu. Təsadüfi deyil ki, məhz həmin vaxt ulu öndərin sərəncamı ilə 2 fevral Gənclər Günü kimi Azərbaycan tarixinə düşdü. Cənab İlham Əliyevin 2001-ci il 21 noyabrda YAP-ın II qurultayında partiya sədrinin birinci müavini vəzifəsinə seçilməsi isə gənclərimizdə daha böyük ruh yüksəkliyi yaratdı.

Ulu öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir.

Görülən effektiv tədbirlərin nəticəsidir ki, hazırda Milli Məclisdə, bələdiyyə qurumlarında çalışan gənc kadrların sayı hiss olunacaq dərəcədə artır, habelə müxtəlif dövlət orqanlarına vakant yerlər üzrə keçirilən müsabiqələrdə gənclərin irəli çəkilməsi onların dövlət idarəçiliyinə fəal cəlb olunması deməkdir.

YAP-ın Gənclər Birliyi bu gün də istedadlı, cəmiyyətə və dövlətə yararlı olmaq istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür.

Hazırda daxili siyasətdə aparıcı rola malik olan Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələri də yüksələn xətt üzrə inkişaf edir, əməkdaşlığın coğrafiyası və məzmunu genişlənərək keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. YAP müasir qloballaşan dünyanın çağırışlarına çevik reaksiya verərək əməkdaşlıq imkanlarından maksimum faydalanır və Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində geniş fəaliyyət göstərir.

YAP-ın müxtəlif ölkələrin siyasi partiyaları və demokratik təsisatları ilə qurduğu işgüzar və səmimi münasibətlər ardıcıl surətdə inkişaf edir. YAP-ın beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın bir sıra aparıcı siyasi partiyaları və qurumları ilə münasibətləri prioritet istiqamət kimi əsas götürülüb. Yeni Azərbaycan Partiyası Türkiyə, Rusiya, Rumıniya, Ukrayna, Qazaxıstan, Kanada, Hindistan, Çin, Cənubi Koreya, Pakistan, Tacikistan və digər ölkələrin aparıcı siyasi partiyaları ilə uzun müddətdir sıx və qarşılıqlı münasibətlərə malikdir, partiyalar arasında intensiv görüşlər keçirilir, fikir və təcrübə mübadilələri aparılır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, YAP 51 ölkənin siyasi partiyalarının təmsil olunduğu Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (İCAPP) Daimi Komitəsinin üzvüdür. YAP bu kimi nüfuzlu beynəlxalq qurumda təmsil olunmaqla Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm tribuna əldə edib. Əməkdaşlıq münasibətlərinin qurulduğu dövrdən etibarən Yeni Azərbaycan Partiyasının nümayəndələri Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının keçirdiyi tədbirlərdə yaxından və fəal iştirak edir, qurumun iclaslarında səmərəli müzakirələr apararaq təklif və layihələr irəli sürürlər. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının 23-26 sentyabr 2009-cu ildə Astanada keçirilən V Baş Assambleyasında Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov bu qurumun Daimi Komitəsinin üzvü seçilib. Onu da qeyd etmək yerinə düşər ki, İCAPP-a üzv olan partiyalardan yalnız 18-i bu qurumun Daimi Komitəsində təmsil olunur.

Bununla yanaşı, YAP-ın Avratlantik məkanda baş verən siyasi proseslərə təsir imkanları da genişlənib. Bu mənada, Almaniyanın, Fransanın, İtaliyanın, İspaniyanın və digər ölkələrin hakimiyyətdə olan partiyalarını özündə birləşdirən və Avropa Parlamentində çoxluğa sahib olan Avropa Xalqları Partiyası (EPP) ilə münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Bir sözlə, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin coğrafiyası getdikcə genişlənir. Bu əlaqələr, eyni zamanda müstəqil Azərbaycan Respublikasının siyasi partiyalar səviyyəsində beynəlxalq təşkilatlarda təmsilçiliyinin yüksək nümunəsidir.

Onu da qeyd etmək lazımdır ki, Yeni Azərbaycan Partiyası dünyanın aparıcı ölkələrində uzun illər fəaliyyət göstərən bir çox güclü partiyaların sırasına cəmi 22 ildə qatıla bilib. Deməli, bu partiya həqiqətən demokratik, hüquqi dəyərləri özündə cəmləşdirmiş gənc partiya kimi daim inkişafda, möhkəmlənməkdə, demokratik dünyaya inteqrasiya etməkdədir. Bütün bu amillər bizə cəsarətlə söyləməyə imkan verir ki, ulu öndərin YAP haqqında irəli sürdüyü “dünənin, bu günün və gələcəyin partiyası” tezisi praktikada uğurla reallaşmaqda və cəmiyyətimizi strateji hədəflərə doğru aparmaqdadır.

***Siyavuş NOVRUZOV,***
***Milli Məclisin komissiya sədri,***
***YAP İdarə Heyətinin üzvü***

*Azərbaycanın özü qədər əbədi*

Azərbaycanın çağdaş tarixinin ümummilli lider Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən real həyat həqiqətidir. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında Heydər Əliyevin nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir. Heç kimdə şübhə yoxdur ki, Heydər Əliyevə məxsus dahilik keyfiyyətləri olmasaydı, həmin maneələr aradan qalxmaz, həmin maneələr aradan qalxmasa isə həyatımızın indiki gerçəkliyi olmazdı.



# Müstəqil Azərbaycanın dövlətçilik tarixini yaradan dahi şəxsiyyət

1993-cü il iyunun 15-də Heydər Əliyevin qayıdışı təkcə Heydər Əliyev ömrünün deyil, həm də bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsidir. Bu qayıdış Azərbaycan xalqının itirilmiş inamını özünə qaytardı, sabaha, gələcəyə ümidini artırdı. Ümummilli lider: "Mən buraya vəzifə üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim" deyərək ömrünün qalan hissəsini də xalqının xilasına həsr edəcəyini bildirmişdir. Beləliklə, Azərbaycan dövlətçiliyinin müqəddəratı həll edildiyi 1993-cü ilin iyun günlərində dünya miqyaslı siyasi dövlət xadimi Heydər Əliyevi yenidən hakimiyyətə dəvət edən Azərbaycan xalqı parçalanıb dağılmaq və müstəqilliyini itirmək kimi dəhşətli fəlakətdən xilas oldu. Qısa müddət ərzində dövlət və hakimiyyət böhranına son qoyuldu, cəbhədə atəşkəs elan edildi və vətəndaş müharibəsinin qarşısı alındı. Bir neçə dövlət çevrilişi cəhdləri və terror aktları dəf edildi və nəticə etibarı ilə ölkədə möhkəm ictimai-siyasi sabitlik yaradıldı.

Məhz Heydər Əliyev Ermənistan və Azərbaycan arasında uzun müddətdən bəri davam edən qanlı müharibəni dayandırmağa, atəşkəs elan etməyi, münasibətləri aydınlaşdırmağı sülh danışıqları müstəvisinə keçirməyə nail oldu.

Qarabağ probleminin təkcə ölkədaxili məsələ olmadığını bir dövlətin - Ermənistanın, digər dövlətə - Azərbaycana ərazi iddiasından doğan bu silahlı münaqişənin geopolitik, dünyanın müxtəlif aparıcı dövlətlərinin iqtisadi, siyasi və hərbi maraqlarının toqquşduğu və bu maraqlardan asılı bir problem olduğunu məhz böyük öndər Heydər Əliyev ilk dəfə dünyaya bəyan etdi, neçə illərdən bəri məruz qaldığımız informasiya blokadasını dağıtdı, Azərbaycan həqiqətlərini dünyaya çatdırdı.

Prezidentlik dövrü ərzində ümummilli lider keçirdiyi hər bir görüş və tədbirdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması prosesini sürətləndirmək üçün istifadə etmişdir. Ulu öndər Heydər Əliyev mövcud problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu çərçivəsində ardıcıl, məqsədyönlü iş aparmışdır. Bununla yanaşı, dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları, mötəbər beynəlxalq təşkilatların rəhbərləri ilə ardıcıl və intensiv danışıqlar, görüşlər keçirmiş və nəticədə nail olduğu atəşkəs sazişindən məharətlə istifadə edərək dövlətçilik sütunlarının möhkəmləndirilməsi, hərbi quruculuq, vahid komandanlıq altında nizami ordu yaradılması, demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu yolunda geniş islahatlar aparılması sahəsində mühüm tədbirlər həyata keçirmişdir.

Bu dövrdə Heydər Əliyev ölkədə iqtisadi islahatların həyata keçirilməsi sahəsində gərgin iş aparmışdır. İqtisadiyyatdakı tənəzzül proseslərinin qarşısını alaraq inkişafa nail olmaq üçün mühüm qanunların qəbul edilməsi, inflyasiyanın uğurlu makroiqtisadi sabitləşdirmə siyasəti nəticəsində cilovlanması, Azərbaycanın misilsiz sərvəti olan neft məsələlərinə böyük əhəmiyyət verərək zəngin neft yataqlarının işlənilməsində dünyanın ən qabaqcıl şirkətlərinin bilavasitə iştirakına şərait yaradılması, genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsi, investisiyaların həcminin ən yüksək həddə çatması kimi amillər Heydər Əliyevin bazar iqtisadiyyatının bərqərar olmasına və sabit tərəqqisinə yönəlmiş iqtisadi strategiyasının real bəhrələri idi.

Göründüyü kimi, ulu öndərin dövlətçilik fəaliyyətinin spektri üfüq xətti ilə müqayisə olunacaq qədər hüdudsuz və miqyas etibarı çox geniş olduğundan əslində bu fəaliyyəti istənilən halda tam əhatə etmək qeyri-mümkündür. Bu baxımdan konkret olaraq - Heydər Əliyev Azərbaycanda insan hüquq və azadlıqlarının ən böyük təminatçısıdır - fikrini əsaslandırmaq məqsədi ilə tarixi əhəmiyyət kəsb edən bəzi mühüm faktları bir daha sadalamaq və təhlil etmək faydalı olardı:

İlk növbədə qeyd edilməlidir ki, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi ümummilli liderin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir. Demokratiya və insan hüquqlarına sadiq olduğunu daim bəyan edən ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarının hüquqlarının bərpa edilməsi sahəsindəki siyasəti gələcək nəsillərin yaddaşına ədalətin bərpası kimi həkk olunacaqdır.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatların ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə böyük öndər Heydər Əliyevin ilk qərarlarından biri ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu.

Demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı milli müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. 1992-1993-cü illərdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu.

Ümummilli liderin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

1995-ci ilin noyabr ayının 12-də Azərbaycan tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Qeyd olunduğu kimi, 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığımıza əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu.

Ulu öndərin 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasını bir daha sübut etdi.

Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistlik nəticəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmiş, həmin vaxtdan indiyədək qəbul edilmiş amnistiya aktları 10 minlərlə, əfv fərmanları isə minlərlə şəxsə tətbiq edilmişdir.

Heydər Əliyev hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətinin alçaldılması, zorakılıq, işgəncə və bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur.

Heydər Əliyev ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədi ilə 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzaladı. İnsan hüquqları sahəsində həyata keçiriləcək tədbirlərin istiqaməti və konsepsiyası həmin sənədlə müəyyən edildi və ümumdövlət səviyyəsinə qaldırıldı. Bunun ardınca təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair dövlət proqramında" Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, elmi-tədqiqat institutunun yaradılması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssislərin hazırlanması, öhdəliklərə əməl edilməsi və digər vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu fundamental sənədlərin fəlsəfəsi ondan ibarətdir ki, hər bir şəxs Konstitusiyada təsbit edilmiş hüquqlarının həyata keçirilməsi üçün bütün imkanlara malik olsun. Belə ki, Konstitusiyada bəyan edilmiş hüquqların həyata keçirilməsi üçün bir sıra mühüm qanunlar qəbul olunmuş və çevik hüquqi mexanizmlər müəyyənləşdirilmişdir. "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" və digər qanunları misal göstərmək olar.

Ölkəmizdə insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də "İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" qanunun qəbul edilməsi oldu. Belə bir hüquqi təsisatın yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkəmizdə fəaliyyət göstərməsinə şərait yaratdı.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi, sosial islahatların həyata keçirilməsi, dövlətimizin beynəlxalq birliyə tam hüquqlu üzv kimi qəbul olunması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Milli Məclisin qəbul etdiyi qanunvericilik aktlarının, o cümlədən "Vətəndaşlıq haqqında", "Məlumat azadlığı haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunların əsas ruhu insan hüquqlarının müdafiəsi təminatlarının yaradılması olmuşdur.

Bunlar bir tərəfdən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə etmişdir.

Heydər Əliyev respublikamızda mətbuata dövlət qayğısını, kütləvi informasiya vasitələrinin inkişafını, fikir, söz və məlumat azadlığının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edərək 1998-ci il avqustun 6-da imzaladığı fərmanla 1992-1993-cü illərdə sərbəst informasiya fəaliyyətinə qoyulmuş məhdudiyyətləri aradan qaldırdı.

Bu təşəbbüs mətbuatda böhtan, təhqir, şərəf və ləyaqəti alçaldan məlumatların yayılmasına deyil, ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin edilməsinə, hüquqi və etik normaların gözlənilməsinə və qanunlara uyğun mexanizmin yaradılmasına yönəldilmişdi.

Ümummilli liderin gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdi. Bu siyasət indi də möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qələbələrlə zəngin və diqqətəlayiq bəhrələrini verir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin bu dövrünün qısa təhlili göstərir ki, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın konkret vəzifə və istiqamətləri, prinsipləri ilə seçilən ardıcıl xarici siyasət xətti yalnız 1993-cü ilin ikinci yarısından etibarən yeridilməyə başlanmışdır. Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumağa, möhkəmləndirməyə və ölkəmizin dünya birliyinə inteqrasiyası üçün əlverişli beynəlxalq şəraiti təmin etməyə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, indi Azərbaycan dövləti bölgədə və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkədaxili demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd və şəhərlərimizin bərpa olunması, sayı bir milyona çatan və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir müstəqil Azərbaycanın memarı, böyük öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır.

Bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Heç təsadüfi deyildir ki, bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı şəkildə dəfələrlə təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

1995-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla, dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi. Bu illərdə hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ümummilli lider vicdan və azadlıqlarının təmin edilməsini, tolerantlıq mühitinin yaradılmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı.

Bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən Azərbaycanın dünyəvi və demokratik dövlət imicinin formalaşmasında ümummilli liderin xidmətləri əvəzsizdir. Ulu öndərin rəhbərliyi dövründə dövlət quruculuğunda, insan hüquq və azadlıqlarının təmin edilməsi yolunda mühüm işlər görülməsi ilə yanaşı, digər istiqamətlərdə də möhtəşəm nailiyyətlər qazanılmışdır. Möhkəm maddi-texniki bazaya və yüksək döyüş qabiliyyətinə malik güclü ordunun formalaşması böyük sərkərdə kimi Heydər Əliyevin dövlətçilik fəaliyyətinin ən parlaq istiqamətlərindəndir.

Ən müxtəlif zümrələri əhatə edən, eyni zamanda siyasi müstəvidə baxışlarına görə həmfikir olan vətəndaşların vahid ideologiya ətrafında və mükəmməl konsepsiya əsasında təsisatlanaraq birgə fəaliyyətinin təmin edilməsi ümummilli liderin siyasi qüdrətini özündə ehtiva edən ən mühüm keyfiyyətlərdən biri sayılır. Elə bu səbəbdən də nəticə etibarı ilə Heydər Əliyevin dövlət idarəetmə səriştəsini daim yüksək qiymətləndirən Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının müəyyənləşdirdiyi siyasi xəttin düzgünlüyünə bir daha şahid oldu. Bu siyasətə fəal dəstəyini sonrakı proseslərdə də əsirgəmədi.

Ulu öndərin "Dünənin, bu günün, gələcəyin partiyası" deyə həm keçmişini, həm bu gününü, həm də gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir.

Heydər Əliyev siyasi xəttinin alternativsizliyinə qəti əmin olan Azərbaycan xalqı 2003, 2008 və 2013-cü ilin prezident seçkilərində də məhz bu partiyanın namizədinə - Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevə etimad göstərdi. Bununla müstəqil Azərbaycanın dövlətçilik tarixində yeni bir yüksəliş mərhələsinin əsası qoyuldu.

Cənab İlham Əliyevin fəaliyyətinin ən mühüm göstəricisi odur ki, Prezident olaraq Heydər Əliyevin əsasını qoyduğu tərəqqini, əldə edilən nailiyyətləri təkcə qoruyub saxlamadı, həm də onların miqyasını genişləndirdi, inkişaf dinamikasını qat-qat artırdı. Böyük çətinliklə qazanılan ictimai sabitlik toxunulmaz qaldı, sosial-iqtisadi yüksəliş, mütərəqqi siyasi dəyişikliklər, hüquqi və demokratik yönümlü islahatlar uğurla davam etdirildi, demokratik prinsiplər və insan hüquqlarının prioritetliyi təmin olundu, xalqın sabaha inamı, dövlətinə və rəhbərinə etimadı daha da artdı. Ölkədə siyasi münasibətlərin sağlamlaşdırılması istiqamətində atılan konkret addımlar öz bəhrəsini verdi, milli birlik, vətəndaş həmrəyliyi möhkəmləndi, yüzlərlə insan rəhbərin ali mərhəməti nəticəsində əfv olunub cəmiyyətdə yenidən özünü təsdiq etmək imkanı əldə etdi. Milli-mədəni intibah yeni yüksəliş dövrünə qədəm qoydu, azərbaycançılıq ideologiyası ətrafında mənəvi səfərbərlik təmin olundu.

Ulu öndər Heydər Əliyevin misilsiz zəhməti və böyük siyasi məharəti sayəsində baş tutmuş və müasir dünyanın ən möhtəşəm mühəndislik qurğularından sayılan "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft boru kəmərinin istifadəyə verilməsi cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin ən diqqət çəkən hadisələrindən biridir. Bu kəmər ölkəmizin iqtisadi inkişafına xidmət etməklə yanaşı, həm də Azərbaycanın geosiyasi maraqlarının təminatında, milli təhlükəsizliyimizin qorunmasında da mühüm amildir. Son proseslər sübut etdi ki, Azərbaycanın iştirakı olmadan bölgədə hər hansı beynəlxalq enerji, nəqliyyat layihəsinin və ya hansısa digər regional iqtisadi-sosial təşəbbüsün həyata keçirilməsi mümkün deyildir.

İqtisadi inkişaf dinamikasına görə Azərbaycan dünya dövlətləri arasında öncül mövqeyə çıxıb. Ümumi daxili məhsulun artımına görə isə dünyada liderliyini qoruyub saxlayır. Digər tərəfdən, regionların, qeyri-neft sektorunun yüksələn xətlə inkişafı, yeni infrastrukturların yaradılması, sosial-iqtisadi proqramların uğurla gerçəkləşdirilməsi, beynəlxalq iqtisadi sistemə inteqrasiya ölkəmizin düzgün inkişaf yolunda olduğundan xəbər verir. Bu gün ümumbəşəri problemə çevrilən qlobal maliyyə böhranından Azərbaycanın faktiki olaraq zərər çəkməməsi də cənab İlham Əliyevin dövlət başçısı kimi məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsi kimi qəbul edilməlidir.

Bu gün Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı cənab İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı işlərin siyasi aspektdə tədqiqi aşağıdakı nəticələrə gətirib çıxarır:

- ölkə daxilində düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsi;
- diplomatik və siyasi imkanlardan istifadə etməklə Azərbaycanın müstəqil dövlətçiliyinə qarşı yönəlmiş təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, bölgədə və dünyada müttəfiqlərin qazanılması;
- beynəlxalq həyatın bir çox problemlərinin həllinə münasibət bildirmək və özünün iştirak etdiyi regional konflikti dünya siyasəti səviyyəsinə qaldırmaq məqsədilə dünyanın aparıcı dövlətləri ilə, beynəlxalq və regional təşkilatlarla, xarici ölkələrdə Azərbaycanın qlobal maraqlarını müdafiə edə biləcək institutlarla, diaspor mərkəzləri və başqa qurumlarla hərtərəfli işin aparılması və s.

Məhz bu istiqamətlər Prezident kimi fəaliyyətə başladığı ilk günlərdən cənab İlham Əliyevin xarici siyasət kursunun leytmotivini təşkil edir. Bu gün beynəlxalq reallıqları qiymətləndirərkən belə bir amil unudulmamalıdır ki, dövlətlərarası münasibətlər daim dinamikada və planetin ictimai-siyasi həyatının bütün sahələri ilə təmasda olan bir prosesdir. Bu müstəvidə dövlətimizin başçısı özünün xarici siyasətində Heydər Əliyevin Azərbaycanın müstəqilliyi kontekstində işləyib hazırladığı, qlobal əhəmiyyət kəsb edən sülh diplomatiyasına üstünlük verir və düşünülmüş xarici siyasət strategiyasını həyata keçirmək üçün dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının ali kürsülərindən, böyük səkkizliyə daxil olan, habelə dünyanın digər aparıcı dövlətlərinin diplomatik vasitələrindən səmərəli şəkildə istifadə edir.

*Müstəqil Azərbaycan dövlətçiliyinin yaradılmasının və inkişafının haqlı olaraq Heydər Əliyev epoxası adlandırıla bilən bu dövrü tarixi sərvət və olduqca qiymətli bir irsdir. Xalqımız bu sərvəti, bu irsi qoruyub saxlamalı, inkişaf etdirməli və nəsildən-nəslə çatdırmalıdır.*

**Əli HÜSEYNLİ,**

***Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri***

Azərbaycanın özü qədər əbədi

Siyasət aləminin patriarxı Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçildiyi ilk günlər idi. Ali Sovetdə xarici ölkələrdən birinin nümayəndə heyəti ilə görüş keçirilirdi. Qəbul başa çatdı. İnformasiya hazırlamaq üçün müəyyən faktları, xüsusən əcnəbi qonaqların çətin tələffüz olunan adlarını və vəzifələrini dəqiqləşdirmək lazım idi. Parlamentin strukturları demək olar fəaliyyətsiz idi. Kimdən soruşasan? Mətbuat katibi Aqşin Babayev çiyinlərini çəkib başı ilə Sədrin qapısına işarə etdi: Bunu yalnız Heydər Əliyevdən soruşmaq lazımdır.



# Ulu öndər Heydər Əliyevin demokratiya və vətəndaş cəmiyyəti quruculuğu modelində mətbuatın yeri və rolu

Adi bir faktı dəqiqləşdirmək üçün Sədri narahat etmək nə dərəcədə düzgün idi? Özü də belə gərgin vaxtda. O, buna necə baxardı? Ancaq başqa çıxış yolu yox idi. Aqşin müəllim qapını döyüb Heydər Əliyevin kabinetinə keçdi. Çox keçmədən qayıdıb dedi ki, gözləyin, Heydər Əliyev jurnalistlərlə görüşmək istəyir. Onda indiki kimi deyildi. Ölkədə üç-dörd rəsmi qəzet çıxırdı. AzərTAc isə yeganə informasiya agentliyi idi. Bir də Azərbaycan televiziyası vardı.

Xülasə, AzərTAc-ın, AzTV-nin, ANS-in, "Azərbaycan", "Respublika" qəzetlərinin, "Xalq qəzeti"nin müxbirlərindən və daha bir-iki mətbuat nümayəndəsindən ibarət heyəti Heydər Əliyev kabinetinə dəvət etdi. Ayaqüstü qısa söhbət oldu. Kimin harada işlədiyini bir-bir soruşdu. Qəbul etdiyi əcnəbi nümayəndələrin adlarını aydın tələffüzlə çatdırdı. Axırda təxminən bu sözləri dedi:

- Mətbuat böyük qüvvədir. Parlamentin işini, ölkədə baş verənləri işıqlandırmaq, xalqa çatdırmaq lazımdır. İnsanlar ölkədəki vəziyyətdən xəbərdar olmalı, hansı proseslər getdiyini bilməlidirlər. Bunu yalnız mətbuat edə bilər.

İlk baxışda bəlkə də adi görünən epizoddur. Amma düşündükcə bir çox mətləblər hasil olur. Onlardan yalnız birinin üstündə dayanmaq istərdim: bu, ulu öndər Heydər Əliyevin mətbuata necə böyük önəm verdiyinin təsdiqi idi.

İndi çox şey adiləşib. O cümlədən azad mətbuat, azad düşüncə, azad söz, vətəndaş cəmiyyəti... Bu gün tam fərqli cəmiyyətdə yaşayırıq. Hətta opponentlər də etiraf edərlər ki, bu yeni dövlətin və cəmiyyətin modeli Heydər Əliyevə məxsusdur. Təkcə modelimi? Model təfəkkürün, beynin, düşüncənin məhsuludur, ideyadır. Ən çətini düşündüklərini, ideyanı gerçəkləşdirmək, həyata keçirməkdir. Əsl demokratiyanın, vətəndaş cəmiyyətinin yolu heç də hamar olmur. Nədən başlamalı, hara istiqamət götürməli, nə vaxt və hara qədər getməli? Hesablamalar aparmaq, cəmiyyətin intellektual səviyyəsindən, milli mentalitetdən tutmuş, mümkün xarici təsirlərə və təzyiqlərə, müxalif fikrə və maneələrədək bir çox ciddi amilləri nəzərə almaq lazımdır.

Heydər Əliyev irsinə nəzər saldıqda birmənalı şəkildə görmək olur ki, ulu öndərin banisi olduğu və ən başlıcası, məharətlə reallaşdırdığı yeni dövlət modelinin əsaslarından birini demokratiya və vətəndaş cəmiyyəti məsələsi təşkil edir. Heydər Əliyev bu məsələdə mətbuat və söz azadlığına xüsusi yer ayırırdı. Hesab edirdi ki, demokratiyaya və vətəndaş cəmiyyətinə gedən yol məhz mətbuat və söz azadlığından keçir və bunun alternativi yoxdur. Bu qənaətin doğruluğunu zaman özü təsdiqlədi.

1993-cü ilin həyəcanlı və gərgin yayında, olduqca mürəkkəb bir vaxtda yenidən hakimiyyət sükanı arxasına keçən Heydər Əliyevə çox ağır miras qalmışdı. Vətəndaş qarşıdurmasının yaşandığı, opponentlərin az qala bir-birini didib parçalamağa hazır olduğu bir vaxtda vətəndaş cəmiyyətindən necə danışmaq olardı? Xalq hərəkatının köpüklü dalğaları üzərində hakimiyyətə gələn insanlar, səriştəsiz, kobud nazirlər mətbuata münasibətdə çox ziyanlı presedent yaratmışdılar: jurnalisti təhqir etmək, söymək, hətta döymək olar. Azad fikrin başından basırdılar. Mətbuat üzərində sovet dövründəkindən də ciddi senzura qoyulmuşdu. Xatırlayırsınızsa, 1993-cü ilin aprelində senzuranın tətbiqinin əhatə dairəsinin genişləndirilməsi haqqında sərəncam verildi və bununla da jurnalistlərin məlumat əldə etmək və yaymaqla bağlı peşə fəaliyyətləri ciddi surətdə məhdudlaşdırıldı.

O vaxt siyasi-hərbi vəziyyət elə idi ki, stereotipləri qırmaq, xüsusən mətbuata tam azadlıq vermək böyük risk tələb edirdi. Cəmiyyət demokratiyaya hazır deyildi. Çoxları bunu anarxiya kimi başa düşür, qanunla hesablaşmaq istəmirdi. İnsan hüquqlarını, söz və mətbuat azadlığını tənzimləyən qanunvericilik bazasının məhdudluğu, natamamlığı əlavə çətinliklər yaradırdı.

Bütün bunları nəzərə alan ulu öndər böyük uzaqgörənliklə gələcəyə və yeni cəmiyyət quruculuğuna istiqamətlənmiş addımlar atmağa başladı. İlk olaraq Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında qurulmaqda olan yeni cəmiyyətdə mətbuatın rolu və funksiyası aydın şəkildə təsbit olundu: "Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və mətbuat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir".

Bundan sonra növbəti addımlar atıldı, hüquqi nihilizmin aradan qaldırılması, köklü siyasi-hüquqi islahatların həyata keçirilməsi istiqamətində ardıcıl iş aparıldı. Ulu öndər mətbuata, jurnalistlərə münasibətdə göstərdiyi şəxsi örnək, nümunə ilə, necə deyərlər, hamıya, xüsusən məmurlara dərs verirdi. Eyni zamanda Heydər Əliyev jurnalistlərə demokratiya dərsi keçir, söz, mətbuat azadlığının mahiyyətini səbirlə başa salır və onları Azərbaycan mətbuatının mütərəqqi ənənələrini qoruyub saxlamağa, inkişaf etdirməyə səsləyirdi.

Əlbəttə, mətbuat və söz azadlığına cəmiyyət və dövlət həyatından ayrılıqda, ələhiddə məsələ kimi baxmaq olmaz. Bu sıraya siyasi sistemin struktur islahatlarının təkmilləşdirilməsi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar edilməsi, təsisatların leqal və legitim fəaliyyətinə şərait yaradılması, dövlətlə vətəndaşların qarşılıqlı məsuliyyətinə əsaslanan yeni münasibətlər sisteminin formalaşdırılması və digər bir çox məsələlər daxildir. Mətbuat və söz azadlığı məhz bu əsaslar üzərində bərqərar olub təşəkkül tapa bilərdi.

Beləliklə, yeni cəmiyyət modelində mətbuatın yeri və rolu getdikcə daha da aydınlaşır, bununla bağlı konkret təsəvvürlər formalaşırdı. Eyni zamanda müvafiq qanunvericilik bazasının yaradılması, hüquqi təsisat və mexanizmlər sisteminin formalaşdırılması mətbuat sahəsində fundamental islahatlara yol açdı...

1998-ci il. Ulu öndərin yenidən siyasi hakimiyyətə qayıdışından ötən beş il ərzində ölkəmizdə vəziyyət büsbütün dəyişmiş, demokratik cəmiyyətlərə xas olan institutların formalaşdırılması və azad siyasi fəaliyyət üçün hər cür şərait yaradılmışdı. Bunu nəzərə alan Heydər Əliyev 1998-ci il avqustun 6-da "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" tarixi fərman imzaladı.

Artıq jurnalistlər, qəzet və jurnallar, digər kütləvi informasiya vasitələri tam azad idilər. Onların nə yazdığına, necə yazdığına heç kim nəzarət etmirdi: buyur, istədiyini yazıb çap etdirə bilərsən. Bəziləri çaşıb qalmışdı: bunun axırı necə olacaq? Hətta Heydər Əliyevin senzuranı ləğv etməkdə, mətbuata qeyri-məhdud səlahiyyətlər verməkdə tələsdiyini deyənlər də vardı. Amma ulu öndərin qətiyyətinə, iradəsinə və heç bir qərarında yanılmadığına bələd olanlar bilirdilər ki, bu, zamanında atılmış addımdır. Hətta müəyyən mənada riskli olsa belə!

Bundan sonra baş verənlərə qısaca nəzər salaq. Təbii ki, senzuranın götürülməsindən sui-istifadə edənlər oldu. Özü də belə hallar tez-tez baş verirdi. Bəzən qəzetlər təhqirlər, böhtan və iftiralar yağdırırdı. Bəzi jurnalistlər ağına-bozuna baxmırdılar. Qəzetlərin məhkəmələrə verilməsi az qala kütləvi xarakter almışdı. Belə şeylər kiçik məmurlardan tutmuş, nazirlərə, komitə sədrlərinə, hətta dövlətin başçısına qədər hamı haqqında yazılırdı. Bu, dövlət məmurlarının bir çoxunu təbdən çıxarır və məsələ məhkəməlik olurdu. O vaxt təkcə Heydər Əliyev özü haqqında yazılanlara reaksiya vermirdi. Üstəlik məmurlara tövsiyə edirdi ki, səbirli olsunlar: görürsünüz, məndən də yazırlar. Amma mən heç kimi məhkəməyə vermirəm.

Bir faktı da qeyd etmək yerinə düşər ki, 1998-ci ildə Azərbaycan MDB məkanında mətbuat üzərindən dövlət nəzarətini götürən ilk respublika idi.

Bir il sonra, 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" qanun qəbul edildi. Bu, KİV-in inkişafını şərtləndirən, dövlət, cəmiyyət və media münasibətlərini tənzimləyən, müvafiq hüquqi bazanı zənginləşdirən mütərəqqi bir qanun idi. Bu sənəd, eyni zamanda, mətbuatın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılmasına rəvac verdi. Dövlət qeydiyyatı ləğv edildi və mətbu nəşrlərin təsis olunması proseduru qeyri-adi dərəcədə sadələşdirildi. Bunun üçün artıq Ədliyyə Nazirliyinə ərizə vermək kifayət edirdi.

Vaxt ötür, jurnalistlər senzurasız yazmağa və yaşamağa öyrəşir, cəmiyyətdə mətbuata qarşı immunitet yaranırdı.

Ulu öndər Heydər Əliyev isə mətbuata təkcə azadlıq verməklə kifayətlənmir, onun qayğısına qalmaq, inkişafına şərait yaratmaq haqqında da düşünürdü. Çox keçmədən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər proqramı" hazırlandı və Prezidentin müvafiq sərəncamı ilə təsdiq olundu. Eyni zamanda mətbuatla bağlı idarəçilik sistemində yeni islahatlar aparıldı. Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi. KİV-in təsis olunmasının, fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə xidmət edən digər addımlar atıldı...

2001-ci il. Azərbaycanda kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, söz, mətbuat və fikir azadlığının təmin edilməsi sahəsində görülən mühüm tədbirlər artıq öz bəhrəsini verməkdə idi. Zəruri qanunvericilik bazası yaradılmış, fikir plüralizminə və dözümlülüyə əsaslanan siyasi, ictimai mühit formalaşdırılmış, yaradılan yüzlərlə qəzet və jurnal, informasiya agentlikləri, müstəqil televiziya və radio kanalları cəmiyyətimizin ayrılmaz tərkib hissəsi kimi siyasi plüralizmin və söz azadlığının nümunəsinə çevrilmişdi. Belə bir vaxtda, 2001-ci il dekabrın 27-də ulu öndər "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzaladı.

Sərəncamda söz və mətbuat azadlığının, azad fikrin və siyasi plüralizmin inkişafının və cəmiyyət həyatının bütün sahələrinə maneəsiz müdaxiləsinin kütləvi informasiya vasitələri ilə ayrı-ayrı dövlət məmurları, vətəndaşlar arasında bəzi spesifik problemlər də meydana çıxardığı vurğulanırdı. Qeyd olunurdu ki, bu, bir tərəfdən, cəmiyyətdə məlumat azadlığı və jurnalist hüquqları ilə vətəndaşların şəxsi hüquq və azadlıqları arasında balansın gözlənilməməsində, digər tərəfdən informasiya azadlığı və tolerantlıq prinsiplərinin bəzi jurnalistlərin peşəkarlıq səviyyəsinin, peşə məsuliyyətinin aşağı olması səbəbindən düzgün istifadə olunmamasında özünü göstərir. Bundan başqa, mətbuat bolluğu ilə cəmiyyətin real ehtiyacı arasındakı fərq, azad bazar münasibətləri şəraitində yaranan rəqabət də bir çox kütləvi informasiya vasitələrini maliyyə problemləri ilə üzləşdirir.

Ulu öndər bütün bunları nəzərə alaraq problemlərin aradan qaldırılması, eyni zamanda kütləvi informasiya vasitələrinin maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, söz, məlumat və fikir azadlığı üçün daha geniş imkanlar yaradılması məqsədi ilə bir sıra tədbirlər görülməsi barədə tapşırıqlar verdi. Sərəncama əsasən, bütün qəzetlərin dövlət mətbəəsində maneəsiz çapı, AzərTAc-ın informasiyalarının respublika mətbuatı üçün pulsuz yayılması təmin olundu. Həmçinin qəzetlərin "Azərbaycan" nəşriyyatına 2001-ci il üçün mövcud borclarının ödənilməsi 2002-ci il dekabrın 31-nə qədər təxirə salındı.

Qanunlar, fərmanlar və sərəncamlar, hüquqi baza və mexanizmlər öz yerində. Cəmiyyət və dövlət həyatının bütün sahələri, hər bir fəaliyyət bunlarla tənzimlənir. Eyni zamanda mətbuata münasibətdən, ölkə mediasının inkişafından danışarkən ulu öndərin özünəməxsus jestlərini, şəxsi təşəbbüslərini nəzərdən qaçırmaq olmazdı. Heydər Əliyevin bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarını dondurmasını, sonradan bu borcları ləğv etməsini, onları iqtisadi böhranın girdabından qurtarmasını necə unutmaq olar? Yaxud, bu böyük şəxsiyyətin jurnalistlərə səmimi münasibətini, hər bir suala açıq olmasını götürək. Belə münasibəti, səmimiyyəti, qayğını özünü hamıdan demokratik sayan hansısa dövlətin başçısında görmüsünüzmü?

Tale mənə bir jurnalist kimi, ulu öndəri səfərlərin əksəriyyətində müşayiət etmək, keçirdiyi görüşləri yaxından izləmək, eyni zamanda bu səfərlər zamanı jurnalistlərlə davranışını müşahidə etmək səadəti nəsib edib. Təbii ki, xarici səfərlərin öz reqlamenti var və bəzən proqram elə sıx və gərgin olur ki, dövlət başçısının hər hansı əlavə söhbətə bir dəqiqə belə vaxtı qalmır. Üstəgəl görüşlərin özünün gərginliyi, saat qurşaqlarındakı kəskin fərq, yorğunluq və yuxusuzluq... Prezidentdən necə ummaq olardı ki, jurnalistlərə vaxt ayırmadı? Amma Heydər Əliyev buna da vaxt tapırdı. Necə deyərlər, iki daşın arasında - yol gedərkən, hətta təyyarədə olsa belə, jurnalistlərə müsahibələr verir, onların istənilən sualını cavablandırırdı.

Ulu öndərin jurnalistlərlə keçirdiyi görüşlərdən birində dediyi sözləri də xatırlatmaq istərdim: "Biz mətbuat haqqında bir neçə ciddi addım atmışıq: söz azadlığının, mətbuat azadlığının təmin olunması, senzuranın aradan qaldırılması, bütün mətbuat orqanlarına sərbəstlik verilməsi. Əgər bu gün hansısa yeni bir şey varsa biz onu edirik və edəcəyik".

Bu görüşdən bir müddət sonra - 2003-cü ilin martında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərinin tənzimlənməsinə xidmət edən yeni qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Şuranın fəaliyyəti tərəflər arasında gərginliyin xeyli səngiməsinə gətirib çıxardı.

Əslində bunlar Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olmasına, bugünkü yüksək səviyyəyə gəlib çatmasına birbaşa təsir göstərən tarixi hadisələrdir, mətbuatın inkişafında ulu öndərin bu gün də xatırlanan və yüksək qiymətləndirilən, sabah da xatırlanacaq misilsiz xidmətləridir.

Nəhayət, elə bir vaxt gəlib yetişdi ki, jurnalistlər Heydər Əliyevi təkcə dövlətin başçısı kimi deyil, eyni zamanda bir dost, onların zəhmətini qiymətləndirən, qayğısına qalan sirdaş kimi qəbul etməyə başladılar. Bu, öz ifadəsini ulu öndərin 2001-ci ildə "Ruh" Jurnalistləri Müdafiə Komitəsinin, 2003-cü ildə isə Çingiz Mustafayev Fondunun "Jurnalistlərin dostu" mükafatlarına layiq görməsində tapdı.

Mətbuatla bu dostluq Heydər Əliyevin təbiətindən, xarakterindən qaynaqlanırdı. Öz sözləridir: "Mən bir dəfə söylədim ki, keçmişdə, Sovet hakimiyyəti dövründə, Sovet İttifaqı Kommunist Partiyasının liderləri içərisində başqalarına nisbətən mətbuatla ən yaxın olan adam mən olmuşam. Ən dost olan adam mən olmuşam. Bu, mənim xarakterimdədir, xasiyyətimdədir. Mən həmişə mətbuatla maraqlanmışam, qəzet-jurnalları oxumuşam, radio-televiziyada verilən məlumatlara həmişə diqqətlə yanaşmışam. Ona görə də jurnalistika sənəti mənə çox yaxın olubdur".

Jurnalistikanın çətin sənət olduğunu söyləyən ulu öndər deyirdi: "Başqa bir yerdə, başqa bir peşə sahibi gəlib öz işində oturub işləyir, müəyyən saat qurtarandan sonra evinə gedir. Amma jurnalistin iş yeri yoxdur. Qəzetin redaksiyası da jurnalistin iş yeri deyildir. Çünki o, redaksiyada otursa, elə ancaq yuxarıya baxsa, bir şey yaza bilməyəcək, fəaliyyət də göstərə bilməyəcək. Demək, jurnalist gərək daim cəmiyyətlə əlaqədə olsun, insanlarla əlaqədə olsun, cəmiyyətin müxtəlif təbəqələri ilə əlaqədə olsun və müxtəlif yerlərlə təmasda olsun ki, istədiyi məlumatları ala bilsin və onların əsasında istədiyi sahədə öz məqalələrini, öz əsərlərini yaza bilsin. Bu, asan iş deyildir. Mən bunu bilirəm və öz fikrimi başqalarına da bildirmək istəyirəm. Ona görə də gərək biz jurnalistlərə kömək edək".

Eyni zamanda, Heydər Əliyev reallıqlardan da xəbərdar idi və bunu açıq söyləyir, çıxış yolu göstərirdi: "Jurnalistlər bəzən ədalətsizliklə, bəzən kobudluqla rastlaşırlar, başqa hallarla, xoşa gəlməyən hallarla rastlaşırlar. Bu, heysiyyatlarına toxunduğuna görə onları incidir və etiraz əlaməti olaraq müxtəlif məqalələr yazırlar və səhvlər də buraxırlar. Ona görə əgər jurnalistlər cəmiyyətlə daha yaxın olsalar, cəmiyyətdə də jurnalistləri sevsələr, onlara hörmət etsələr, onların işlərinin, fəaliyyətlərinin həyata keçirilməsinə yardım etsələr, bundan cəmiyyət də udacaqdır, jurnalistlər də".

Qeydlərimin bundan sonrakı hissəsini Heydər Əliyevin söz, fikir və mətbuat azadlığı ilə bağlı görülən işlərə verdiyi qiymətə, mətbuata baxışlarına, onun yeni cəmiyyətdəki yerinə və roluna dair mülahizələrinə ayırmaq istərdim.

Ulu öndər mətbuatın inkişafı üçün yaradılan şəraiti necə dəyərləndirirdi?

Sitat: "Mən təxminən 5-6 il bundan əvvəlki dövrü xatırlayıram. Senzura var idi, qəzetləri yoxlayırdılar. Hansı məqalə senzorun xoşuna gəlmirdisə, onu çıxarırdı. Qəzetlər də sonra mübarizəyə başladılar, etiraz əlaməti olaraq səhifələri ağ-ağ buraxdılar. Bunlar hamısı bizim xatirimizdədir. Ancaq biz senzuranı ləğv etdik, Konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik, mətbuata geniş imkanlar yaratdıq. Mətbuat Azərbaycanda həqiqətən çox sərbəstdir, çox azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır. Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salsaq, görərik ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır".

Jurnalistləri daim obyektivliyə səsləyən ulu öndər cəmiyyət-mətbuat münasibətlərini belə şərh edirdi.

Sitat: "Biz həmişə arzu edirik ki, jurnalistlər obyektiv olsunlar. Mən düşünmürəm ki, jurnalistlər qəsdən qeyri-obyektivliyə yol verirlər. Ancaq onların sənəti belədir, gərək elə bir şey yazsınlar ki, oxucular üçün maraqlı olsun. Kəskin, sensasiyalı yazılar olmasa, oxucular üçün maraqlı olmur, qəzetlər alınmır və sairə. Siz bunları məndən yaxşı bilirsiniz. Mən bu barədə fikrimi genişləndirmək istəmirəm. Biz bunları nəzərə almalıyıq. Amma jurnalistlər də hücum obyektləri ki var, yaxud kəskin tənqid edirlər, gərək onların vəziyyətini nəzərə alsınlar. Əgər hər iki tərəf bir-birini nəzərə ala bilsə, hesab edirəm ki, bizim cəmiyyətdə jurnalistlərlə bütün insanların dostluğu təmin olunacaqdır".

Ulu öndər mətbuatın və jurnalistlərin vəzifələri barədə nə düşünürdü?

Sitat: "Sizi əmin edirəm ki, biz mətbuat azadlığı, söz azadlığı, demokratiya sahəsində ardıcıl surətdə öz siyasətimizi aparırıq və aparacağıq. Bu işdə, yəni demokratiyanın inkişaf etdirilməsində, söz azadlığı, mətbuat azadlığını Azərbaycanda həqiqətən təmin etmək üçün mətbuat orqanlarının çox böyük imkanları var və sizin üzərinizə çox böyük vəzifələr düşür. Mətbuat, ya müstəqil mətbuat, yaxud da müxalifət mətbuatı, təbiidir ki, cəmiyyətdə olan çatışmazlıqları, nöqsanları, hakimiyyətin fəaliyyətində olan qüsurları tənqid etməklə həm iqtidara, həm də cəmiyyətin bu nöqsanlardan təmizlənməsinə kömək etməlidir. Məsələn, mən bütün mətbuatın, təkcə müstəqil mətbuatın yox, müxalifət mətbuatının yox, dövlət mətbuatının da məhz bu yolla getməsini istəyirəm".

Ulu öndər "Mətbuat cəmiyyətin güzgüsüdür" deyiminə birmənalı dəyər verirdi. Onun peşəkar jurnalistlərdən əsas tələbi də bu idi ki, bu güzgünün təmizliyinə, saflığına xələl gətirilməsin. "Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq vermək, söz azadlığını daha geniş təmin etmək, Azərbaycanda demokratiyanı bütün sahələr üzrə inkişaf etdirməkdən ibarətdir" - deyən Heydər Əliyev açıq sözün, həqiqəti əks etdirən informasiyaların tərəfdarı, mətbuat azadlığının qarantı olduğunu bəyan edir və daim bu mövqedə qətiyyətlə dururdu...

Aradan bir çox illər keçib. Həyatımızda çox şey dəyişib və dəyişməkdə davam edir. Azərbaycan öz inkişafının yeni mərhələsini yaşayır. Heydər Əliyevin zəngin irsi, ideya və ənənələri də yaşayır və Azərbaycana uğur gətirir. Prezident İlham Əliyev də mətbuatın və jurnalistlərin dostudur və o da bu ada iki dəfə layiq görülüb. Fikirləşirəm ki, Prezident İlham Əliyevin "Jurnalistlərin dostu" mükafatının təqdim olunması mərasimindəki nitqindən götürülmüş aşağıdakı sitat qeydlərim üçün uğurlu sonluq ola bilər: "Bu mükafatın verilməsi böyük məna daşıyır. Çünki ölkə Prezidentini "Jurnalistlərin dostu" adına sizin tərəfdən layiq görməyiniz, əlbəttə ki, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur. Mən bundan sonra da çalışacağam ki, Prezident kimi Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verim və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafını təmin edim. Çünki müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın qarşısında isə belə məqsəd qoyulub ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Belə olan halda Azərbaycanda media ilə bağlı məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır".

***Aslan ASLANOV,***
***AzərTAc-ın baş direktoru***











# XOŞMƏRAMLI MİSSİYANIN TƏCƏSSÜMÜ

## Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Nərimanov rayonunun simasını daha da gözəlləşdirib



Müasir Azərbaycan dövlətinin qurucusu olan, həyatını xalqına xidmətə həsr edən ümummilli lider Heydər Əliyevi daim qəlblərdə yaşadan, xatirəsini əbədiləşdirən, bu böyük insanın adının hər zaman dərin ehtiramla anılmasına səbəb olan amillərdən biri humanizm prinsiplərinə söykənən nəcib əməlləridir. Siyasi uzaqgörənliyi, müdrikliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi olan Heydər Əliyev öz xeyirxahlığı, sosial ədalət prinsiplərinə sadiqliyi, milli-mənəvi dəyərləri daim uca tutması, cəmiyyətin tərəqqisi naminə göstərdiyi titanik fəaliyyəti ilə də yaddaşlarda əbədi iz qoyub.

### *Ulu öndərin nəcib əməlləri bu gün də yaşayır*

Ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyimizin əbədiliyinin yolu məhz hər sahədə Heydər Əliyev kursunun davam etdirilməsindən, ulu öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir. 2004-cü ildə bu zərurətdən yaranan Heydər Əliyev Fondu ulu öndərin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ictimai həyatın ən müxtəlif sahələrində fundamental, çoxşaxəli layihələr həyata keçirir, hər bir vətəndaşın zəruri istək və arzularının gerçəkləşməsinə, problemlərinin həllinə həm maddi, həm də mənəvi dəstək verir.

Fondun yaradılması ilə qarşıya qoyulan əsas məqsəd kifayət qədər aydın və konkret idi. Sağlığında Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və qüdrətlənməsi naminə həyata keçirdiyi möhtəşəm tədbirlərlə canlı əfsanəyə çevrilmiş ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması... Bütün bunları əsas götürərək fondun ötən 10 ildə reallaşdırdığı çoxşaxəli layihələr gözlənildiyindən xeyli böyük amalları uğurla gerçəkləşdirdi. Fond bu müddətdə elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafına xidmət edən layihələrin həyata keçirilməsi, milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun təşviqi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində son dərəcə uğurlu nəticələrə imza atıb, dərin ictimai rəğbət qazanıb. Ümummilli liderin nəcib əməllərini layiqincə davam etdirən, milli dövlətçilik ideyalarını



yeni nəsillərə aşılayan, amallarını rəhbər tutan, ümumbəşəri mədəniyyətə, sülhə öz töhfələrini verən Heydər Əliyev Fondu ölkəmizin dünya miqyasında daha geniş spektrdən tanınmasında, qədim və zəngin mədəniyyətə, söz, muğam sənətinə malik xalqımızın milli dəyərlərinin qorunmasında və təbliğində bu gün mühüm rol oynayır.

Heydər Əliyev Fondunu ulu öndərin adına layiq olaraq geniş spektri əhatə edən, hər kəsdə fərəh və qürur hissləri doğuran kəhkəşan fəaliyyətinin əsasında, təbii ki, onun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə, ümumən fondun fəaliyyətinə yaradıcı münasibəti dayanır. Mehriban Əliyevanın özünün də bəyan etdiyi kimi, fondun çoxşaxəli fəaliyyətinin bir əsas məqsədi var: insanlara təmənnasız yaxşılıq etmək! *"Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və bu gün biz Heydər Əliyev Fondu olaraq bu ənənələri qoruyur və davam etdirməyə çalışırıq",* - deyə Mehriban Əliyeva bildirib.

### *Paytaxtın möhtəşəm quruculuq və yüksəliş ünvanı*

Son illərdə ölkəmizin dörd bir yanında geniş vüsət alan məktəb və xəstəxana tikintisində, diaqnostika və müalicə mərkəzlərinin, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün xüsusi tibb müəssisələrinin yaradılmasında, uşaq evlərinin, internat məktəblərinin, uşaq bağçalarının yenidən qurulmasında, tarixi və dini abidələrin bərpasında Heydər Əliyev Fondunun fəaliyyəti misilsizdir. Bütün bunları digər şəhər və kəndlərimiz kimi, Bakının Nərimanov rayonunun timsalında da görmək mümkündür.

Azərbaycanın coşqun inkişafının, sürətli yüksəlişinin, gündən-günə dəyişərək gözəlləşən simasının konkret ünvanlarından biri də hər zaman öz yüksək tərəqqi tempi ilə seçilən Nərimanov rayonudur. Respublikada aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində indiyədək Bakı şəhərinin aparıcı rayonlarından olan Nərimanov rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və hazırda yüksək əzmlə davam etdirilir. Son illərin real mənzərəsi Nərimanov rayonunun əsl tikinti meydanına çevrildiyini göstərir. Burada vüsət alan quruculuq işləri paytaxtda rayonun qüruru olduğu qədər, ölkəmizdən kənarda da Azərbaycanın gözəl tanıtımıdır. Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illərdə Nərimanov rayonunda



mühüm infrastruktur layihələri həyata keçirilib, möhtəşəm binaların tikintisinin təməli qoyulub və uğurla başa çatdırılıb. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, yollar, yolötürücülər və yol qovşaqları, idman qurğuları, piyada keçidləri, parklar, inzibati binalar, bərpa olunan tarixi memarlıq abidələri rayonun simasını tamamilə dəyişib, gözəlləşdirib.

Bakının Nərimanov rayonunun simasını dəyişən, daha da gözəlləşdirən səbəblərdən biri Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada həyata keçirilən sosial infrastruktur layihələridir. Bu mənada Heydər Əliyev Fondunun ölkəmizdə gördüyü nəhəng işlərin bir hissəsi Nərimanov rayonu ilə bağlıdır. Kor və zəif görən uşaqlar üçün respublika internat məktəbinin, onun nəzdində musiqi məktəbinin, 6 saylı uşaq poliklinikasının əsaslı təmiri, Psixonevroloji Uşaq Evinin yenidən qurulması, Zərifə Əliyeva adına uşaq bağçasının, "Ankara məktəbi"nin açılması Mehriban xanım Əliyevanın uşaqlara məhəbbətinin və qayğısının bariz təzahürü olmaqla yanaşı, həm də Heydər Əliyev Fondunun Nərimanov rayonunda keçirdiyi mühüm sosial layihələrdir.

Qeyd edək ki, respublikada analoqu olmayan Psixonevroloji Uşaq Evinin əvvəlki binası müasir tələblərə cavab vermirdi. Təxminən 1000 kvadratmetr sahədən, ikimərtəbəli binadan ibarət olan müəssisədəki şərait uşaqların təlim-tərbiyəsi üçün uyğun deyildi. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu müəssisədəki bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanması, mövcud problemlərin həllinə dair tapşırıqlar verməsi Psixonevroloji Uşaq Evinin yeni, müasir standartlara uyğun bina ilə təmin edilməsinə şərait yaratdı. 2009-cu ildə istifadəyə verilən yeni binada uşaqların müalicəsi, və təlim-tərbiyəsi üçün hər cür şərait var. Psixonevroloji Uşaq Evində epilepsiya, hidrosefal, mikrosefal, uşaq serebral iflici, onurğa beyni şişləri və s. xəstəlikləri olan 7 yaşınadək uşaqlar müalicə olunurlar. Onların müalicəsi və təlim-tərbiyəsi ilə 95 nəfərdən ibarət tibbi, pedaqoji heyət məşğul olur.

"Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində Nərimanov rayonu ərazisində inşa olunub istifadəyə verilmiş Respublika Talassemiya Mərkəzi isə Heydər Əliyev Fondunun ölkə səhiyyəsinə böyük töhfəsidir. 2009-cu ildə istifadəyə verilən mərkəz talassemiya xəstəliyinə düçar olanlar üçün ümid yeridir. Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunmuş və ən müasir avadanlıqlarla təchiz edilmiş mərkəzin istifadəyə verilməsi ilə Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün



könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısını almaqdan ötrü əhalinin maarifləndirilməsi və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə, ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanmasına nail olunmuşdur.

2007-ci ilin dekabr ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 6 nömrəli uşaq poliklinikasının əsaslı təmirdən sonra açılışında iştirak etmişdir. O, poliklinikada uşaqların peyvənd olunması prosesində iştirak etmiş, yenicə peyvənd edilmiş uşaqların valideynlərinə övladları haqqında tibbi məlumatların yükləndiyi elektron sağlamlıq kartlarını və bayram hədiyyələrini təqdim etmişdir.

Nərimanov rayonundakı "Ankara məktəbi" liseyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilmişdir. Təmirdən sonra 1.400 şagirdin təhsil aldığı bu müəssisənin bütün inventarları yeniləri ilə əvəz edilmiş, dəhlizlər və sinif otaqları jalüzlərlə, kimya və fizika fənn kabinələri isə müasir laboratoriya cihazları ilə təmin edilmişdir. 2006-cı ildə Prezident İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bilik günü münasibətilə "Ankara məktəbi"nin açılışında iştirak etmişlər.

### *Fondun dəstəyi ilə Həştərxan vilayətində iri layihələr həyata keçirilir*

Sülhün möhkəmləndirilməsi, humanizmin və şəfqətin təşviq edilməsi mövqeyindən çıxış edən, habelə humanitar və sosialyönümlü tədbir və layihələrin təşəbbüskarı, eləcə də təşkilatçısı olan Heydər Əliyev Fondunun dəstəyi və himayəsiylə Nərimanov rayonu ilə qardaşlaşmış Rusiya Federasiyasının Həştərxan vilayətində də bir sıra iri layihələr həyata keçirilmişdir.

Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nərimanov rayonu ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında xeyli müddətdir iqtisadi-siyasi və mədəni sahədə sıx dostluq və əməkdaşlıq əlaqələri mövcuddur. Bu əlaqələr gündən-günə inkişaf edir və möhkəmlənir. Nərimanov rayonu tərəfindən bu əməkdaşlığın inkişaf etdirilməsi sahəsində xeyli işlər görülüb. 2010-cu ildən başlayaraq bu istiqamətdə bir sıra mühüm layihələr həyata keçirilib.

Həştərxan vilayətinin mərkəzində yerləşən 3,5 hektar ərazisi olan parkda nümunəvi abadlıq işləri aparılaraq ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi ucaldılıb, Bakı küçəsində yerləşən 11 nömrəli orta məktəbə ulu öndər Heydər Əliyevin adı verilib, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə həmin məktəbin əsas korpusu genişmiqyaslı rekonstruksiya olunub, müasir standartlara uyğun iki yeni korpus inşa



edilib və şagirdlərin təhsilinin lazımi səviyyədə təşkil edilməsi üçün bütün şərait yaradılıb, mebel və texniki avadanlıqla təchiz edilib.

Həyata keçirilən layihələrin davamı olaraq, 2012-ci il sentyabrın 12-də Həştərxan şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Azərbaycan və Rusiya Dostluq körpüsünün və Heydər Əliyev parkında yaradılmış "Arzu" uşaq əyləncə şəhərciyinin açılışı, həmçinin Heydər Əliyev Fondunun növbəti layihələrindən biri - Müqəddəs Knyaz Vladimir məbədi önündə Knyaz Vladimirin abidəsinin təməlqoyma mərasimi keçirilib.

Qarşılıqlı əməkdaşlığın bariz nümunəsi kimi 2012-ci il dekabrın 19-da Nərimanov rayonunun ərazisində yeni salınmış parkda Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətinin iştirakı ilə "Bakı və Həştərxan dostluğu" abidəsinin təməlqoyma mərasimi keçirilib.

Ötən il dekabrın 20-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın iştirakı ilə Müqəddəs Vladimir məbədinin önündəki meydanda Knyaz Vladimirin abidəsinin və onun yerləşdiyi ərazidə salınmış parkın təntənəli açılış mərasimi keçirilib. Bundan başqa, həmin gün Heydər Əliyev Fondunun təşəbbüsü ilə Rusiyanın Həştərxan şəhərində tikilmiş "Meçta" uşaq kafesinin açılışı olub, həmçinin Həştərxan şəhərinin "Bakinskaya" küçəsində Heydər Əliyev Fondunun dəstəyi ilə tikiləcək yeni uşaq bağçasının təməli qoyulub.

### *Nərimanov sakinlərinin qürur yeri*

Özünün füsunkar gözəlliyi ilə dünyadakı möhtəşəm memarlıq əsərləri ilə bir sırada dayanan Heydər Əliyev Mərkəzi isə bütün Nərimanov sakinlərinin fəxr yeridir. Çünki Azərbaycan dövlətinin qurucusu və memarı, Heydər Əliyevin adının əbədiləşdirilməsinə və ideyalarının reallığa çevrilməsinə ən böyük töhfə olan mərkəz 2012-ci ildə fəaliyyətə başladıqdan sonra Nərimanov rayonu həm də beynəlxalq tədbirlər məkanına çevrilib. Digər tərəfdən, mərkəzin ətrafında salınan park sakinlərin sevimli istirahət yeridir.

Qafqazda analoqu olmayan, Azərbaycanın yeni simvoluna çevrilən, nadir memarlıq abidəsi olan Heydər Əliyev Mərkəzinin açılış mərasimində respublika Prezidenti İlham Əliyev, respublikanın birinci xanımı Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, respublikanın rəsmi dövlət və hökumət nümayəndələri iştirak etmişlər. Açılış günündə burada ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev



Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə təntənəli mərasim keçirilib.

Hazırda mərkəz ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, ulu öndərin irsinin tədqiqi və təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi, Azərbaycan tarixi və mədəniyyətinin, milli-mənəvi sərvətlərimizin beynəlxalq aləmdə tanıdılması və təbliği, eləcə də dünya mədəniyyətinin, müxtəlif sivilizasiya nümunələrinin ölkəmizdə tanıdılması, yerli, regional və beynəlxalq konfrans, simpozium və digər tədbirlərin keçirilməsi istiqamətində fəaliyyət göstərir. Heydər Əliyev Mərkəzi həmçinin digər ölkələrin analoji qurumları, araşdırma mərkəzləri ilə elm, təhsil, mədəniyyət, iqtisadiyyat, idman, ekologiya kimi müxtəlif sahələrdə birgə layihələr həyata keçirir.

İstifadəyə verildiyi vaxtdan Heydər Əliyev Mərkəzində beynəlxalq və respublika səviyyəli tədbirlər də keçirilir. Krans Montana Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, İqtisadi Əməkdaşlıq Təşkilatının XII zirvə toplantısı, ulu öndər Heydər Əliyevin 90 illik yubileyi, dünyanın məşhur sənət adamlarının sərgiləri, konsert proqramları, təqdimatlar və digər mötəbər tədbirlər məhz Heydər Əliyev Mərkəzində keçirilib.

Azərbaycanın sürətli və dinamik inkişafı Nərimanov rayonuna təsirsiz ötüşməyib. Paytaxtın bu hissəsi indi hər bir sahədə özünün modern yüksəlişi ilə diqqəti cəlb edir. Bu yüksəlişdə ölkə Prezidentinin fəaliyyətinə böyük dəstək verən Heydər Əliyev Fondunun müstəsna xidmətləri var. Fondun təşəbbüsü ilə həyata keçirilən hər bir layihə, hər bir tədbir rayon ictimaiyyətinin ürəyincədir. Hər bir rayon sakini bu diqqətə görə Mehriban xanım Əliyevaya minnətdardır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Ədliyyə orqanlarında ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə tədbirlər keçirilmişdir





Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ədliyyə orqanlarında geniş qeyd edilir.

Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan dahi Heydər Əliyevin xalqımızın müstəqillik arzusunun və milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində, müasir müstəqil dövlətimizin qurulması və hərtərəfli tərəqqisində, demokratik, hüquqi dövlət quruculuğunun, mütərəqqi hüquqi islahatların uğurla həyata keçirilməsində, o cümlədən ədliyyə və məhkəmə-hüquq sisteminin formalaşması və inkişafında misilsiz xidmətləri və rolu danılmazdır.

Mayın 7-də Ədliyyə Nazirliyindəki Heydər Əliyev Muzeyində nazir Fikrət Məmmədovun, kollektivin, gənc ədliyyə işçilərinin iştirakı ilə ulu öndərin doğum gününə həsr olunmuş mərasim keçirilmişdir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, əvvəlcə dahi şəxsiyyət Heydər Əliyevin nazirliyin binasındakı büstü önünə tər çiçəklər qoyulmuş, ulu öndərin əziz xatirəsi anılmışdır.

Mərasimdə ümummilli liderin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik irsindən və xalqımız qarşısında misilsiz xidmətlərindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsindən danışılmışdır.

Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi çətin vaxtlarda dahi şəxsiyyətin misilsiz fəaliyyətinin bilavasitə şahidi olmuş Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyev ilə bağlı zəngin təəssüratlarını və xatirələrini bölüşmüşdür. O, dahi öndərin çətin tarixi şəraitdə xilaskarlıq missiyasından bəhs etmiş, titanik siyasi fəaliyyəti sayəsində ölkəmizi hərtərəfli intibah yoluna çıxararaq ümummilli lider zirvəsinə yüksəldiyini vurğulamış, işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını söyləmişdir.

Nazir Fikrət Məmmədov ulu öndər Heydər Əliyevin dövlətimizin müstəqilliyi yolunda müdrik və qətiyyətli addımlar atmasından, vətəninə və millətinə sonsuz xidmətləri ilə doğma xalqının qəlbini fəth etməsindən bəhs etmişdir. Ədliyyə naziri Azərbaycanın özü qədər əbədi olan bu fenomenal şəxsiyyətin şərəfli ömrünün və siyasi irsinin indiki və gələcək nəsillərə nümunə olduğunu bildirmişdir.

Tədbirdə Heydər Əliyev siyasi kursunu uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən irimiqyaslı işlər və əldə olunan möhtəşəm nailiyyətlər xüsusi vurğulanmış, dahi öndərin irsinin ürəklərə yol tapmasında Heydər Əliyev Fondunun çoxşaxəli nəcib və xeyirxah fəaliyyəti qeyd edilmişdir.

Ədliyyə işçiləri dahi rəhbərin milli dövlətçilik prinsiplərinə daim sadiq qalaraq, müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsi naminə yorulmaz fəaliyyətində Prezident İlham Əliyevə layiqli yardımçı olacaqlarını söyləmişlər.

Tədbir iştirakçıları ulu öndərin doğum günü ilə əlaqədar Heydər Əliyev Muzeyində əbədiyaşar liderin zəngin həyatından, titanik fəaliyyətindən bəhs edən maraqlı ekspozisiyalarla tanış olmuşlar. Nazirlikdə xüsusi stend hazırlanmış, kinozalda ümummilli liderə həsr olunmuş sənədli filmlər nümayiş etdirilmişdir.

Əlamətdar gün münasibətilə nazirliyin struktur qurumlarında silsilə tədbir keçirilmişdir.

# Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin növbəti iclası keçirilmişdir

Mayın 7-də Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin növbəti iclası keçirilmişdir.

AzərTAc xəbər verir ki, tədbiri Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik Akif Əlizadə açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış etmişdir.

Akademik əvvəlcə AMEA-nın Aşqarlar Kimyası İnstitutunun innovativ nailiyyətlərindən söz açmışdır.

Bununla bağlı institutun direktoru akademik Vaqif Fərzəliyevin məruzəsi dinlənilmişdir. Qeyd olunmuşdur ki, institut tərəfindən müasir və perspektiv tələblərə cavab verən aşqarların yaradılması, onların əsasında yüksək keyfiyyətli, xüsusi təyinatlı sürtkü və yanacaq kompozisiyaları və digər xüsusi mayelərin işlənib hazırlanması sahəsində araşdırmalar aparılır. Elmi nəticələr istehsalatın neftçıxarma, neft-kimya, neft emalı sənayesi, maşınqayırma və metal emalı sahələri ilə əlaqədardır.

Müzakirələrdən sonra məruzə rəyasət heyətinin qərarı ilə bəyənilmiş, elmi-tədqiqat işlərini "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun aparmaq və innovativ texnologiyaların tətbiqi istiqamətində lazımi işlər həyata keçirmək tövsiyə olunmuşdur.

İclasda həmçinin bildirilmişdir ki, AMEA-nın Birləşmiş Veteranlar Şurası akademiyanın 70 illik yubileyi ərəfəsində bir sıra tədbirlər həyata keçirəcəkdir.

AMEA-nın prezidenti akademik Akif Əlizadə 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununu xatırlatmış, şuranın bu sənəddən irəli gələn vəzifələri yerinə yetirərək öz fəaliyyətini əhəmiyyətli dərəcədə gücləndirdiyini vurğulamışdır. 2015-ci il aprelin 17-də Bakıda "Böyük Vətən müharibəsinin qələbəsində SSRİ alimlərinin rolu" mövzusunda beynəlxalq konfransın keçirilməsi AMEA-ya və Respublika Veteranlar Şurasına həvalə edilmişdir.

# AMEA-nın Tarix İnstitutunda "Dahi azərbaycanlı" sənədli filmi nümayiş etdirilmişdir



Mayın 7-də Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə dahi şəxsiyyətin xatirəsini anma mərasimi keçirilmişdir.

Tədbiri Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov açaraq ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərindən və bu elmi müəssisədə ulu öndərin irsinin araşdırılması istiqamətində həyata keçirilmiş işlərdən söhbət açmışdır.

Y.Mahmudov görkəmli dövlət xadimi Heydər Əliyevin akademiyada tarixçilərlə görüşlərində həmişə xalqımızın son 200 ildəki tarixinin yenidən araşdırılmasını tövsiyə etdiyini bildirmişdir. Vurğulamışdır ki, qeyd olunan bu dövrün yenidən mükəmməl və hərtərəfli şəkildə tədqiq edilməsində ulu öndərin misilsiz xidmətləri olmuşdur.

Qeyd edilmişdir ki, Tarix İnstitutu həmişə ulu öndərin irsinin araşdırılmasına xüsusi diqqət yetirmişdir. Bu məqsədlə 2011-ci ildə bu elmi müəssisədə Əliyevşünaslıq şöbəsi yaradılmışdır. Bu müddət ərzində institutda ümummilli liderin çoxşaxəli ömür yolu, siyasi fəaliyyətinin müxtəlif aspektləri, 1969-2003-cü illərdəki daxili və xarici siyasəti araşdırılmış, bu mövzuda müxtəlif elmi əsərlər yazılaraq nəşr olunmuşdur.

Bildirilmişdir ki, ulu öndərin zəngin həyat və fəaliyyəti, dövlət və ordu quruculuğu, milli mənəvi və ümumbəşəri dəyərləri, xarici siyasətinin müxtəlif aspektləri, milli dövlətçiliyimizin qorunub saxlanılması yolunda yorulmaz mübarizəsini əks etdirən "Heydər Əliyev" (iki cilddə, Bakı, 2013) fundamental monoqrafiyası çap olunmuşdur. Bununla yanaşı, institutumuz tərəfindən ikicildlik "Heydər Əliyev. Azərbaycan elminin keşiyində" sənədlər və materiallar toplusu da nəşr etdirilmişdir. Gənc tədqiqatçılarımız görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin ictimai-siyasi fəaliyyəti ilə bağlı dissertasiya mövzuları yazmış və uğurla müdafiə etmişlər. Bugünkü tədbir çərçivəsində də institutun gənc tədqiqatçılarının ümummilli lider Heydər Əliyevə həsr olunmuş dissertasiya işlərinin müdafiəsi olacaqdır.

Sonra tədbirdə ulu öndər Heydər Əliyevin ömür yoluna həsr olunmuş "Dahi azərbaycanlı" sənədli filmi nümayiş etdirilmişdir.

Filmin ssenari müəllifi və təqdimatçısı AMEA-nın müxbir üzvü Yaqub Mahmudovdur. "Dahi azərbaycanlı" sənədli filminə ümummilli liderin zəngin ömür yolunu əks etdirən yeni materiallar, xüsusilə də ulu öndər Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrü və gənclik illərini əks etdirən maraqlı faktlar daxil edilmişdir.

Daha sonra *"Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (müstəqillik dövrü)"* adlı dissertasiyanın müdafiəsi keçirildi. AMEA-nın müxbir üzvü Yaqub Mahmudovun elmi rəhbəri olduğu dissertasiyada ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixi ilə bağlı elmi-nəzəri məsələləri kompleks şəkildə təhlil və tədqiq edilmişdir. Tədbirdə Tarix İnstitutu tərəfindən hazırlanmış, ümummilli liderin zəngin və çoxşaxəli fəaliyyətindən bəhs edən kitablar nümayiş etdirilmişdir.

***"Azərbaycan"***

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "İnteraktiv texnologiyalar və müasir təhsil - 2014" mövzusunda elmi-praktik konfrans keçirilmişdir

Mayın 7-də "Hyatt Regency" mehmanxanasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş "İnteraktiv texnologiyalar və müasir təhsil - 2014" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Həmçinin konfrans çərçivəsində təşkil olunmuş "Təhsildə interaktiv texnologiyalar - 2014" müsabiqəsinin qalibləri mükafatlandırılmışlar.

Başlıca məqsədi interaktiv lövhələrdən istifadə etməklə yeni təlim texnologiyaları ilə işləyən təşəbbüskar müəllimlərin təcrübəsinin öyrənilib yayılması və bütövlükdə pedaqoji kadrların peşəkarlığının yüksəldilməsindən ibarət olan müsabiqə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu və "DYMO/Mimio" (ABŞ) şirkətinin ölkəmizdəki nümayəndəliyi - "Smart Technologies" şirkəti tərəfindən keçirilmişdir.



Məktəb direktorlarının, təhsil işçilərinin, müəllimlərin, mütəxəssislərin, Rusiya və Türkiyədən olan nümayəndələrin iştirak etdikləri konfransda Təhsil Problemləri İnstitutunun direktoru Qulu Novruzov müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əvəzsiz tarixi xidmətlərindən danışmışdır.

Dahi rəhbər Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini vurğulayan Q.Novruzov ulu öndərin siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir.

Təhsil Problemləri İnstitutunun direktoru Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təhsilin inkişafında mühüm rolunu vurğulamışdır.

Q.Novruzov Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təhsil üzrə həyata keçirilən layihələrin, tədbirlərin əhəmiyyətini xatırlatmışdır.

Müasir dünyada təhsilin önəmli rolunu qeyd edən Təhsil Problemləri İnstitutunun direktoru bu sahənin inkişafı ilə bağlı fikirlərini diqqətə çatdırmış, rəhbərlik etdiyi təhsil müəssisəsinin fəaliyyəti barədə məlumat vermişdir.

Eyni zamanda qeyd olunmuşdur ki, müsabiqədə respublikanın şəhər və rayonlarından olan 315 nəfər müəllim 17 fənn üzrə 308 işlə iştirak etmişdir. Həmin işlərdən 12-si (müxtəlif fənlər üzrə) finala vəsiqə qazanmışdır.

Digər çıxış edən müəllim və mütəxəssislər də təhsillə bağlı fikirlərini bölüşmüş, müsabiqənin əhəmiyyətindən danışmışlar.

Konfransda mövzu ilə bağlı müzakirələr aparılmış, "Təhsildə interaktiv texnologiyalar-2014" müsabiqəsində finala vəsiqə qazanmış işlərin təqdimatı olmuşdur.

Sonra müsabiqənin qaliblərinə mükafatlar təqdim edilmişdir.

***AzərTAc***

# Avropa Şurası Nazirlər Komitəsinə sədrlik dövründə Azərbaycan insan hüquqları, qanunun aliliyi və demokratiyaya güclü dəstək verəcəkdir

Xəbər verdiyimiz kimi, mayın 6-da Vyana şəhərində Avropa Şurası Nazirlər Komitəsinin 124-cü sessiyası keçirilmişdir. Sessiyada Avropa Şurası Nazirlər Komitəsinə sədrlik Azərbaycana keçmişdir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, sədrliyi qəbul edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sessiyada çıxış edərək ölkəmizin sədrlik dövrü üçün prioritet istiqamətlərini açıqlamışdır.

Nazir bildirmişdir ki, növbəti altı ay müddətində Azərbaycan Avropa Şurasının üç əsas sütunu - insan hüquqları, qanunun aliliyi və demokratiyaya güclü dəstək verəcək və bu istiqamətdə səylərini əsirgəməyəcəkdir. Bu müddət ərzində Avropa Şurasının əsas dəyərlərinin dəstəklənməsi və təşviqi bizim bütün fəaliyyət və öhdəliklərimizin mərkəzində duracaqdır.

Elmar Məmmədyarov demişdir: "Üzv dövlətlərdən təcili və qəti cavab əldə etməyi təmin etmək üçün Avropada demokratiya, təhlükəsizlik və sabitlik sahəsindəki mövcud problemlərə ciddi diqqət ayıracağıq. Bu məqsədlə Azərbaycan sədrlik müddətində gücləndirilmiş dialoq, qarşılıqlı hörmət və anlaşma yolu ilə kompromis ruhunda razılaşdırılmış qərarlar əldə etməyə çalışacaqdır".

Bildirilmişdir ki, korrupsiya ilə mübarizədə güclü əməkdaşlıq Azərbaycanın sədrliyinin əsas prioritetlərindən biri olacaqdır. "Biz Beynəlxalq Antikorrupsiya Akademiyası ilə birgə Bakıda yüksək səviyyəli konfrans keçirməklə korrupsiya ilə mübarizəni özünün əsas məqsədi elan etmiş Avropa Şurasının səylərinə töhfəmizi verəcəyik. Bu konfrans antikorrupsiya qanunlarının tətbiqinə böyük əhəmiyyət verərək və ehtiyat tədbirlərini təmin edərək ən yaxşı təcrübələr üzrə fikir mübadilələrinə imkan yaradacaqdır".

Elmar Məmmədyarov bildirmişdir ki, Azərbaycanın sədrliyi dövründə idman yarışlarının idarə edilməsi üzrə Avropa Şurası Konvensiyasının mümkün qəbuluna yaxından nəzarət olunacaq və biz tezliklə imzalanması üçün bu konvensiyanın hazır olmasına dəstəyimizi gücləndirəcəyik. Bildiyiniz kimi, Bakı 2015-ci ildə ilk dəfə olaraq Avropa Oyunlarına ev sahibliyi edəcək və bu da sədrlik müddətində bu konvensiyanın qəbuluna yardım etməyimizin digər əsas səbəbidir.

Vurğulanmışdır ki, mütəmadi qaydada inkişaf edən cəmiyyətlərdə mədəni fərqliliklərin idarə edilməsi bu gün Avropada əsas məsələlərdən birinə çevrilmişdir. Azərbaycan tarixən müxtəlif dinlərin nümayəndələrinin sülh şəraitində birgə yaşadığı məkan olmuşdur. Mədəni fərqliliklərə yardım məsələsi hər zaman gündəlikdəki əsas məsələlərdən olmuşdur. Sədrlik zamanı Azərbaycan mədəniyyətlərarası dialoqa böyük əhəmiyyət verərək Avropada diskriminasiya və dözümsüzlüklə mübarizəyə yardım edəcəkdir. Mədəniyyətlərarası dialoqun dini ölçüləri haqqında Avropa Şurasının 2014-cü il illik iclasını təşkil etmək şərəfinə nail olacağıq. Bu iclasın mədəni fərqliliklərə malik cəmiyyətlərin qarşılıqlı hörmət və anlaşma əsasında həmrəyliyin vaciblik və qiymətini yenidən qeyd edəcəyinə ümidvarıq.

Nazir bildirmişdir ki, Azərbaycan sosial həmrəylik və sosial davamlılığı istənilən sarsılmaz və çiçəklənən cəmiyyətin vacib elementi hesab edir. Bizim bu istiqamətdə səylərimiz Avropa Şurasının zəif müdafiə olunan qruplara xüsusi diqqət ayıraraq heç bir ayrı-seçkilik olmadan hamının sosial hüquqlardan istifadə etmək imkanının təmininə yardım etməyə yönəlmişdir. Ermənistanın işğalçılıq siyasəti səbəbindən genişmiqyaslı köçkünlük təcrübəsi olan Azərbaycan, heç şübhəsiz, sədrliyin müvafiq, fəaliyyətləri çərçivəsində cəmiyyətin müdafiəsiz üzvləri olan köçkünlərin hüquqlarının müdafiəsinə güclü diqqət ayıracaqdır. Əminik ki, XXI əsrin Avropasında milyonlarla insanın hələ də bu hadisədən əziyyət çəkməsi ilə əlaqədar olaraq bu məsələyə gələcəkdə Avropa Şurası çərçivəsində daim diqqət ayrılmalıdır.

E.Məmmədyarov demişdir: "Bizim işimiz, eyni zamanda, çiçəklənən və sarsılmaz cəmiyyətlərin iki əsas ayrılmaz elementi olan gənclik və təhsil üzərində də cəmləşib. Biz təhsilli və məsuliyyətli gənclər nəslinin tərbiyəsinə xüsusi əhəmiyyət verəcəyik ki, bu da gənclərin öz hüquqlarından geniş istifadə imkanının təmin edilməsindən keçir. Bakı bu prioritet fəaliyyət xətti çərçivəsində Avropa ali təhsil sahəsinin həyata keçirilməsi üzrə 4-cü regional nazirlər iclası və Gənclər Siyasəti üzrə BMT-nin Qlobal Forumu kimi iki əhəmiyyətli tədbirə ev sahibliyi edəcəkdir. BMT-nin Forumu Avropa Şurasının güclü institusional dəstəyindən faydalanacaqdır".

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri bildirmişdir ki, konvensiya sisteminin səmərəliliyinin artırılması Avropa Şurasının əsas prioritetlərindən biri olaraq qalır. Azərbaycan İnterlaken, İzmir və Braytonda imzalanmış bəyannamələrin yerinə yetirilməsinə dəstək göstərərək Avropa Şurasının bu istiqamətdə olan səylərinə öz töhfəsini verəcəkdir. Konvensiyanın milli səviyyədə həyata keçirilməsinə böyük diqqət göstəriləcəkdir. Bununla bağlı Bakıda konvensiyanın ölkədə həyata keçirilməsində yerli hakimlərin rolu barədə yüksək səviyyəli konfrans təşkil olunacaqdır.

Qeyd olunmuşdur ki, Avropa Şurası baş katibinin təşəbbüsü ilə ciddi siyasi islahatların həyata keçirilməsi hədəfi qarşıya qoyulmuş və bu, sədrliyimiz müddətində bizim tərəfimizdən yekdilliklə və güclü şəkildə dəstəklənəcəkdir. Azərbaycan həmçinin Avropa İttifaqı, ATƏT və BMT kimi digər beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da möhkəmləndirilməsinə dəstək göstərəcəkdir.

Nazir diqqətə çatdırmışdır ki, Azərbaycan Avropa Şurasının qonşu regionlarla bağlı siyasətinin gedişatını yaxından izləməkdədir. 2011-ci ildə İstanbulda başlanılan bu siyasət nəticəsində siyasi dialoqun gücləndirilməsi və əməkdaşlıq prioritetləri ilə bağlı razılıqlar vasitəsilə qonşu regionlardakı bir çox ölkələr ilə münasibətlərin dərinləşməsi istiqamətində ciddi uğurlar əldə edilmişdir. Qitələrin kəsişməsində yerləşən bir ölkə olan Azərbaycan bu ölkələrlə tarixi köklərə dayanan güclü ikitərəfli əlaqələrə malikdir və bu səbəbdən bu siyasətin təkmilləşməsinə böyük diqqət göstərməkdə davam edəcəkdir.

Azərbaycan sədrliyi zamanı 2014-cü ilin sentyabrında Bakıda Avropa Şurasının qonşuluq siyasətinə həsr olunmuş yüksək səviyyəli nazirlər konfransı keçirərək Avropa Şurasının səylərini dəstəkləmək niyyətindədir. Bu konfrans Nazirlər Komitəsində son zamanlarda müzakirə mövzusu olmuş qonşuluqdakı bəzi ölkələrlə daha institusional münasibətlərin yaradılması imkanlarını nəzərə alaraq Avropa Şurasının mümkün uzunmüddətli fəaliyyətinin istiqamətlərinin müzakirəsi üçün dəyərli forum rolunu oynaya bilər. Həmçinin bu tədbir mədəniyyətlərarası dialoqla bağlı fəaliyyətlərin qonşuluq siyasətinin ümumi məqsədlərinə əlavə dəyər gətirib-gətirmədiyini müəyyənləşdirməyə imkan yaradacaqdır.

E.Məmmədyarov demişdir ki, sədrliyimiz zamanı fəaliyyətimizin davamlılığını və əlaqəliliyini təmin etmək məqsədi ilə prioritetlərimizi əlaqələndirilmiş şəkildə inkişaf etdirərək bizdən sonra sədrliyi davam etdirəcək Belçika və Bosniya və Herseqovina ilə daimi, yaxın əlaqələr yaradılacaqdır.

Azərbaycan bu olduqca əhəmiyyətli müddət ərzində sədrliyin rahat və səmərəli davamı üçün baş katiblik, Parlament Assambleyası, Yerli və Regional Hakimiyyət Orqanları Konqresi və digər qurumlarla yaxından əməkdaşlıq edəcəkdir.

Nazir demişdir: "Ortaq hədəf və məqsədlərimizə çatmaqda maksimum açıqlıq və istək göstərməyə çalışacaq və bu həyati əhəmiyyətli tapşırığın öhdəsindən gəlmək üçün güclü dəstəyinizə arxalanacağıq. Qarşıdakı 6 aylıq müddətdə ölkəmizdə 18 tədbir keçiriləcəkdir. Sizi və dəyərli həmkarlarınızı bu müddət ərzində ölkəmizə səfərə dəvət edirik".



# ŞUŞANIN İŞĞALINDAN 22 İL ÖTÜR





# Sevgili gözəl Şuşam, dərdim, kədərim Şuşam

Ağabəyim ağa Şuşa, Qarabağ həsrətilə yaşayırdı. Deyilənə görə, o, dünyasını dəyişəndə Qarabağda dəfn olunmasını vəsiyyət etmişdi. Qum şəhərindəki məzarlıqda dəfn olunan Ağabəyim ağanın cənazəsinin qalığını dayısı qızı Natəvanın uyuduğu imarətə köçürülməsi ölkədə böyük rəğbətlə qarşılanır.

Mirzə Xosrov müəllim şairə Natəvan barədə böyük məhəbbətlə danışırdı. O, dəfələrlə Natəvanı görmüş və onun dəfnində iştirak etmişdi.

Mirzə Xosrov müəllim deyərdi:

- Natəvan xanım-xatın qadın idi. Evdə təhsil alsa da, öz səcərəsinə uyğun davranırdı.

Bəzi mənbələrdə göstərilir ki, Natəvan 15 yaşında knyaz Xasay Usmiyevə ərə getmişdir. Bu versiya həqiqətə uyğun deyildir.

Keçən əsrin 50-ci illərində yaşlı şuşalılar xatırlayırdılar. Xurşudbanu anası Bədircahan bəyimlə birlikdə ata torpaqlarının müsadirə edilməsi ilə əlaqədar Qafqaz canişini M.S.Vorontsovun yanına - Tiflisə getmişdi. O, burada knyaz Xasay Usmiyevlə tanış olmuşdur. Bir çox mənbələrdə göstərildiyi kimi, Natəvanın 15 yaşında knyaza ərə getməsi fikri düz deyildir. O, ərə gedərkən 18-20 yaşlarında yetkin bir qız idi.

Natəvan qızların erkən ərə verilməsinin əleyhinə idi. Danışırdılar ki, Zarıslı kəndində 10 yaşlı bir qızı atası yaşda kişiyə ərə vermişdilər. Natəvan bu hadisəni rəncidə qarşılamış və qızın valideynlərini yanına çağıraraq məzəmmət etmişdi.

Bu bir həqiqətdir ki, şuşalılar, ümumiyyətlə qarabağlılar xan qızının knyaz Xasay Usmiyevə ərə getməsini normal qəbul etmir və ona, anası Bədircahan bəyimə soyuq münasibət bəsləyirdilər. Onlar bunu yaxşı duyur və yaxşı hiss edirdilər.

Knyaz ləyaqətli bir şəxs olsa da, Şuşada hamı onu ləzgi millətindən olan bir şəxs kimi tanıyırdı. Natəvan isə knyaz Xasay Usmiyevi çox sevirdi və rəsmi olaraq Usmiyeva soyadını qəbul etmişdi.

Natəvanın yaxın qohumları bu izdivaca düşmən münasibəti bəsləyirdilər. Məşhur şair Qasım bəy Zakir və onun nəvəsi şair Abdulla Asi Qarabağİ Natəvana həcv yazmışdılar. Qasım bəy Zakirin və onun nəvəsi Abdulla Asinin bu hərəkətləri M.F.Axundova və S.Ə.Şirvaniyə xoş gəlməmiş və onlar Qasım bəy Zakirə məktub yazaraq Natəvandan əl çəkmələrini məsləhət görmüşdülər.

Xan qızı knyaz Xasay Usmiyevlə ailə qurduqdan sonra onların övladları gec olmuşdur. 1858-ci ildə Natəvan anası və Xasayla birlikdə Bibiheybət məscidinə gəlmiş və məscidə övladlarının olması üçün nəzir qoymuşlar.

Xan qızı məscidi ziyarət edərkən niyyət etmişdir: “Allah mənə övlad versə, məscidin ətrafındakı yollara daş döşətdirəcəyəm”.

Elə olur ki, bir ildən sonra onların oğul övladları dünyaya gəlir və onun adını Mehdiqulu qoyurlar. Natəvan niyyətini həyata keçirir və məscidin ətrafındakı yollara daş döşətdirir.

Bakıda olarkən xan qızı böyük Fransa yazıçısı Aleksandr Düma ilə tanış olur.

Qarabağlıların və xüsusilə şuşalıların knyaz Usmiyevə münasibətləri çox soyuq və gərgin olmuşdur. Hamı ona “kor Xasay” deyirdi. Bu ləqəb knyaz Xasayın sağ gözündə ağ pərdənin olması ilə əlaqədar olmuşdur.

Həm Natəvan, həm də knyaz Xasay bu səbəblərə görə şuşalıların toy və yas mərasimlərində təsadüfi hallarda iştirak edirdilər.

33 yaşında vəfat etmiş, o vaxtlar məşhur şair kimi tanınan Qasım bəy Zakirin nəvəsi Abdulla bəy Asi Qarabağİ öz yaxın qohumu Natəvanın o vaxtlar ləzgi kimi qələmə verilən knyaz Usmiyevə ərə getməsini heç cür həzm edə bilmirdi.

Hər addımbaşı knyaza söz atır və onu təhqir edirdi. Xasiyyətcə çılğın bir adam olan knyaz isə belə təhqirlərə mərdliklə dözürdü.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, şuşalılar şairliyə lazım olan hər şeyi əxz etmiş Abdulla bəy Asini və Məşədi Əyyub Bakini çox sevirdilər. Onların hər ikisi gözəl qəzəllər yazırdı.

Mir Möhsün Nəvvabın təzkirəsində qeyd edilir ki, 1841-ci ildə doğulan və 1874-cü ildə vəfat edən Abdulla bəy Asi Qarabağİ şux və incə zövqlü bir cavan idi. Farsca da savadı var idi. 1.400 şeir yazmışdı. O, tez-tez Nəvvabın yanına gedər və ondan məsləhət alardı. Asinin bacısı oğlu, maarifpərvər Məşədi Səməd bəy onun vəfatı ilə əlaqədar şeir də yazmışdı.

Şair Məşədi Əyyub Baki də cavankən rəhmətə getmiş, 25 yaşında dünyasını dəyişmişdi. Mir Möhsün Nəvvab Məşədi Əyyub Baki haqqında yazırdı: “O, zəif bədənli, xoşsurət, saf əhvallı, şən, zarafatcıl, xoşsöhbət bir cavandır. Bütün söz, söhbəti zarafatla doludur, azyaşlı olmasına baxmayaraq, ardıcıl, xoş nitqi, çətin və duzlu şeirləri və müxtəlif qəzəlləri var”.

Məşədi Əyyub Baki ilə bağlı maraqlı bir epizodu yada salmaq istəyirəm.

Ustad xanəndə, Şərqdə muğam dəstgahlarını ifa edən ilk qadın sənətkar, səhnəmizin lirik Leylisi, respublikanın xalq artisti Sara xanım Qədimova bütün respublikada qəzəlxan kimi tanınırdı. Bir çox kişi xanəndələr çox vaxt Sara xanımdan qəzəl alır, əzbərləyir və ifa edirdilər. O, 500-dən çox qəzəl bilirdi.

Keçən əsrin 60-cı illərində ulu öndər Heydər Əliyevin iştirak etdiyi tədbirlərin birində Sara xanım “Segah” muğamında Məşədi Əyyub Bakinin aşağıdakı qəzəlini oxumuşdur:

*Deyin o yara, edir aşiqin səfər, gəlsin,*
*Şikənci-əqrəb ara gizlənir qəmər, gəlsin.*

*Ölüm yetibdi, səba, az qalıb fədası olam,*
*Sölə ki, başımın üstə o didə tər gəlsin.*

*Gül üzlülər nə ki var, dövrəmə urub halə,*
*Gözəllər icrə o yarı gözüm gəzər, gəlsin.*

*Nə Kəbə, qiblə bilib, döndəribdilər üzümü,*
*O tağİ-qaşına, billah, üzüm dönər, gəlsin.*

*Şəhadətin yerinə adın əzbər eyləmişəm,*
*Təqafül eyləməsin vəqt kim, keçər, gəlsin.*

*Bu həsrət ölməyimə olmasın, deyin, razı,*
*Görüm üzünü, verim can, yenə gedər, gəlsin.*

*Gərək məni öz əlilə bu gün məzara goya,*
*Şikəstə Baki ölür, eyləyin xəbər, gəlsin.*

Sara xanım Azərbaycan Tibbi İnstitutunda Zərifə xanımla bir qrupda oxumuşdur. Ona görə də Əziz Əliyevin bütün ailə tədbirlərində Sara xanım iştirak edirdi. Ulu öndər Heydər Əliyev buna görə Sara xanıma çox hörmət bəsləyirdi.

Heydər Əliyev qəzəlin kimin olduğunu soruşanda, Sara xanım Əyyub Baki haqqında ona məlumat vermişdi. Sara xanım xatırlayırdı: “Mən şair Bakinin 25 yaşında vərəm xəstəliyindən vəfat etdiyini deyəndə Heydər Əliyevin gözlərinin yaşardığını hiss etdim”.

Bu hadisədən 21 il keçmişdir. Heydər Əliyev Molla Pənah Vaqifin məqbərəsini açmaq üçün Şuşaya getməyə hazırlaşırdı. O, Azərbaycan KP Mərkəzi Komitəsinin katibi olan Kamran Bağırova tapşırıq verir. “Sara xanım Qədimovanı tapın, 1961-ci ildə onun ifa etdiyi Məşədi Əyyub Bakinin qəzəlini alıb mənə verin”.

Bu iş o vaxtlar Mərkəzi Komitədə işləyən Xeyrulla Əliyevə tapşırılmışdı. Xeyrulla müəllim Sara xanımla əlaqə saxlayıb, Bakinin bu qəzəlini ondan almış və ulu öndərə vermişdir.

Sonralar mənə danışdılar ki, Heydər Əliyev bu qəzəli Şuşadakı tədbirlərin birində əzbər demiş və qarabağ şairlərindən söhbət açmışdır.

Mətləbdən uzaqlaşmayaq. Natəvan xeyirxah bir qarabağlı qızı idi. Yaşlı şuşalılar xatırlayırdılar ki, o, kasıb-kusuba əl tutur, kömək edirdi. Tez-tez ehsanlar verərdi. Cənnət kimi bir bağ saldırmışdı. Mirzə Xosrov Axundovun dediklərindən: “Natəvan orta boylu, arıq, zəif, lakin gözəl bir qadın idi. Onda həkimlik qabiliyyəti də var idi. Qohum-qonşu xəstə uşaqlarını onun yanına gətirər, Natəvan isə türkəçarə yolu ilə onları müalicə edərdi. Şuşaya su çəkdirməsi Natəvanın şan-şöhrətini xeyli artırmışdı. Hətta bəzi erməni varlıları buna görə Natəvana qısqanır və onlar da birləşib Şuşanın ermənilər yaşayan hissəsinə su çəkdirmişdilər”.

Şuşalılar Natəvanı böyük məhəbbətlə sevirdilər. Gənc yaşlarından Natəvanın həyatı əzablı olmuşdur. Knyaz Xasayın Şuşadan çıxıb getməsi, onun faciəli ölümü, dedi-qodular, əsassız söz-söhbətlər şairi yorur, əldən salırdı. O, tez-tez xəstələnirdi. “Natəvan” təxəllüsü elə-belə, təsadüfən seçilməmişdi. 17 yaşlı Mirabbas adlı oğlunun ölümü anasını dəli-divanə etmişdi. Natəvan oğlunun vəfatı ilə bağlı qəzəllərdə yazmışdı:

*Varımdı sinədə dərdü ğəmi-nihan, ölürəm,*
*Fəda olum sənə, gəl eylə imtəhan ölürəm.*

*Fəraqdən tükənib tabü taqətim, billah,*
*Vüsalə yetməz əlim, zarü Natəvan, ölürəm.*

Və yaxud:

*Zəmanə saldı əcəb möhnətü məlalə məni,*
*O mahrudən uzaq verdi qəm zəvalə məni.*

*Sən nə qədr dedim: Rəhm qıl mənə, getmə,*
*Gəl, indi gör ki, fəraqın salıb nə halə məni!*

Mir Möhsün Nəvvab Natəvana qayğı ilə yanaşırdı. Tez-tez onun hal-əhvalını soruşardı. Natəvanın Nəvvaba aşağıdakı şeiri minnətdarlıq hissi ilə yazılmışdır:

*Əya, Nəvvab, valayi-süxəndan,*
*Yetişdi naməniz, dilşad oldum.*

*Qəmü dərdim firavan idi, amma*
*Xərab olsam da gər, abad oldum.*

*Unutma sən duadan Natəvanı,*
*Əlilü naxoşü əfsürdəcanı.*

*Cənabından səva yoxdur gümanı,*
*Əgər yaddan çıxam, bərbad oldum.*

Böyük bəstəkarımız Üzeyir Hacıbəylinin Xurşudbəyim Nətavana böyük hüsn-rəğbəti vardı. O, şairin yaradıcılığını mükəmməl bilirdi. “Leyli və Məcnun” operasının sonuncu pərdəsində Leylinin ölümü səhnəsində aktyorun ifa etməsi üçün Füzulinin “Leyli və Məcnun” poemasında bu səhnəyə uyğun şeir olmadığı üçün hamı narahat idi. Ertəsi gün Üzeyir Hacıbəyli məşq otağına gəlib, sevincək deyir:

- Tapdım. Natəvanın “Ölürəm” rədifli qəzəli var. Leylinin ölüm səhnəsinə tamamilə uyğundur. Həmin qəzəli operaya daxil etmək olar.

Hələ Üzeyir bəyin sağlığı dövründən başlayaraq bugünədək Leyli rolunun bütün ifaçıları Leylinin ölüm səhnəsində Natəvanın “Ölürəm” rədifli qəzəlinin bir neçə sözünü dəyişərək onu oxumağa başladılar:

*Vardı sinəmdə dərdü-qəmi-nihan ölürəm,*
*Fəda olum cənə, gəl eylə imtahan, ölürəm.*
*Bahari-hüsnün ara gör necə xəzanam mən,*
*Bahar laləsi tək bağrım oldu qan, ölürəm.*

Natəvan 65 yaşında vəfat etmişdir. Mirzə Xosrov Axundovun söhbətlərindən: “Natəvanın ölümü bütün Qarabağı silkələdi. Şuşalılar tələb edirdilər ki, şair Şuşa qəbiristanlığında basdırılsın. Natəvanın qohum-əqrəbası isə onun atasının yanında - Ağdamda, İmarətdə basdırılmasını istəyirdilər. Baş meydanda adam əlindən tərpənmək mümkün deyildi. Şuşanın ağsaqqalları qərara aldılar: “Natəvanın cənazəsi Ağdamadək şuşalıların çiynində getməlidir”. Belə də oldu. Natəvana Şuşanın çoxsaylı məhəllələrində ehsan verildi.

Azərbaycan xalqı öz xeyirxah şair qızının xatirəsini bu gün də əziz tutur.

Şuşa vətənimizin ən qədim şəhərlərindən biridir. Vətənimizi, xalqımızı Şuşasız təsvir etmək qeyri-mümkündür. Hər bir azərbaycanlı Şuşanın tezliklə alınacağına ümid bəsləyir.

Allah eləsin, bu ümid çin olsun.

***Çingiz FƏRƏCOV,***
***“Qızıl qələm” mükafatı laureatı***

(Əvvəli qəzetimizin 7 may nömrəsində)

8 may Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Günüdür

# Humanizm missiyası



Hər bir ölkədə humanitar və xeyriyyəçilik dəyərlərini özündə təcəssüm etdirən və bu istiqamətdə fəaliyyət göstərən müxtəlif təsisatlar mövcuddur. Bunların arasında ən qədimi hazırda dünyanın hər yerini əhatə edən Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatıdır. Bu hərəkatın banisi və qurucusu isveçrəli tacir, sülh üzrə ilk Nobel mükafatçısı Anri Dünandır. 1859-cu ildə Anri Dünan İtaliyanın şimalına, italyanların və fransızların avstriyalılara qarşı vuruşduğu yerlərə səfər edir. Həmin yerlərdən keçərkən o, təsadüfən Solferino döyüşündə yaralanmış əsgərlərin arasına düşür və gördükləri onu dəhşətə gətirir, bu barədə 1862-ci “Solferino xatirələri” adlı kitab yazır.

A.Dünan 1863-cü ildə dostları ilə birlikdə bütün dünyada yaralılara yardım göstərəcək təşkilat yaratmaq qərarına gəlir. Beləliklə, dünyada ilk humanitar təşkilat olan Beynəlxalq Qızıl Xaç Cəmiyyəti yaranır. Tezliklə cəmiyyətin humanitar missiyası dünyaya yayılır. Müsəlman ölkələrdə isə emblem kimi ayparadan istifadə olunur. Bu emblemlər onların hərbçi olmadığını göstərir. 1869-cu ildən hərəkat bütün dünyada daşqın, zəlzələ, epidemiya, aclıq və s. fəlakətlərin qurbanlarına da yardım etməyə başlayır. Humanistlik, qərəzsizlik, xeyirxahlıq, birlik və universallıq hərəkatın əsas fəaliyyət prinsipləridir. Bu gün bütün dünyada A.Dünanın anadan olduğu gün - may ayının 8-i onun şərəfinə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü kimi qeyd olunur.

## *1920-ci ildən başlanan yol*

Azərbaycanın bu beynəlxalq hərəkata qoşulması 1920-ci ildən başlayır. 1920-ci il martın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri əvəzi general-leytenant Əliağa Şıxlinskinin və Fətəli Xan Xoyskinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edilib. Cəmiyyət yarandığı vaxtdan ölkəmizin sosial qayğılarının bir hissəsini öz üzərinə götürərək humanitar problemlərin həllində fəal iştirak edib. Lakin 1920-ci ilin aprel çevrilişindən sonra AzQAC-ın fəaliyyəti məhdudlaşdırılıb. 1922-ci ilədək Azərbaycanda formal olaraq Rusiya Qızıl Xaç Cəmiyyətinin nümayəndəliyi fəaliyyət göstərib. 1922-ci ilin oktyabr ayında Azərbaycan Xalq Komissarları Şurasının qərarı ilə yenidən AzQAC yaradılıb. Cəmiyyət 1991-ci ilədək Ümumittifaq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Birliyinin üzvü kimi humanitar fəaliyyətini davam etdirib.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul ediləndən bir neçə gün sonra AzQAC da müstəqil fəaliyyətini elan edib. Yenidən təşkilatlanan AzQAC ilk gündən etibarən Azərbaycanın qarşılaşdığı ciddi problemlərin həlli istiqamətində fəal iş aparıb. Müstəqilliyimizin ilk illərində ölkədə mövcud olan çətinliklər, xüsusilə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış problemlərin aradan qaldırılmasında əsas rol oynayan qeyri-hökumət təşkilatlarından biri AzQAC idi.

AzQAC-ın bugünkü inkişaf mərhələsinə çatmasında dövlətin rolu xüsusi qeyd edilməlidir. Müstəqilliyin ilk illərində AzQAC öz missiyasını davam etdirsə də, cəmiyyətin heç bir hüquqi bazasının olmaması, beynəlxalq aləmdə tanınmaması, bütövlükdə ölkədəki gərgin vəziyyət onun inkişafı üçün böyük problemlər yaradırdı. Hətta müəyyən qüvvələr cəmiyyəti nüfuzdan salmağa çalışırdılar. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra AzQAC yeni inkişaf dövrünə qədəm qoydu və qurumun fəaliyyətində yeni mərhələ başlandı. Məhz Heydər Əliyevin təşəbbüsü hələ 1994-cü ildə AzQAC milli qurum kimi dövlət tərəfindən tanındı. Bundan sonrakı dövrlərdə də ulu öndər AzQAC-ın Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi, onun fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi üçün diqqət və qayğısını əsirgəməyib. Heydər Əliyevin 12 mart 2003-cü il tarixində AzQAC-ın XX qurultayına təbrik məktubu ulu öndərin cəmiyyətimizin fəaliyyətinə verdiyi əvəzsiz qiymətdir. Təbrikdə deyilir: *“Qızıl Aypara Cəmiyyəti bu gün öz qüvvələrini səfərbər edərək, müstəqil Azərbaycan Respublikası qarşısında duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Ermənistanın respublikamıza qarşı yeritdiyi işğalçılıq siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllində, əsir və girovların azad edilməsi və reabilitasiyasında Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir”.*

## *MDB-də ən inkişaf etmiş və ən yaxşı təchiz olunmuş milli cəmiyyət*

Hər bir sahədə ulu öndər Heydər Əliyevin siyasi xəttini layiqincə davam etdirən, zənginləşdirən Prezident İlham Əliyev bu müddətdə AzQAC-ın da fəaliyyətinə qayğı ilə yanaşıb. Məhz Azərbaycan Prezidenti, AzQAC-ın fəxri üzvü cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində AzQAC bu gün MDB ölkələrində ən inkişaf etmiş və ən yaxşı təchiz olunmuş milli cəmiyyətlərdən birinə çevrilib. Qürur hissi ilə qeyd etmək istərdim ki, cənab İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk aylarda imzaladığı sərəncamlardan biri AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı olub.

2007-ci ildə “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” qanunun qəbulu cəmiyyətin statusunun, hüquqlarının və fəaliyyət istiqamətlərinin, dövlət və yerli özünüidarə orqanları ilə qarşılıqlı münasibətlərinin hüquqi əsaslarının müəyyən edilməsi baxımından mühüm addım oldu. Bu qanunun qəbulu da məhz Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü nəticəsində mümkün oldu. Prezident İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamına əsasən isə, hər il martın 10-u Azərbaycanda Qızıl Aypara günü kimi qeyd olunur. Cəmiyyətin 85 və 90 illik yubileylərində bir qrup AzQAC üzvünün “Tərəqqi” medalı ilə təltif olunması fəaliyyətimizə verilən ali dəyər olmaqla, bizləri humanizm və xeyriyyəçilik kimi müqəddəs missiyamızı daha inamla həyata keçirməyimizə yüksək stimul verib.

2013-cü ilin mart ayında Prezident İlham Əliyevin AzQAC-ın XXIV Baş Məclisinə göndərdiyi məktubda cəmiyyətimizlə bağlı söylədiyi fikirlər əməyimizə verilən qiymətin göstəricisidir. *“Respublikamızın müasir ictimai və sosial həyatında Qızıl Aypara Cəmiyyəti özünəməxsus yer tutur, humanizm və könüllülük prinsiplərinə əsaslanaraq qayğıya ehtiyac duyan insanlara lazımi yardım göstərir”* deyən Prezident İlham Əliyev 2004-cü ildən bəri AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı beş sərəncam imzalayıb. Bu, fəaliyyətimizə diqqət və qayğının yüksək göstəricisi olmaqla, bizi işimizdə daha məsuliyyətli olmağa, ölkəmizə layiqincə xidmət etməyə sövq edir. 2010-cu ildə cəmiyyətin 90 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi də qurumun fəaliyyətinə verilən qiymətin əyani nümunəsidir.

Bu gün AzQAC Azərbaycanda 350 minədək üzvü, 20 minədək könüllüsü olan yeganə qeyri-hökumət təşkilatıdır. Hazırda cəmiyyətin 83 rayon bölməsi və 7 regional mərkəzi uğurla fəaliyyət göstərir. Beynəlxalq hərəkatı respublikamızda təmsil edən cəmiyyətin əsas məramı bəşəri fundamental prinsipləri rəhbər tutaraq müvafiq qanunvericilik çərçivəsində əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə təmənnasız ilkin tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlərin göstərilməsindən ibarətdir.

*Hər bir ictimai, siyasi fəaliyyətin dəyəri cəmiyyətə, insanlara nə dərəcədə səmərəli olması ilə ölçülür. Əgər bir təşkilatın məramı ehtiyacı olanlara, dara düşmüş, fövqəladə vəziyyətə düçar olmuş insanlara yardım göstərməkdirsə, deməli, həmin təsisat cəmiyyətdə ən arzuolunan qurum hesab edilə bilər. Bu baxımdan AzQAC ölkəmizdə məhz hamıya lazımlı və gərəkli təşkilatdır. Cəmiyyətimiz bundan sonra da Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi kimi öz müqəddəs missiyasını uğurla davam etdirəcək, müstəqil Azərbaycana layiqincə xidmət edəcək.*

***Novruzəli ASLANOV,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti,***
***Milli Məclisin deputatı***

# Şuşa Uşaq Yaradıcılıq Mərkəzi

Respublikamızda fəaliyyət göstərən uşaq yaradıcılıq mərkəzləri yeniyetmə və gənclərin bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilini təmin edir.

Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 83 uşaq yaradıcılıq mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə 6.691 qrupda 89.628 uşaq məşğul olur və 2.827 pedaqoji işçi çalışır.

Uşaq yaradıcılıq mərkəzlərində əsasən Bacarıqlı əllər, Bədii qiraət, Rəsm, Xalçaçılıq, Dram, Bədii özfəaliyyət, Məktəb teatrı, Rəqs, Gənc idmançılar, Naxışlı tikmə, Texniki estetika, Forte-piano, Xor, Nağara, Tar, Heykəltəraşlıq, Kukla teatrı, Coğrafiya-diyarşünaslıq, Foto, Ağac üzərində oyma, Qarmon, İbtidai texniki modelçilik, Dəmir üzərində döymə, Tarix-diyarşünaslıq və s. dərnəklər təşkil olunur.

Yaxın günlərdə belə mərkəzlərin birində - Şuşa Uşaq Yaradıcılıq Mərkəzində olduq. Mərkəzin rəhbəri Cəmilə Vəliyeva ilə söhbət əsnasında öyrəndik ki, Nizami Gəncəvi adına 4 nömrəli Xankəndi məktəbinin nəzdində fəaliyyət göstərən mərkəz 236 uşağı bir araya gətirib. Onlar 16 qrupda, 9 dərnəkdə məşğul olurlar.

C.Vəliyeva dedi ki, dərnək üzvləri ilə müxtəlif mədəni-kütləvi tədbirlər, idman yarışları, müsabiqələr, sərgilər, bayram şənlikləri, ekskursiyalar keçirilir, onların respublika və beynəlxalq səviyyəli tədbirlərdə iştirakı təmin olunur. Mərkəz tərəfindən dərnək rəhbərlərinə məşğələlərin məzmununun yeniləşdirilməsi, müasir tələblərə cavab verən yeni tədris plan və proqramların hazırlanması istiqamətində metodiki kömək göstərilir. Bu işlərin yüksək səviyyədə təşkili üçün metodist Nəzakət Quliyeva, Musiqisevərlər dərnəyinin rəhbəri Cəmaləddin Vəliyev, Bacarıqlı əllər dərnəyinin rəhbəri Gülnarə Rzayeva, Rəqs dərnəyinin rəhbəri Könül Musayeva və başqaları böyük əmək sərf edirlər. Bundan əvvəlki illərdə olduğu kimi, dərnəyimizin üzvləri müxtəlif mədəni-kütləvi tədbirlərdə, elmi-texniki yaradıcılıq müsabiqələrində, sərgilərdə, idman yarışlarında uğurlar qazanıblar. Könül Mehdiyevanın, Aygün Cəfərovanın, Ayxan İmanovun, Anar Vəlizadənin və digər uşaqların uğurları göz önündədir.

Mərkəz nəinki uşaqlarla iş aparır, həmçinin metodiki tövsiyələr işləyib hazırlayır, şəhər, rayon təhsil şöbələrinə, təhsil müəssisələrinə əməli kömək göstərir.

Ümumiyyətlə, əsas məqsədimiz tariximizi, soy-kökümüzü, mədəniyyət, ədəbiyyat və incəsənətimizi gənc nəslə öyrətmək, onlarda tarixi abidələrimizi qorumaq, vətənə məhəbbət hissi aşılamaqdır. Bildiyimiz kimi, Şuşa məktəbliləri köçkünlük həyatı yaşayır. Elə bir tədbir yoxdur ki, orada işğal olunmuş ərazilərimizi, Qarabağın adət-ənənələrini yaddan çıxaraq. Azərbaycanın musiqi beşiyi olan Şuşa baş mövzumuzdur. Mərkəzin rəhbəri onu da vurğuladı ki, uşaqlarda dövlətçiliyimizə sədaqət, milli-mənəvi dəyərlərimizə hörmət hissi yaratmaq, eləcə də onlarda fiziki, ekoloji, hüquqi, estetik tərbiyənin, bədii yaradıcılıq qabiliyyətlərinin istiqamətləndirilməsi və inkişaf etdirilməsi üçün əlimizdən gələni edirik. Amma hamılıqla bizi narahat edən bir məqam var: kaş Şuşa Uşaq Mərkəzinin fəaliyyəti Azərbaycanın konservatoriyası sayılan Şuşanın özündə davam etsin.

***Zəkurə QULİYEVA,***
***“Azərbaycan”***

# Faşist Almaniyası üzərində qələbədən 69 il keçir

1941-1945-ci illər İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu yaralar hələ də sağalmamış, yaddaşlardan silinməmişdir. İllər keçsə də, bu ölüm-dirim müharibəsi unudulmayacaq. Keçmiş SSRİ-nin elə bir ucqar məkanı olmamışdır ki, bu vahiməli və dəhşətli müharibə həmin yerlərə aclıq, səfalət, müsibət, ölüm və göz yaşları gətirməsin. O dövrdə Vətən anlayışı milliyyətindən, dilindən, yaşadığı yerindən asılı olmayaraq hər bir insan üçün əziz və müqəddəs idi. Bir sözlə, İkinci Dünya müharibəsi tarixdə xüsusi iz qoymuşdur.

## Azərbaycan Böyük Vətən müharibəsi illərində

Müharibə başlamazdan əvvəl Avropada törədilən hadisələr və bunun müqabilində SSRİ dövlətinin atdığı addımlar barədə yəqin ki, çoxlarının məlumatı var. Belə ki, Hitler Almaniyası heç bir müqavimətə rast gəlmədən Avropanın bir neçə ölkəsini zəbt etdikdən sonra 1938-ci ildə qəflətən Çexoslovakiyanı ələ keçirdi. Qarşıdakı təhlükəni dərk edən SSRİ dövləti 1939-cu ilin avqust ayında Adolf Hitlerlə "Hücumetməmək Paktı"nı imzaladı. Belə bir paktın etibarlı sayılması üçün potensial düşmən olan SSRİ-yə üstəlik 4,5 faizlə 200 min alman markası həcmində kredit vəsaiti də verildi. Həmin vəsaitə Almaniyadan avadanlıqlar, maşınlar və dəzgahlar alındı. SSRİ ilə Almaniya arasında müqavilənin imzalanmasından 7 gün sonra - 1939-cu il sentyabrın 1-də Hitler ordusu Polşaya hücum etdi.

Sentyabr ayının 17-də Sovetlər İttifaqı ukraynalıları və belorusları müdafiə bəhanəsi ilə Polşanın şimalına qoşun yeritdi və ölkənin şərq hissəsini tutdu (indiki Qərbi Ukrayna və Qərbi Belarus). Elə həmin il SSRİ və Latviya, Litva və Estoniya arasında əldə edilmiş razılığa əsasən bu ölkələrə sovet ordusunun azsaylı kontingenti yeridildi. 1940-cı ildə bu ölkələr öz parlamentlərinin qərarı ilə SSRİ-nin tərkibinə qatıldılar. Az sonra Sovetlər İttifaqı sovet-rumın razılaşması əsasında Bessarabiyanı tutdu və bu ərazi Moldova SSR elan olundu.

1941-ci il iyunun 22-də gecə saat 4-də Hitler Almaniyası xəbərdarlıqsız 190 diviziya, çoxsaylı hərbi texnika və təyyarələrlə SSRİ-yə hücuma keçdi. Hücum zamanı Qırmızı Ordunun dislokasiyası Almaniya ilə SSRİ arasındakı Pakt nəzərə alındığından, əsasən Qərb sərhədlərində yerləşdirilmişdi. Bu səbəbdən müharibənin ilk illərdə Hitlerə SSRİ üzərində üstünlük qazandırdı. Beləliklə, İkinci Dünya müharibəsi başlandı.

SSRİ-də yaşayan bütün millətlərin nümayəndələri Vətəni qorumaq üçün müdafiəyə qalxdılar. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ilə hər kəs səfərbərliyə çağırıldı.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, müttəfiq respublikalardan təkcə Azərbaycandan ön cəbhəyə 600.000 insan səfərbər olunmuşdur. Onlardan 300.000 nəfəri döyüşlərdə qəhrəmancasına həlak olmuş, 300.000 nəfəri isə geri qayıtmışdır.

SSRİ ilə faşist Almaniyası arasında gedən Böyük Vətən müharibəsi bəşəriyyəti lərzəyə və təlatümə salmışdı. Hər iki tərəfdə dəhşətli döyüşlər kütləvi insan tələfatı ilə nəticələnməklə şəhərlərin, kəndlərin, qəsəbələrin və körpülərin dağıdılmasına gətirib çıxarmışdır.

Tarixçilər müəyyən etmişlər ki, faşist Almaniyası SSRİ-yə qarşı müharibəyə başlayanda Qafqazın şimala gedən yolun körpüsü olmasını nəzərə alaraq, tərtib etdikləri planda ilk növbədə məqsədləri Qafqazı ələ keçirmək, Qroznı və Bakı neftinə sahib çıxmaq idi. Odur ki, düşmən əsas zərbəsini Qafqaza yönəltmişdi.

Çeçenistanda, Qabardin-Balkar Muxtar Sovet Sosialist Respublikasında, Karaçayevo-Çerkez diyarında, Kalmıkiyada və bəzi ərazilərdə faşistlərin nikbin qarşılanmaları xəbərləri Moskvaya çatanda sorğu-sual aparılmadan qısa müddətdə əhali Qazaxıstana və Sibirə köçürülmüşdür. O ağır illərdə Dağıstana rəhbərlik edən Azərbaycan xalqının mərd oğlu, dövlət xadimi Əziz Əliyevin təşkilatçılığı, uzaqgörənliyi sayəsində, aparılan siyasi təbliğat və təşviqat işləri nəticəsində Dağıstan xalqı ümumi düşmənə qarşı nifrətini ifadə edərək müharibəyə gedən könüllülərin sayını artırmış, bu da qara fikirləri alt-üst etmişdi.

Azərbaycan əhalisinin də Orta Asiyaya köçürülməsi Moskvanın gündəliyində olmuşdur. Bundan xəbər tutan Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırov Stalinlə görüşmüş və onu inandırmışdır ki, Azərbaycan xalqı heç zaman Hitler Almaniyasına baş əyməyəcək, faşistlərin müqəddəs torpaqlarımızda ağalığına yol verməyəcəkdir.

SSRİ Ali Baş komandanlığının əmri ilə 1942-ci il fevralın 22-də 416-cı Azərbaycan atıcı diviziyası yaradıldı. Mir Cəfər Bağırov Şimali Qafqaza gələrək 416-cı, 223-cü Azərbaycan milli diviziyalarının əsgərləri ilə görüşdü, bu da doyüş ruhunu xeyli artırmış oldu.

Tarixçilərin yazdıqlarına görə, həmin illərdə azərbaycanlıların əksəriyyəti rus dilini bilmirdi. Şovinist rus komandirlərinin əmrini başa düşmədiklərindən bəziləri yerindəcə güllələnirdilər. Belə ciddi hallar ortaya çıxandan sonra rus komandirləri azərbaycanlı zabitlərlə əvəz olunmuş, milli əsgər və zabit heyətinin sayı artırılmışdır. 1942-ci ilin fevralından 416-cı atıcı diviziyanın ayrı-ayrı hissələri Ucar-Göyçay-Şəmkirdə yaradılmış, 223-cü diviziyanın səfərbərlik artımı isə Quba rayonunda aparılmışdır. Sonradan həmin diviziya 44-cü ordunun tərkibinə daxil edilərək Şimali Qafqaza - Xasavyurd rayonuna təlim-məşqə göndərilmişdir. Az sonra 402, 223, 227, 271, 77-cı atıcı diviziyaları təşkil edilmiş və onlar Krasnodar, İjorsk, Krım, Sevastopol uğrunda döyüşlərdə fərqlənmişlər.

416-cı diviziyanın qəhrəmancasına apardığı döyüşlər yüksək qiymətləndirilərək Taqanroq şəhərində və Ukraynanın Nikolayev vilayətinin Çernova kəndində muzeylər yaradılmış, memoriallar ucaldılmışdır.

Hitler komandanlığının planına görə, Qafqaz və Zaqafqaziya 1941-ci ilin beş ayı ərzində işğal olunmalı idi. Lakin düşmənin planı sovet qoşunlarının döyüş qəhrəmanlıqları sayəsində alt-üst edildi. Təkcə Qafqaza olan hücumda düşmən 100.000 nəfər əsgər və zabitini itirərək nə Qroznı, nə də Bakı neftinə sahib ola bildi.

Azərbaycan xalqı döyüş cəbhələrində, səngərlərdə, arxa cəbhədə fədakar əməyi ilə düşmən üzərində qələbə naminə misilsiz rəşadətlər göstərmişlər. Yüksək keyfiyyətli Bakı benzini, sürtkü yağları, silahlar, döyüş sursatı, mərmi və ərzaqla dolu eşelonlar gecə-gündüz, arası kəsilməyən axınla cəbhəyə yollanırdı. Analarımız öz əlləri ilə yundan toxuduqları isti corabları, quru meyvələri və təsəlli məktublarını cəbhəyə göndərirdi. Azərbaycan neftçiləri müharibənin 4 ili ərzində ölkəyə 75.000.000 ton neft vermişlər.

Böyük alim, akademik Yusif Məmmədəliyev SSRİ Müdafiə Nazirliyini yüksək keyfiyyətli aviabenzin ilə təmin edən komponent kəşf etmişdi. Dövlət Y.Məmmədəliyevin apardığı tədqiqatları layiqincə qiymətləndirərək 1944-cü ildə onu Lenin ordeni, 1946-cı ildə Stalin mükafatı ilə təltif etmişdir.

İkinci Dünya müharibəsindən söhbət açanda böyük sərkərdə, marşal, 4 dəfə Sovet İttifaqı Qəhrəmanı, 14 orden və 16 medal sahibi Georgi Konstantinoviç Jukovun xidmətlərindən danışmamaq, onu yada salmamaq ədalətsizlik olardı.

G.Jukov Böyük Vətən müharibəsində Azərbaycan xalqının xidmətlərindən bəhs edərək xatirələrində yazmışdır: "...Bakı neftçiləri cəbhəyə və ölkəyə Vətənimizin müdafiəsinə, düşmən üzərində qələbəyə kifayət qədər yüksək keyfiyyətli yanacaq vermişdir".

Adolf Hitler o zaman demişdir ki, Georgi Jukov "müharibənin allahıdır".

Stalinin ölümündən sonra, 1954-cü ildə hakimiyyətə gəlmiş N.Xruşşov ölkədə siyasi partiyanın kursunu dəyişərək Jukovun tükənməz nüfuzundan qısqanmış və onu müdafiə naziri vəzifəsindən istefaya göndərmişdir.

Hitler komandanlığı SSRİ-yə qarşı hücuma keçdikdən bir ay sonra - 18 iyul 1941-ci ildə Leninqradı bombalamış və 900 gün mühasirədə saxlamışdır. Bu dəhşətli müharibədə qəhrəman Leninqrad əhalisinin başına gələn müsibətlər yaddan çıxmır. Mühasirədə qalan bu şəhərə yalnız Ladoqa gölü vasitəsilə buzun üstündən ərzaq daşımaqla əhali yeməklə qismən təmin olunmuşdur. 27 yanvar 1944-cü ildə düşmən cəbhəsi yarılmış və böyük itkilərlə Leninqrad azad edilmişdir.

O zaman müharibənin gedişatı haqqında SSRİ-nin İnformasiya Bürosunun elan etdiyi acılı-şirinli xəbərlər Yuriy Borisoviç Levitan tərəfindən elan olunurdu. İ.Stalin Levitanın möhtəşəm, hər kəsi valeh edən səsini eşidən gündən ona heyran olmuş, nitqini yüksək qiymətləndirmişdir. Levitan Sovet İttifaqının baş diktoru təyin edilmişdi.

Müharibə başlayan gündən Levitan bütün çıxışlarını İ.Stalinin bu sözləri ilə başlamışdır: "Biz haqq yolundayıq! Düşmən darmadağın ediləcəkdir! Qələbə bizimlədir!"

Faşist Almaniyası diktor Levitanın və yazıçı İlya Qriqoryeviç Erenburqun çıxışlarını izləyirdi. Hitler rus dilini başa düşməsə də, bu çıxışlara böyük qəzəblə qulaq asarmış və dərhal tərcüməçi tələb edərmiş. İstədiyi o idi ki, Moskvanı alan kimi Levitanı dilindən, Erenburqu isə yazan əlindən asdırsın...

Nəhayət, 8 May 1945-ci ildə axşam saatlarında Levitan bütün sovetlər məkanına Almaniya üzərində qələbə qazanıldığını ilk dəfə elan etmişdir: "Danışır Moskva! Faşist Almaniyası darmadağın edildi..."

Alman qoşunlarının artıq SSRİ ərazisindən və eyni zamanda Avropa ölkələrindən qovulması bayrama çevrilirdi. Düşmənin təslimolma ərəfəsində Almaniyanın bölüşdürülməsi problemi ortaya çıxmışdı.

12 fevral 1945-ci ildə SSRİ Silahlı Qüvvələrinin Ali Baş Komandanı Stalin, ABŞ-ın Prezidenti Ruzvelt, Böyük Britaniyanın Baş naziri U.Çörçil Yalta Konfransında İkinci Dünya müharibəsinin taleyini həll etmişlər. Bununla da 9 May 1945-ci ildə faşist Almaniyası darmadağın edilmiş, SSRİ dövləti bu müharibəni qələbə ilə başa vurmuşdur.

Azərbaycanın xalq şairi Səməd Vurğun qələbə münasibətilə yazmışdır: "Yazılsın tarixə bir qızıl xətlə, 45-ci ilin 9 May günü".

İllər keçsə də, fəxrlə anırıq ki, Avropada Dnepr çayını keçən, Karpatın qarlı dağ silsiləsini aşan, Şərqi Prussiyaya qapı açan, faşistləri öz yuvasında boğan, diz çökdürən, Berlin üzərində qələbə bayrağı ucaldan yenilməz qəhrəmanlar arasında minlərlə azərbaycanlı döyüşçülər də olmuşlar. Təbii ki, həmin həmyerlilərimizin əksəriyyəti dünyalarını dəyişmişlər. Lakin onların qəhrəmanlıq şücaətləri xalqımızın qəlbində yaşayır və bundan sonra da yaşayacaqır.

Azərbaycandan Böyük Vətən müharibəsində iştirak edən on minlərlə döyüşçü faşistlərlə vuruşlarda rəşadət və qəhrəmanlıq nümunələri göstərdiklərinə görə SSRİ-nin yüksək adları, rütbələri, orden və medalları ilə təltif edilmişlər.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Sovet İttifaqı Qəhrəmanları - Mehdi Hüseynzadənin, İsrafil Məmmədovun, Qafur Məmmədovun, Gəray Əsədovun, Ziya Bünyadovun, Məmiş Abdullayevin, Səməd Abdullayevin, Rixard Zorgenin, Müseyib Allahverdiyevin, İsmayıl Bayramovun, Əvəz Verdiyevin, Aslan Vəzirovun, Mirzə Vəliyevin, Abbas Quliyevin, Adil Quliyevin, Mehdi Quliyevin, Məhərrəm Dadaşovun, Qəzənfər Əkbərovun, Məstan Əliyevin, Şəmsulla Əliyevin, Cəmil Əhmədovun, Səlahəddin Kazımovun, Məmməd Məhərrəmovun, Məlik Məhərrəmovun, Əmi Məmmədovun, Məmməd Məmmədovun, Xəlil Məmmədovun, Mərdan Musayevin, Bəkir Mustafayevin, Əli Rzayevin, Nəcəfqulu Rəfiyevin, Fariz Səfərovun, İdris Süleymanovun, Həbibulla Hüseynovun, Ağaşirin Cəfərovun, Şirin Şükürovun, Mikayıl Ələkbərovun, Mirzə Vəliyevin, Məmməd Məhərrəmovun, Kərim Kərimovun, təyyarəçi Hüseyn Əliyevin, general Heybət Heybətovun, süvari generalı Yaqub Quliyevin, Səkinə Bayramovanın xatirələri hər bir azərbaycanlı üçün əzizdir.

Eyni zamanda müharibədən orden və medallarla qayıtmış və hazırda aramızda olmayan Yuqoslaviya və İtaliya partizan hərəkatının fəal üzvü Mirdamət Seyidov, general Akim Abbasov, təyyarəçi, tarix elmləri doktoru, professor Məzahir Abbasov, Fransa müqavimət hərəkatının iştirakçısı Əhmədiyyə Cabrayılov, haqqında "Döyüş yollarında" əsəri yazılmış, Gəncə və Bakı şəhərlərində milis idarələrinin rəisi olmuş "223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası" hərbi memuarının müəllifi, polkovnik Baxış Mehdiyev, siyasi və ictimai xadim Hacıağa İbrahimov, tanınmış ictimai xadim Əlövsət Baxışov, Çingiz Həsənov, 416-cı Taqanroq diviziyasının qəhrəman döyüşçüsü Əbdül Zeynalov, polkovnik Əlisəfa Bağırov, İmran Tağızadə, Məmmədqulu Hüseynov, general Mustafa Nəsirov, baş ədliyyə müşaviri Nurəddin Zeynalov, qadınlarımızdan İrina Qədimova, Züleyxa Seyidməmmədova, arxa cəbhədə fədakarlıq göstərmiş Zemfira Kərimova və başqaları qədirbilən xalqımız tərəfindən hər an anılır və onların adları həmişə şərəflə çəkilir.

Arxa cəbhədə çalışanlardan Sosialist Əməyi Qəhrəmanı Ömər Ağayevə uzun ömür arzulayırıq.

Bu gün müharibədən qələbə ilə qayıtmış 300.000 nəfərdən hazırda yalnız 139 nəfəri yaşayır. 99 yaşlı akademik İsmayıl İbrahimovun, 91 yaşlı Vera İbrahimovanın, 91 yaşlı Fatma Səttərovanın, 91 yaşlı Seyfulla Baxışovun, 91 yaşlı Mövsüm Heydərovun, 90 yaşlı Əmralı Əmralıyevin, 92 yaşlı Aleksandr Qritçenkonun, 416-cı Taqanroq diviziyasının əsgəri, 91 yaşlı İsmayıl Qasımovun, 91 yaşlı Hüseyn Məmmədovun, Naxçıvandan Bayram Həsənovun, dənizçilik sahəsində rəhbər vəzifələrdə olmuş Kərim Məmmədovun, Kalininqrad uğrunda döyüşlərdə iştirak etmiş 89 yaşlı Adil Heydərovun, prokurorluq işçiləri - 88 yaşlı Faiq Allahverdiyevin, 92 yaşlı Nurəddin Cəfərovun, 90 yaşlı Eynal Əliyevin mərdlik və şücaətlə dolu ömür yolları gənc nəslə ibrətamiz nümunədir. Onlar xalqımızın ən əziz övladlarıdır.

Hazırda respublikamızda, o cümlədən Bakı şəhərində bütün kateqoriyalar üzrə veteranların qeydiyyatı aparılır. Təkcə Bakı şəhərində cəmi 83838 nəfər veteran vardır. O cümlədən əmək veteranları 74465, silahlı qüvvələr üzrə 1191, hüquq-mühafizə orqanları üzrə 637, Əfqanıstan, Polşa, Macarıstan üzrə 630, 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi veteranlarının sayı 139 nəfər, əlillərin sayı 291 nəfər, hazırda 1941-1945-ci illərdə arxa cəbhədə çalışmış veteranların sayı 1985 nəfər - kişilər 960, qadınlar 1025 nəfər təşkil edir.

1941-1945-ci illərdəki ölüm-dirim döyüşlərində qəhrəmanlıq göstərən Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş 128 nəfərdən 43 nəfəri milli tərkibə görə azərbaycanlı olmuşlar.

İkinci Dünya müharibəsi qurtardıqdan sonra SSRİ üzrə nə qədər insanın müharibəyə səfərbərliyə alınması, nə qədər insanın məhv edilməsi, əlil olması, əsir düşməsi kimi məsələlər ictimaiyyəti daim düşündürürdü. Müharibənin gedişatında bu faktlar əhali arasında vahimələrin yaranmaması xatirinə elan olunmurdu, dövlət sirri kimi saxlanılırdı.

Fəqət İ.Stalinin ölümündən sonra maraq doğuran məsələlər qismən də olsa açılmışdır.

Tarixçilərin hesablanmalarına görə, İkinci Dünya müharibəsində 110.000.000-dan çox insan səfərbərliyə alınmışdır. 6.000.000 əsgər əsir düşmüşdür. 50.000.000 insan həlak olmuşdur. 100.000 nəfər əlil olmuşdur.

Adolf Hitler və onun komandasının təqsiri üzündən müharibədə iştirak edən ölkələr üzrə dəhşətli rəqəmlərlə dolu xüsusi cədvəl hazırlanmışdır. Faşizm dünyaya elə bir acı və nifrət doğuran məhru-



miyyətlər bəxş etmişdir ki, illər keçdikcə bu ağlagəlməz hadisələr insanları yenə də dəhşətə gətirir. Bu ölüm-dirim müharibəsində 20.000 fransız, 400.000 italyan, 325.000 amerikan, 364.000 çex və slovak, 1.600.000 yuqoslaviyalı, 1.328.000 polyak, 9.700.000 alman, 300.000 ingilis, 20.000.000 sovet adamı məhv edilmişdir. O zaman SSRİ-nin tərkibində olmuş Azərbaycan da 300.000 vətəndaşının həyatını qurban vermişdir.

Adolf Hitler və onun silahdaşlarının bəşəriyyət tarixində törətdiyi ağlagəlməz cinayətlər Beynəlxalq Hərbi Tribunal Məhkəməsi Kollegiyasının Nyurnberq məhkəmə prosesində araşdırılmışdır. Bu məhkəmədə sovetlər ittifaqı adından dövlət ittihamı SSRİ-nin Baş prokuroru, I dərəcəli həqiqi ədliyyə müşaviri Roman Andreyeviç Rudenko tərəfindən müdafiə olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, 1956-cı ildə Bakı şəhərinin Dzerjinski (indiki Şəhriyar) klubunda Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun cinayət işinə baxılarkən burada da dövlət ittihamı R.Rudenko tərəfindən müdafiə edilmişdir.

R.Rudenko Beynəlxalq Hərbi Tribunalda faşizmin dünya xalqlarına qarşı törətdikləri vəhşilikləri tam ifşa etmişdir. R.A.Rudenkonun həmin məhkəmə prosesi haqqında 27 noyabr 1973-cü ildə SSRİ-nin Baş Prokurorluğunda iştirakçısı olduğum prokurorluğun 50 illik yubileyində söylədiyi xatirələr bu gün xüsusi əhəmiyyət kəsb edir: "...1945-ci ilin soyuq dekabr ayı idi. Xarabalığa çevrilmiş Nyurnberq bəyaz qara bürünmüşdü. Hərbi geyimli müxtəlif millətlərin nümayəndələri Nyurnberqdəki Beynəlxalq Tribunalın işini təlaşla izləyirdilər. Bəşəriyyət faşist cəlladlarına qanun əsasında layiqli cəza verilməsini səbirsizliklə gözləyirdi. Ona görə də Hərbi Tribunalın işində iştirak edən hər kəs böyük məsuliyyət daşıyırdı.

Məhkəməyə 24 müttəhim cəlb olunmuşdu. Lakin müttəhimlər kürsüsündə yalnız 21 nəfər oturmuşdu. Müttəhimlərin 3 nəfəri sağalmaz xəstəliyə düçar olmuşdu.

Dünyanın diqqətini cəlb edən bu vahiməli məhkəmə iclasları 1945-ci ilin dekabrından 1947-ci ilin fevralına qədər davam etdi. Bu vaxt ərzində məhkəmənin 403-dən artıq iclaslarında 116 şahid dinlənilmiş, 143 ifadə təqdim edilmişdi. 200 milyondan artıq sənəd araşdırılmışdı. Cinayətlərin törədilməsində nasist partiyası, ali dövlət orqanları, SS dəstələri və başqa cinayətkar qrupların olması təsdiq edildi.

Məhkəmədən sonra ittiham çıxışındakı tələblərim nəzərə alınmaqla 21 canidən 12 nəfəri ölüm, qalanları isə müxtəlif növlü cəzalara məhkum edildi. Ölüm cəzasına məhkum edilənlərin 11 nəfəri asıldı və sonra meyitləri yandırılaraq külü hər yerə səpələndi.

Müharibə vaxtı Hitlerin Sovet İttifaqında işğal etdiyi ərazilərə cavabdeh olan bir köməkçisi var idi - Rozenberq. Tutulan zaman onda dəhşətli bir sənəd tapılmışdı. Bu plan xarakterli sənədi nəzərdən keçirəndə məlum oldu ki, "30-35 milyon slavyan kişilikdən və qadınlıqdan məhrum edilərək heyvan sifətilə Almaniyaya göndərilməlidir".

Məhkəmənin gedişində insan dərisindən düzəldilmiş abajurlar, insan beynindən düzəldilmiş sabunlar, saçlardan düzəldilmiş gəmi ipləri, ayaqqabılar maddi sübut kimi baxışdan keçirildi".

SSRİ Baş Prokurorunun xatirələri gələcək nəsil üçün də öz əhəmiyyətini saxlayacaqdır.

1949-cu ildə İ.V.Stalinin 70 illik yubileyi Moskvada qeyd edilərkən əksər dünya ölkələrinin rəhbərləri ona təbrik teleqramları və qiymətli hədiyyələr göndərmişdilər. Bu hədiyyələr indinin özündə də Stalinin doğulduğu Qoridəki muzeyində saxlanılır.

Böyük Britaniyanın Baş naziri Çörçil Moskvaya gələrək Stalini şəxsən təbrik etmişdir. O, Stalinə çox yüksək qiymət verərək demişdir: "...Stalin Rusiyanı xışla qəbul edib, atom silahı ilə yola saldı. Rusiyaya böyük səadət üz vermişdir ki, ağır illərdə onun hökumətinin başında Stalin kimi böyük və sarsılmaz bir sərkərdə dayanmışdı..." (Britaniya "Soyuznik" jurnalı, 1959-cu il, № 17, səh. 11).

Məşhur yazıçı Mixail Şoloxov Stalinin ölümündən sonra ortaya çıxan şəxsiyyətə pərəstiş məsələsi üzrə öz fikrini belə ifadə etmişdir: "...Bəli, həqiqətən şəxsiyyət də vardı, pərəstiş də..." Sovet İttifaqı marşalı Jukov Stalinə yüksək qiymət verərək demişdir: "O, mümkün olmayan hər bir işi, mümkün etmişdir".

Azərbaycan dövləti ta qədimdən hərb tarixinə malik olduğu təqdirdə, bəzi dairələrdə bu amil inkar edilmişdir. Lakin qədim tariximiz, İkinci Dünya müharibəsində azərbaycanlıların göstərdikləri qəhrəmanlıq nümunələri həmin yanlış fikirləri alt-üst etmişdir. 1988-1990-cı illərin əvvəllərində Azərbaycan parçalamaq təhlükəsi qarşısında idi. Bu dövrün şahidi kimi gördük ki, qara qüvvələrin təbliğatı əmin-amanlığı pozur, ziyalıların, ağsaqqalların sözü eşidilmir, respublikada hərc-mərclik hökm sürür.

Erməni millətçiləri Azərbaycan hakimiyyətində olan boşluqdan istifadə edərək Qarabağ torpaqlarımızı zəbt etdilər. Ölkə daxilindəki toqquşmalar, vəzifə iddiasında olanlar elə bir şərait yaratdılar ki, İkinci Dünya müharibəsində iştirak etmiş adlı-sanlı insanlar, əfsanəvi veteranlarımız təhqir olundular. Onlara qarşı kobudluq, hörmətsizlik adət şəklini almışdı. Müharibə veteranlarına qarşı ittihamlar səslənirdi ki, "Siz müharibədə başqa dövlətin maraqlarını qorumaq üçün vuruşmusunuz..."

15 iyun 1993-cü ildə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdanda hamıdan əvvəl veteranlarımız sevindi. Qısa müddətdə veteranlara qarşı törədilən haqsızlıqlar, ədalətsizliklər aradan qaldırıldı.

"Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu Heydər Əliyev tərəfindən 28 iyun 1994-cü il tarixdə imzalandı. Bu qanunla müharibə, əmək, silahlı qüvvələr, daxili işlər və milli təhlükəsizlik orqanları veteranlarının statusu müəyyənləşdirildi.

"Veteranlar haqqında" qanunun qüvvəyə minməsi ilə bağlı ulu öndər Heydər Əliyev demişdir: "...Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur".

Heydər Əliyev tərəfindən 1995-ci ildə imzalanan sərəncamla 9 may günü ölkəmizdə bayramlar sırasına daxil edildi. Onun bu incə qəlbli, kövrək insanlara qarşı olan isti münasibəti veteranlara yeni həyat bəxş etdi.

Hazırda Azərbaycan Respublikası Veteranlar Şurasına hörmətli general-mayor Dadaş Rzayev və onun birinci müavini Surxay Tağızadə rəhbərlik edirlər. Şura çalışır ki, hər bir veterana qayğı və diqqət göstərilsin, onlar tənha qalmasın, unudulmasın.

Prezident İlham Əliyev hər il İkinci Dünya müharibəsinin ildönümünü - 9 may bayramını iftixar hissi ilə qeyd edir, xüsusi sərəncamlarla Azərbaycan övladlarının xidmətlərini yüksək qiymətləndirir. Cənab Prezident Böyük Vətən müharibəsinin, eyni zamanda Qarabağ müharibəsi veteranlarının nümayəndələrini vaxtaşırı qəbul edir, onları dinləyir. Zəruri hallarda bu insanları mənzillə, avtomobillə təmin edir. Ehtiyacı olanlara maddi yardım göstərir.

Bu il də aprelin 30-da ölkə rəhbəri 1941-1945-ci illər Böyük Vətən müharibəsi əlilləri, iştirakçıları, həlak olmuş və sonradan vəfat etmiş döyüşçülərin dul arvadları, arxa cəbhədə fədakarlıq göstərən şəxslərlə bağlı üç sərəncam imzalamışdır. Həmin sərəncamlarla bu şəxslərə birdəfəlik yardımlar veriləcək, bəzi kateqoriyadan olan insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə Prezident təqaüdü artırılacaq və xüsusi avtonəqliyyatla təmin ediləcəklər. Bu diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlığımızı bildiririk.

Müharibə veteranlarının bayramını təbrik edirik. Dünyasını dəyişmiş veteranların ruhu şad olsun, salamat qalanlara cansağlığı, xoş həyat diləyirik.

***Cahangir NƏSİROV,***
***Azərbaycan Respublikası Veteranlar Şurasında Müharibə, Əmək və Silahlı Qüvvələr Təşkilatının Nəzarət Təftiş Komissiyasının sədri, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, prokurorluq orqanlarının fəxri işçisi, baş ədliyyə müşaviri***

# Azərbaycan-İtaliya parlamentlərarası əlaqələri müzakirə olunmuşdur

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov mayın 7-də İtaliya Senatının müdafiə komissiyasının sədri, Demokrat Partiyasının üzvü Nikola Latorrenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

AzərTAc xəbər verir ki, görüşdə Azərbaycan-İtaliya münasibətlərindən danışan Səməd Seyidov ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini demişdir. S.Seyidov münasibətlərimizin inkişafı üçün bir çox önəmli işlərin görüldüyünü söyləmiş, əməkdaşlığın bundan sonra da dərinləşməsi üçün bütün lazımi tədbirlərin görüləcəyinə əminliyini bildirmişdir. Komitə sədri vurğulamışdır ki, bu gün Azərbaycan və İtaliya arasında çoxşaxəli münasibətlər mövcuddur. Siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq inkişaf etməkdədir. Əlaqələrin möhkəmlənməsində yüksək səviyyəli səfərlərin xüsusi rolu olmuşdur.

Nümayəndə heyətinə Azərbaycan haqqında məlumat verən S.Seyidov bildirmişdir ki, bu gün ölkəmiz sürətlə inkişaf edərək regionun lider dövlətinə çevrilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan komitə sədri BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə bağlı qəbul etdiyi 4 qətnamənin işğalçı Ermənistan tərəfindən yerinə yetirilmədiyini vurğulamışdır.

Nikola Latorre ölkələrimiz arasında münasibətlərin sürətlə inkişaf etdiyini demişdir. O, belə qarşılıqlı səfərlərin münasibətlərin inkişaf etdirilməsi baxımından önəmli olduğunu bildirmişdir.

Qonaq Azərbaycan-İtaliya dostluq əlaqələrinin sürətlə inkişaf etdiyini vurğulamışdır. O, Azərbaycanın regionda sabit ölkə olduğunu diqqətə çatdırmışdır.

Görüşdə iki ölkənin parlamentləri arasında əlaqələrin inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

# "ADA" Universitetinin tələbələri Azərbaycanı Astanada keçirilən "Gənclik debatları"nda təmsil etmişlər

"ADA" Universitetinin bakalavr pilləsinin tələbələri Ruqiyə Qəhrəmanlı, Emil Ağcayev və Gülnar Dadaşova Asiya İnkişaf Bankının təşkilatçılığı ilə Qazaxıstanın paytaxtı Astanada keçirilən "Gənclik debatları-2014"də Azərbaycanı təmsil etmişlər.

"ADA" Universitetinin kommunikasiya departamentindən AzərTAc-a bildirmişlər ki, "İkinci Asiya Gənclik Forumu: sərhədləri aşan tərəfdaşlıq" mövzusunda keçirilən forumda 15 ölkəni təmsil edən 60 gənc lider iştirak etmiş, müxtəlif mövzular ətrafında öz fikirlərini bildirmiş və müzakirələr aparmışlar.

Yarışlarda ikinci yeri tutan komandamızın üzvü, "ADA" Universitetinin bakalavr pilləsinin tələbəsi Ruqiyə Qəhrəmanlı bütün ölkələrin təmsilçiləri arasında "Ən yaxşı debatçı" və universitetin təmsil etdiyi Azərbaycan komandası isə oynanılan raundlara əsasən ən güclü komanda adına layiq görülmüşdür.

Gülnar Dadaşova bildirmişdir ki, birinci yeri tutan komanda ilə bizim komandanın qələbələrinin sayı eyni olmuşdur. Elə buna görə də turnirin ən güclü komandası seçilməyimiz heç də təsadüfi deyildir.

Debatlar gənclərin Asiya və Sakit okeanı bölgəsində baş verən mühüm inkişaf prosesləri barədə məlumatlılıq, bilik və bacarıqlarını nümayiş etdirmək məqsədi daşıyır. Debatlar zamanı iqlim dəyişikliyi, təhsil, işə götürmə və işsizlik, ətraf mühit, o cümlədən idarəçilik kimi mövzular ətrafında müzakirələr aparılmışdır.

Emil Ağcayev qeyd etmişdir ki, bu, təkcə bizim və "ADA" Universitetinin qələbəsi deyil, bütün Azərbaycanın qələbəsidir. Bayrağımızı yüksəklərə qaldırdığımız üçün fəxr edirik.

# Atəşkəs rejimi pozulmuşdur

Ermənistan ordusunun bölmələri mayın 6-da və 7-də gecə Ermənistanın İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Berdavan kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qazax rayonunun Qızılhacılı və Kəmərli kəndlərində yerləşən mövqelərini atəşə tutmuşlar.

Azərbaycan Respublikasının Xocavənd rayonunun Kuropatkino və Tərtər rayonunun Göyarx kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulmuşdur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, düşmən cavab atəşi ilə susdurulmuşdur.

# Azərbaycan-İran dostluğunun əbədiliyi naminə




Azərbaycan milli müstəqilliyini bərpa etdikdən sonra bir-birindən ağır çoxsaylı problemləri həll etməli oldu. Gənc dövlət tarix səhnəsinə daxil olar-olmaz Ermənistanın hərbi təcavüzü ilə üzləşmişdi. Digər tərəfdən də daxili siyasi-iqtisadi böhran get-gedə dərinləşirdi. Ölkə vətəndaş qarşıdurmasının girdabına yuvarlanırdı. Belə bir şəraitdə gənc dövlət həm varlığını qoruyub saxlamalı, həm də tənəzzülə son qoyub inkişaf yoluna çıxmalı idi. Təəssüf ki, milli müstəqilliyin ilk illərində ölkənin ovaxtkı rəhbərliyi bu vəzifələrin öhdəsindən gələ bilmədi.

Bacarıqlı dövlət xadimi, təcrübəli siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə vəziyyət tamamilə dəyişdi.

Dövlətin yeni rəhbərinin səyləri ilə qısa müddətdə daxili siyasi sabitlik bərqərar oldu və müasir cəmiyyət quruculuğu prosesi start götürdü, eyni zamanda müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qoşulması, dünya birliyində layiqli yer tutması istiqamətində gərgin iş başladı. Respublika Prezidenti Heydər Əliyev dövlətin xarici siyasət xəttini müəyyənləşdirərkən qonşu ölkələrlə münasibətlərə xüsusi əhəmiyyət verirdi. Belə ölkələrdən biri də milli müstəqilliyimizi tanıyan ilk dövlətlərdən biri olan İrandır. İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayinin **"Heydər Əliyev və İranla daimi dostluğa əsaslanan baxış"** kitabında (Bakı, "Xəzər" Universiteti Nəşriyyatı, 2014) yeni dövrdə iki qonşu ölkə arasında dostluq münasibətlərinin yaradılmasında Azərbaycan xalqının ümummilli liderinin əvəzsiz xidmətlərindən bəhs edilir.

Kitabda haqlı olaraq vurğulanır ki, Azərbaycan və İran xalqları müştərək tarix, ortaq mədəni-dini dəyərlər baxımından bir-birinə yaxın olan az-az xalqlardandır. Sovet dövründə iki ölkənin sərhədindən keçən Araz çayı dostluq və yaxınlıq rəmzi olmaq əvəzinə iki xalq arasında başlıca maneə idi. Keçmiş sovet imperiyası dağıldıqdan və Azərbaycan müstəqilliyini elan etdikdən sonra Arazın hər iki sahilində vüsal nəğməsi oxundu, hər iki ölkədə yaşayan xalqların ürəkləri bir-birinə qovuşdu...

Müəllif Azərbaycan-İran dövlətlərarası münasibətlərinin yeni tarixini araşdırarkən Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən gördüyü işlərə xüsusi diqqət yetirir. Bu da təbiidir. Çünki Azərbaycanla İran arasında ikitərəfli əlaqələrin təməli elə o vaxt qoyulmuşdu. Məlum olduğu kimi, həmin dövrdə Ermənistanın təcavüzkar siyasəti nəticəsində Naxçıvan blokadaya düşmüş, muxtar respublikanın Azərbaycanla quru əlaqəsi kəsilmişdi. Naxçıvan blokadanın məhrumiyyətləri ilə üz-üzə qalmışdı. Belə bir ağır vəziyyətdə İran köməyə gəldi. Heydər Əliyev qonşu ölkənin rəhbərləri ilə sıx təmasa keçdi, nəticədə Naxçıvanı blokadadan çıxarmaq, əhalinin elektrik enerjisi və qida ehtiyaclarını təmin etmək mümkün oldu. Ulu öndər sonralar o günləri xatırlayaraq deyirdi: "Çox ağır vəziyyətdə yaşayırdıq. Bir tərəfdən Ermənistanla müharibə gedirdi, Ermənistan-Azərbaycan sərhədlərində atışma gedirdi, orada müharibənin qarşısını almaq lazım idi. Bir tərəfdən də insanları yaşatmaq lazım idi. Mən heç vaxt unutmaram ki, İran o zaman bizə çox kömək etdi".

Ermənistanın hərbi təcavüzünün davam etdiyi sonrakı illərdə də İran Azərbaycana yardımını əsirgəməmiş, yurd-yuvasını tərk etmək məcburiyyətində qalmış həmvətənlərimizə yardım əli uzatmış, eləcə də beynəlxalq təşkilatlarda haqq işimizi müdafiə etmiş, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanmasına daim dəstək vermişdir. İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə tutduğu bu prinsipial mövqe rəsmi Bakı tərəfindən həmişə minnətdarlıqla qarşılanmışdır.

Heydər Əliyev prezident seçilib ölkəyə rəhbərlik etməyə başladıqdan sonra Azərbaycan-İran əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Müəlllifin qeyd etdiyi kimi, coğrafi yaxınlıq, tarixi-mədəni bağlılıq, geniş ticarət potensialı və nəqliyyat şəbəkəsi ikitərəfli əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməyə imkan verirdi. Həm Azərbaycan, həm də İran bu böyük potensialı hərəkətə gətirməkdə son dərəcə maraqlı idi. "Heydər Əliyev və İranla daimi dostluğa əsaslanan baxış" kitabında iki ölkə arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əlaqələrin yaradılmasından, ümummilli liderin bu işə verdiyi böyük töhfədən ətraflı söhbət açılır. Müəllif yazır ki, cənab Heydər Əliyevin maraq dairəsində olan mövzulardan biri də energetika sahəsində İran İslam Respublıkası ilə əməkdaşlıq idi. Ötən əsrin 90-cı illərində Azərbaycan dünyanın aparıcı şirkətləri ilə birlikdə Xəzərin özünə aid sektorunda karbohidrogen ehtiyatlarını istismar etməyə başladı. Həm region, həm də dünya iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən neft-qaz layihələrinə maraq göstərən ölkələr çox idi. Neft sənayesində zəngin təcrübəyə malik olan İran da onların arasında idi. Amma o vaxt qonşu ölkənin bu layihələrdə iştirakını istəməyən xarici dairələr də vardı. Məhz Heydər Əliyevin səyi ilə İran Dövlət Neft Şirkəti 4 iyul 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağının birgə istismarı haqqında beynəlxalq konsorsiumla müqavilə bağladı və layihənin tamhüquqlu iştirakçısı oldu. Bu, iki qonşu və dost ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün zəmin yaratdı.

Əlbəttə, Azərbaycan-İran əlaqələri təkcə enerji sektoru ilə məhdudlaşmır. Müəllif ikitərəfli əməkdaşlığın digər sahələrinə (ticarət, turizm, mədəniyyət, incəsənət və s.) də toxunur, ümummilli liderin ikitərəfli əlaqələri irəli aparmaq məqsədilə atdığı addımları geniş təhlil edir. Bütövlükdə "Heydər Əliyev və İranla daimi dostluğa əsaslanan baxış" kitabı Azərbaycan-İran dostluğunun əbədi olması ideyasının müdafiəçisi kimi ulu öndərin çoxcəhətli siyasi fəaliyyətinin mühüm bir hissəsini işıqlandıran tədqiqat kimi təqdirəlayiqdir.

***"Azərbaycan"***




# Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin Binəqədi rayon hissəsinin 1 nömrəli bölməsinin açılışı olmuşdur

Mayın 7-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidməti Binəqədi rayon hissəsinin Abşeron rayonu Novxanı qəsəbəsindəki 1 nömrəli bölməsinin açılışı olmuşdur. FHN-in mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ən yüksək standartlara cavab verən müasir avadanlıqla təchiz olunmuş binanın rəmzi açılışını bildirən lenti kəsmişdir.

Kəmaləddin Heydərov burada təşkil olunmuş və ulu öndər Heydər Əliyevin fotoşəkilləri olan stend, dispetçer, tədris və istirahət otaqları, yeməkxana ilə tanış olmuşdur.

Nazir şəxsi heyətlə də görüşmüş, müvafiq tapşırıq və tövsiyələrini vermişdir. FHN Dövlət Yanğından Mühafizə Xidməti Binəqədi rayon hissəsinin Abşeron rayonu Novxanı qəsəbəsindəki 1 nömrəli bölməsinin istifadəyə verilməsi bu ərazidə yanğın təhlükəsizliyinin daha etibarlı təmin edilməsi və yanğınsöndürmə tədbirlərinin operativ həyata keçirilməsini asanlaşdıracaqdır.

# "Qarabağ" çempiondur!




Dünən Tofiq Bəhramov adına Respublika stadionunda böyük bayram yaşanırdı. İnsanların sevincinin həddi-hüdudu yox idi. Çünki futbolsevərlərin oyunlarını böyük maraq və həyəcanla izlədiyi "Qarabağ" komandası 21 illik fasilədən sonra ölkə çempionu adına sahib olmuşdu.

Premyer Liqanın 34-cü turu çərçivəsində "Qarabağ" "İnter"i qəbul edirdi. Görüşə daha inamlı başlayan ağdamlı futbolçular 13-cü dəqiqədə Reynaldonun vurduğu qolla hesabı açdılar. Bundan sonra paytaxt təmsilçisi hesabda tarazlığı bərpa etməyə çalışsa da, buna nail ola bilmədi.

Reynaldo 70-ci dəqiqədə müdafiəçiləri çaş-baş salaraq hesab arasındakı fərqi 2 topa çatdırdı. Bundan sonra "İnter"li Baçana Sxadadze fərqləndi. Lakin bu qol "bankirlər"ə baha başa gəldi. Belə ki, sürətli əks-hücumlarda "Qarabağ" Reynaldo və Muarem Muaremin vurduğu qollar sayəsində çempionluğunu rəsmiləşdirdi - 4:1.

Bununla da, xallarının sayını 72-yə çatdıran "Qarabağ" Premyer Liqada 2013-2014-cü il mövsümünün qalibi oldu.

Qarşılaşmadan sonra "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov dedi: "Çoxdan bu cür qələbə qazanmaq istəyirdik. Həm baxımlı oyun oldu, həm də çempion olduq. Hamını bu münasibətlə təbrik edirəm. Bu oyunda hər şey var idi, qollar, yüksək sürət, qol epizodları. "İnter" də çempionluğa layiq komandadır, mövsümü yaxşı keçirdilər. Kaxaber Sxadadzenin işini həmişə yüksək qiymətləndirmişəm. Yaxşı komandası, futbol biliyi var. Rəhbərliyimizə təşəkkür edirəm, komandanı yuxarı pillələrdə görmək üçün hər şey ediblər. Mükəmməl mövsüm keçirdik. Bundan sonra daim bu yerlər uğrunda mübarizə aparmalıyıq. Heyətimizdə Rəşad Sadıqovdan başqa çempion olan futbolçumuz yox idi. Bundan sonra Çempionlar Liqası haqqında düşünmək olar".

Beləliklə, ölkəmizi UEFA Çempionlar Liqası yarışlarında Ağdamın "Qarabağ" klubu təmsil edəcəkdir.

Turun digər oyunları belə nəticələnmişdir: "Qəbələ" - "Bakı" - 3:1, "Xəzər-Lənkəran" - "Sumqayıt" - 4:1, "Rəvan"- "Simurq" - 1:0, AZAL - Neftçi - 0:0.

# Bakıda "Qız qalası" V Beynəlxalq incəsənət festivalı başlamışdır

Mayın 7-də İçərişəhərdə - Qız qalasının qarşısındakı meydanda "Qız qalası" V Beynəlxalq incəsənət festivalı başlamışdır.

AzərTAc xəbər verir ki, festival Heydər Əliyev Fondunun təşəbbüsü və xüsusi dəstəyi, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi, Müasir İncəsənət Muzeyi və "Qız Qalası" İncəsənət Qalereyasının birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən keçirilir.

2010-cu ildə başlanan, üç il ardıcıl Azərbaycanın paytaxtında, bir dəfə isə Fransanın Kann şəhərində keçirilən "Qız qalası" Beynəlxalq incəsənət festivalının bu il beşincisi gerçəkləşdirilir.

Ənənəvi olaraq ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsində keçirilən festivalın əsas məqsədi dünyanın müxtəlif yerlərindən gələn rəssamlar vasitəsilə Azərbaycan mədəniyyəti və incəsənətinin tanıdılması, eləcə də Bakının rəmzi olan Qız qalasının dünyada təbliğinə töhfə verməkdir.

Azərbaycan memarlığının incisi, xalqımızın zəngin mədəniyyətinin və beynəlxalq tarixi irsin nümunələrindən biri olan Qız qalası həm də mədəniyyətlərarası dialoqun zənginləşdirilməsinə xidmət edən əhəmiyyətli vasitədir.

Mayın 9-dək davam edəcək builki festivalda dünyanın 27 ölkəsindən 29 tanınmış rəssam iştirak edir.

Festivalda rəssamlar Qız qalasının maketlərini öz milli üslublarında bəzəyərək fərqli mədəniyyət və adət-ənənələrin sintezini və qarşılıqlı mübadiləsini əks etdirən əsərlər yaradırlar. Hər biri özünəməxsus və fərqli üslubda olan bu nadir müəllif işləri dünyanın müxtəlif ölkələrində nümayiş etdirilərək, Qız qalasının təbliğində əhəmiyyətli vasitəyə çevrilir.





Festivalın təşkilatçıları diqqəti həm də ətraf mühitin mühafizəsi məsələsinə cəlb etməyə qərar vermişlər. Nəsli kəsilməkdə olan "Qafqaz beşliyi"nin simvolu kimi seçilmiş ceyran maketləri hazırlanaraq rəssamlar tərəfindən xüsusi rəsm üslubu və dekorasiya ilə bəzədilir.

Festivalın konseptual xəyal sərhədləri hər il yeni tematik komponentin əlavə edilməsi sayəsində genişləndirilir. Bu il Bakıda festival çərçivəsində dünyada küçə incəsənətinin (street art) ən populyar növlərindən biri olan 3D rəsmlərin təqdim edilməsi planlaşdırılır. Üçölçülü optik illüziyanın köməyi ilə yaranan müəyyən nəzər nöqtəsi Qız qalasının zirvəsinə qalxmaq, qədim şəhərin meydanına açılan məftunedici mənzərəni seyr etmək imkanı yaradır.

Sonda bənzərsiz sənət əsərlərinə çevrilən Qız qalası maketləri əvvəlcə Bakı sakinləri və şəhərimizin qonaqları üçün İçərişəhərdə, daha sonra isə müxtəlif ölkələrdə sərgilənir, ölkəmizi, onun tarixini və mədəniyyətini təmsil edir.

# "Tour d'Azerbaidjan-2014"də ilk mərhələ başa çatdı

Dünən 25 komandanın qatıldığı və 5 mərhələdən ibarət olan yarışın 154 kilometrlik ilk mərhələsi başa çatmışdır.

Dövlət bayrağı meydanından start götürüb Sumqayıtda başa çatan yürüşün qalibi İtaliyanın "Androni Giocattoli" klubunun üzvü, hollandiyalı Kenni van Hummel olub - 3 saat 46 dəqiqə 38 saniyə. O, növbəti mərhələdə liderin daşıdığı göy köynəklə çıxış edəcək. Ən yaxşı sprinterə verilən yaşıl köynək də ona qismət olub.

Ukraynanın "Kolss Cyclind Team" komandasının velosipedçisi Vitali Buts 2-ci olub. Bu idmançı ən yaxşı dağ velosipedçisi kimi qırmızı köynəyə də sahib çıxıb. İspaniyanın "Caja Rural Seguros" komandasında çıxış edən italiyalı David Viqano 3-cü olub. "Synergy Baku" komandasında ən yaxşı göstəriciyə Maksim Averin imza atıb - o finiş xəttini liderlə eyni vaxtda keçsə də, 4-cü olub.

Ən yaxşı gənc velosipedçi isə Aleks Frey olub. İsveçin "Development Team Giant-Shimano" komandasının üzvü ağ-bənövşəyi köynəyə sahib çıxıb.



"Azərbaycana gəlməzdən əvvəl məni ölkənizin necə olması düşündürürdü. Gəlib hər şeyin əla olduğuna şahid oldum". Bu sözləri veloyürüşün 1-ci mərhələsinin qalibi Kenni van Hummel deyib.

O, yürüşdən sonra keçirilən mətbuat konfransında qələbəsinə şərh verib: "Yollarınız çox gözəldir. Fikrimcə, bu gedişlə yarış yalnız inkişaf edə bilər. Startdan əvvəl küləkdən ehtiyat edirdim. Çünki güclü külək əsirdi. Lakin 5 km qət edəndən sonra bir az rahatlaşdım. Finişə 500 m qalmış məni irəli gətirdilər. 300 m qalmış isə özüm irəli sıçradım. Hələlik özümü yarışın deyil, mərhələnin qalibi görürəm. Sabah da eyni uğuru qazanmağa çalışağacam".

"Bugünkü mərhələnin fərqlənənləri çox çətin şəraitdə mübarizə aparıb, qalib oldular. Azərbaycanda 11 iqlim qurşağından 9-u var, bu gün də bunlardan birini qonaqlara göstərdik". Bu sözləri Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, yarışın Təşkilat komitəsinin sədri Sahib Ələkbərov deyib.

O, "Tour d'Azerbaidjan" veloyürüşünün bu gün keçirilən I mərhələsindən sonra baş tutan mətbuat konfransında yarış haqda danışıb: "İdmançılar səhra və yarımsəhra ilə tanış oldular. Sabah isə İsveçrə və Avstriya iqlimlərini görəcəksiniz. Növbəti mərhələlərdə başqa bir gözəlliyin şahidi olacaqsınız. "Sinergy Baku"nun üzvü Maksim Averinin göstəricisi yaxşıdır. Komandamız liderlər qrupuna düşə bildi. Düşünürəm ki, növbəti mərhələlərdə velosipedçilərimiz özlərini daha yaxşı göstərəcəklər".

Qeyd edək ki, veloyürüşün ikinci mərhələsi sabah Bakıdan başlayıb, İsmayıllıda bitəcək. Velosipedçilər finiş xəttinə çatmaq üçün 187 km məsafə qət edəcəklər.



# Beynəlxalq aləm: HADİSƏLƏR, FAKTLAR

## Ukraynada səfərbərlik elan edildi




Ukrayna Ali Radası dövlət başçısının səlahiyyətlərini icra edən Aleksandr Turçinovun qismən səfərbərlik haqqında fərmanını təsdiqləmişdir. Bu barədə UNİAN agentliyi xəbər verir.

Fərmana görə, qismən səfərbərlik 45 gün ərzində Vinnitsa, Volın, Dnepropetrovsk, Donetsk, Jitomir, Zakarpatye, Zaporojye, İvano-Frankovsk, Kiyev, Kirovoqrad, Luqansk, Lvov, Nikolayev, Odessa, Poltava, Roveno, Sumı, Ternopol, Xarkov, Xerson, Xmelnitsk, Çerkassk, Çernovtsı, Çerniqov vilayətlərində və Kiyev şəhərində keçiriləcək.

Bu arada ukraynalı hərbçilər Mariupol şəhər sovetinin binasını separatçılardan təmizləmişlər. Şəhərdə nəqliyyatın hərəkəti bərpa olunmuşdur.

Donetskdə isə "Donetsk xalq respublikası"nın yaraqlıları Ukrayna silahlı qüvvələrinin üç hərbi qulluqçusunu, o cümlədən iki zabiti əsir götürmüşlər. UNİAN agentliyi xəbər verir ki, uzun sürən danışıqlardan sonra hərbçiləri əsirlikdən xilas etmək mümkün olmuşdur.

Dünən səhər Slavyansk ətrafında döyüşlər qızışmışdır. "İnformasiya müqaviməti" qrupunun operativ məlumatına əsasən, səhərə yaxın bir qrup terrorçu Slavyansk yaxınlığında mühasirəni yarmağa cəhd etmişdir. Lakin antiterror əməliyyatı qüvvələri bu cəhdin qarşısını almışdır.

## Tailand hökumətinin başçısı istefaya göndərildi



Dünən Tailand Konstitusiya Məhkəməsi Baş nazirin səlahiyyətlərini icra edən Yinqlak Çinavatı istefaya göndərmişdir. Məhkəmə kollegiyasının hökmünə əsasən, Çinavatın kadrlarla bağlı qərarlarından biri qeyri-konstitusion hesab edilmişdir.

Hökumətin başçısı məhkəmə prosesində iştirak etməmişdir. O, iclası öz kabinetində videoyayım vasitəsilə izləmişdir.

Xatırladaq ki, Tailandın 28-ci Baş naziri Yinqlak Çinavat 2011-ci il avqustun 5-də ölkə parlamenti tərəfindən bu vəzifəyə seçilmişdir.

## "Boko Haram" Nigeriyada 300 məktəbli qızı oğurladı




Nigeriyada fəaliyyət göstərən "Boko Haram" islamçı qruplaşması 300-ə yaxın məktəbli qızın oğurlanmasına görə məsuliyyəti üzərinə götürmüşdür. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Qruplaşmanın lideri Əbubakar Şəkau "Frans Press" agentliyi tərəfindən yayılmış videomüraciətdə demişdir ki, qızları özü oğurlamışdır və onları bazarda satacaq.

Xatırladaq ki, aprelin 14-nə keçən gecə Borno ştatının Şibok şəhərindəki məktəbdən 276 məktəbli qız oğurlanmışdır. 16-18 yaşlı qızlar bu il məktəbi bitirməli idilər. 53 qız girovluqdan qaça bilmişdir. Qalanları isə hələ də ekstremistlərin əlindədir.

"Boko Haram"ın üzvləri Qərb təhsili və mədəniyyətinə qarşı çıxırlar. Təhsil müəssisələri tez-tez onların hücumuna məruz qalır. Məsələn, fevralın axırlarında qruplaşmanın yaraqlıları ölkədəki kolleclərin birinə hücum etmişdilər. Nəticədə 59 nəfər həlak olmuşdu.

Son məlumata görə, qruplaşmanın üzvləri ölkənin şimal-şərqində, Borno ştatının Varabe kəndində orta məktəbə soxularaq 12-15 yaşında daha 8 qızı oğurlamışlar.

## Rusiya İranla "kosmik müqavilə" imzaladı

"Roskosmos" İran Kosmik Agentliyi ilə əməkdaşlıq haqqında müqavilə imzalamışdır. Bu barədə "İzvestiya" qəzeti xəbər verir.

Müqaviləyə əsasən, Rusiya raketləri İran peyklərini kosmosa çıxaracaq, iranlı kosmonavtlar Moskva ətrafındakı Ulduz şəhərciyində təlim keçəcəklər. İran həmçinin Yerin Rusiya peyklərindən çəkilən fotoşəkillərini almaqda maraqlıdır.

Müqavilənin şərtlərinə görə, Moskva Yerin Rusiyaya məxsus "Resurs-DK" və "Resurs-P"peyklərindən çəkilən fotoşəkillərini Tehrana təqdim edəcək. Bundan əlavə, rusiyalı mütəxəssislər belə şəkilləri çəkə bilən Yerin uzaqdan zondlaşdırılması sistemini yaratmaqda iranlılara kömək edəcəklər.

## Əlcəzairdə yeni hökumət yaradıldı

Əlcəzair Prezidenti Əbdüləziz Butəfliqə bəyan etmişdir ki, yeni hökumətin formalaşdırılması başa çatmışdır. Bu barədə İTAR-TASS agentliyi xəbər verir.

Məlumata əsasən, əvvəlki kabinetin əsas nazirləri öz vəzifələrini qoruyub saxlamışlar. Nazirlər Kabinetinə 65 yaşlı Əbdülmalik Səllal başçılıq edəcək.

Xatırladaq ki, 2012-ci ilin sentyabrından ötən ilin mart ayınadək hökumətə başçılıq etmiş Səllal Butəfliqənin seçkiqabağı qərargahına rəhbərlik etmək üçün martda istefaya getmişdi. Aprelin 17-də keçirilmiş prezident seçkilərinin birinci turunda 81 faiz səs toplayan Butəfliqə qalib gəlmişdir.

Əlcəzair qanunvericiliyinə görə, Baş naziri prezident təyin edir. Bundan sonra isə hökumət başçısının təqdim etdiyi kabinet üzvlüyünə namizədlər prezident tərəfindən təsdiqlənir.

## Əfqanıstanda 244 məhbus əfv edildi

Əfqanıstan hökuməti ölkənin şimal-qərbində yerləşən Sarı-Pul əyalətinin mərkəzi həbsxanasından 244 məhbusu azadlığa buraxmışdır. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, məhbuslar Prezident Həmid Kərzayın şəxsi əmrinə əsasən azad edilmişlər. Proses üç mərhələdən ibarət olacaq. Əmr ölkədəki bütün cəzaçəkmə müəssisələrinə, o cümlədən Bağramdakı məşhur həbsxanaya şamil ediləcək. Yüngül və orta yüngül cinayətlər törətmiş bütün şəxslərin azadlığa buraxılması nəzərdə tutulur. Buraxılanlar arasında Talibanın keçmiş yaraqlıları da olacaq.

Xatırladaq ki, bir həftə əvvəl Əfqanıstan hökuməti NATO-nun bu yaxınlarda aşkarlanmış 6 qeyri-leqal həbsxanasının bağlandığını və qanunsuz saxlanılan əfqanların azadlığa buraxıldığını bəyan etmişdi. ABŞ və NATO-ya daxil olan digər ölkələrin narazılığına baxmayaraq, mart ayında Bağram həbçxanasından 77 məhbus azadlığa çıxmışdır.

*McDonald's 15 il Azərbaycanda*

## "McDonald's Azərbaycan" MMC KİV üçün "Açıq Qapı Günü" keçirmişdir

Şirkətin Azərbaycanda fəaliyyətinin 15 illiyinə həsr edilmiş tədbirdə "McDonald's Azərbaycan" MMC şirkətinin idarəedici direktoru Maqsud Mirzəyev tədbir və mətbuat konfransını tamamilə başqa formatda keçirməyi təklif etdi. Kütləvi informasiya vasitələrinin nümayəndələrini restoranın xidməti sahələri ilə tanış olmağa dəvət etmişdir. Eyni zamanda, məhsulların saxlama şəraiti və istehsal olunması üzrə əsas prosedurlar, tərkibi haqqında ətraflı məlumat verilmişdir. M.Mirzəyevin təklifi ilə KİV nümayəndə heyəti restoranın bütün istehsalat sahələrini ziyarət etdi, müxtəlif yarımfabrikatların və hazır məhsulların dadına baxdı. Bundan sonra jurnalistlərin suallarını cavablandıran "McDonald's" rəhbərliyi tədbirin sonunda şirkətin planları və Azərbaycandakı nailiyyətləri barədə danışdı.

Qeyd olundu ki, dünyanın 130 ölkəsindəki "McDonald's" restoranlarının gündəlik 70.000 000 müştərisi kimi, Azərbaycan istehlakçısı da "McDonald's" şirkətinin yüksək keyfiyyətinə etibar edir. Həm Azərbaycanda, həm də bütün dünyada şəbəkənin restoranlarında satılan məhsulların hamısı nəinki keyfiyyət tələblərinə, eləcə də HACCP planı (Qida təhlükəsizliyi planı) üzrə qidanın təhlükəsizliyi tələblərinə cavab verir.

"Makdonald's Azərbaycan" şirkətinin, 1999-cu ildən başlayan fəaliyyətinin birinci günündən etibarən əsas istiqamətlərindən biri, onun uşaq xeyriyyəçiliyi və məhdud fiziki imkanlara malik uşaqlara qayğı ilə bağlıdır. "Makdonald's Azərbaycan" korporasiyasının fəlsəfəsinə onun banisi, "Sosial fəallığımız ilə işlədiyimiz bütün ölkələrdə cəmiyyətin ayrılmaz hissəsi olaq" deyən Rey Krok tərəfindən 1954-cü ildə daxil edilmiş ümumdünya xeyriyyəçilik proqramının fəal iştirakçısı olmuşdur. "Makdonald's Azərbaycan" şirkəti bütün xeyriyyə təşkilatlarının, Uşaq evlərinin, internat məktəblərin və vətəndaşların bütün müraciətlərini dəstəkləyir, onlara daim cavab verir və müxtəlif avadanlıq, məişət texnikası, mebel, gündəlik tələbat malları, eləcə də nəqliyyat vasitələrini müstəqil alaraq bu müəssisələrin uşaqlarına hədiyyə olaraq verir.

***Məmməd AĞAYEV, "Azərbaycan"***

## Sağlamlığa zərərli məhsulların satışı yolverilməzdir

*Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən verilən məlumata görə, mayın 7-də Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən Zaqatala şəhərində yerləşən "Zaqatala Bazar-2" açıq tipli səhmdar cəmiyyətində dövlət nəzarəti tədbirləri həyata keçirilmişdir.*

Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, bazarda mənşəyi bilinməyən, gigiyenik və uyğunluq sertifikatları olmayan məhsullar satılır. Eyni zamanda, bazarda istismar olunan ölçmə vasitələrinin müqayisəli dövlət yoxlamasından keçirilmədiyi, ət məhsullarının satışı üçün ayrılmış sektorun natəmiz saxlanıldığı aşkar edilmişdir. Bunlarla yanaşı, kənd təsərrüfatı məhsullarının, şirniyyat, ət və süd məmulatlarının antisanitar vəziyyətdə və saxlanma rejiminə əməl olunmadan üstüaçıq şəkildə satıldığı müşahidə edilmişdir.

Aşkar olunmuş bu və digər nöqsanların aradan qaldırılması ilə bağlı bazar rəhbərliyinə xəbərdarlıq edilmiş, istifadə olunan ölçmə vasitələrinin istismarı və mənşəyi məlum olmayan məhsulların satışı qadağan edilmiş, inzibati xəta haqqında protokol tərtib edilmişdir.

Qeyd edək ki, ölkə ərazisində yeyinti və qida məhsullarının gigiyenik qaydalara uyğun tənzimlənməsi və mənşəyi məlum olmayan ərzaq məhsullarının dövriyyədən çıxarılması məqsədi ilə mütəmadi reydlər keçirilir. Artıq paytaxt və bölgələrdə bu istiqamətdə atılan addımlar müsbət nəticələrini verməkdədir.

***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadəyə bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Əliağa Hüseynov Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin prorektoru professor Rahim Hüseynova anası
**NƏNƏQIZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadəyə bacısı
**DİLARƏ SƏMƏDZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu Azərbaycan Respublikası Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru İskəndər Çəndirliyə anası
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təlatüm Quliyev ailəsi ilə birlikdə Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin prorektoru professor Rahim Hüseynova anası
**NƏNƏQIZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

---

2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin sədri Rəşid Rzayev və məhkəmənin kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İlham Quliyev və Zakir Quliyev Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı və Həmkarlar İttifaqı Komitəsi Aparatın İşlər İdarəsinin sektor müdiri Tahir Almazova əzizi
**QİYAS MUSTAFAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mətbuat Şurasının sədri Əflatun Amaşov "Təfəkkür" Universitetinin prorektoru professor Rahim Hüseynova anası
**NƏNƏQIZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadəyə bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mirdaməd Sadıqov, Rahib Seyidov, Nizami Qocayev, Azad Əliyev və Kamal Axundov Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cavanşir Yusifov Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İmran Əbilov Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin prorektoru Rahim Hüseynova anası
**NƏNƏQIZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Hərbi Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşları iş yoldaşları Hafizə Şirinovaya anası
**SƏRİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Komitənin sədri Hicran Hüseynova və kollektivi Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru İskəndər Çəndirliyə və Milli Məclisin deputatı Ziyad Səmədzadəyə əzizləri
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elmira Süleymanova Milli Məclisin deputatı, AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor Ziyad Səmədzadəyə və ailəsinə əzizləri
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Satınalmalar üzrə Dövlət Agentliyinin kollektivi İskəndər Çəndirliyə anası
**DİLARƏ SƏMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağsu rayonundan Ənvər Seyidəliyev və Hafis Məmmədov Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin əməkdaşları Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadəyə və Azərbaycan Respublikası Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru İskəndər Çəndirliyə əzizləri
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadəyə bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru İskəndər Çəndirliyə anası
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru İskəndər Çəndirliyə anası
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin sədri Tofiq Paşayevə qardaşı
**FAİQ PAŞAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Beynəlxalq Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadəyə bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Beynəlxalq Bankının rəhbərliyi və kollektivi Daxili nəzarət və monitorinq departamentinin şöbə müdiri Fəxriyyə Çəndirliyə anası
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Bakıelektrikşəbəkə" ASC İdarə Heyətinin sədri Baba Rzayev Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadəyə bacısı
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Bakıelektrikşəbəkə" ASC İdarə Heyətinin sədri Baba Rzayev Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru İskəndər Çəndirliyə anası
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Saatlı Rayon Prokurorluğunun kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Daxili İşlər Nazirliyinin Daxili Təhqiqat İdarəsinin rəisi general-mayor Rasim Musayev Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi şöbəsinin əməkdaşları: Elxan Kazımov, Hüseynxan Məmmədov, Əli Bayramov və Eldar Məcidov Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Sahibkarlıq, Özəl və Elm Müəssisələri İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Tofiq Quliyev Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin prorektoru professor Rahim Hüseynova anası
**NƏNƏQIZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kürdəmirdən Əlixan Əliyev və Sulduz Ləzimov Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şəki Apelyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubova anası
**ADİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı - | 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi - | 432-37-68, |
| Baş redaktor müavinləri - | 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi - | 538-56-60, |
| Məsul katib - | 539-43-23, | Reklam şöbəsi - | 539-49-20, |
| Məsul katib müavinləri - | 539-44-91, | Kompyuter mərkəzi - | 538-20-87, |
| Parlament və siyasət şöbəsi - | 539-72-39, 539-63-82, | Fotoinformasiya şöbəsi - | 538-84-73, |
| İqtisadiyyat şöbəsi - | 538-42-32, 538-35-55, | Mühasibat - | 539-59-33, |
| Xalqla əlaqə şöbəsi - | 539-84-41, | Faks - | (+994 12) 5398441 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 10619
Sifariş 1557